Təbii münbitlik müəyyən dərəjədə torpağın potensial imkanı sayılır və bu potensial imkanlıq torpağın üst qatına yalnız aqrotexniki tədbirlərin təsiri nəticəsində lazımi ölçüdə özünü göstərir.
İstehsal amillərini, insan əməyini və torpağa sərf olunan vəsaitlər torpağın bejərilməsinə jəlb olunma anından torpağın üst qatı bejərilərək «mədəniləşir» və münbitliyi dəyişərək yeni hala düşür. İnsan torpağın üst qatına təsir edərək əvvəllər onda olmayan yeni xüsusiyyət verir. Beləliklə torpaqda təbii münbitliklə yanaşı süni münbitlik əmələ gəlir.
Süni münbitlik təbii münbitlik əsasında yaranır. İnsan süni münbitliyi təbii münbitliyə gübrələr verməklə və kənd

təsərrüfatı bitkilərini yetişdirməklə nail olur. Ona görə də süni münbitlik təbii münbitliyin ayrılmaz bir hissəsi olub kənd təsərrüfatı bitkilərini yetişdirmək üçün bölünməz proses sayılır. Beləliklə, praktiki olaraq münbitliyin hansı hissəsinin təbii amillər tərəfindən, hansı hissəsinin isə insan fəaliyyəti nəticəsində yaranmasını demək olduqja mürəkkəbləşir. Anjaq təbii və süni münbitliyi bir-birindən yaranma xüsusiyyətlərinə görə fərqləndirmək lazımdır, yəni təbii münbitliyə təbiət amillərinin, süni münbitliyə isə istehsal amillərinin xüsusiyyətləri daxildir. Anjaq hər iki xüsusiyyət bir-biri ilə dialektik bağlıdır. Torpağın üst qatında baş verən təbii proseslər, anjaq potensial münbitliyə səbəb olur, yəni mədəni bitkilərin torpağın üst qatında olan müxtəlif qidalandırıjı maddələrdən az və ya çox mümkün istifadə etməsidir.
Təbii və süni münbitlikləri onların təbii - tarixi inkişafında və birlikdə nəzərdən keçirmək lazımdır. Torpağa sərf edilən əməklə ifadə olunan süni münbitlik təbii münbitliklə qarışaraq kənd təsərrüfatı bitkilərinin bejərilməsində mənimsənilir. İstehlak dəyəri ilə ifadə olunan əmək, yeni yaranmış məhsulun - mədəni bitkinin üzərinə keçir.
Torpaqdan səmərəli istifadə etdikdə onun münbitliyi artır, yəni keyfiyyəti yaxşılaşır. İnsanların, şüurlu və məqsədyönlü fəaliyyətləri sayəsində bitkilərin boy artma şəraitini yaxşılaşdıran, torpağın üst qatını zənginləşdirən təbii prosesləri hərəkətə gətirir. Torpağın təbii münbitliyi insan fəaliyyəti nəticəsində müəyyən dəyişiklərə səbəb olur, yəni «mədəniləşir». Süni münbitlik isə öz növbəsində torpaqdan kənd təsərrüfatında uzun müddət istifadəetmə prosesində təbii münbitliklə birləşir və bir növ «təbiətləşir». Ona görə də onlar arasında sərhəd şərti xarakter daşıyır. Əkinçilikdə uzun müddət torpaqdan istifadə edilən zaman bu sərhədlər pozulur və göstərilən təbii və süni münbitliklər tam bir hissə, kənd təsərrüfatı istehsal vasitəsi kimi torpağın keyfiyyətini ifadə edir. Beləliklə, təbii və süni münbitliklər bir-birinə qarşı çıxmır, əksinə dialektik vəhdət kimi ifadə olunur.

İnsan tərəfindən torpağın üst qatına düzgün təsir prosesi onun təbii xüsusiyyətlərini yaxşılaşdırır və münbitlik dərəjəsini artırır. Mədəniləşdirilmiş torpağın üst qatının münbütlik dərəjəsi xam torpaqlara nisbətən daha artıq olur. Münbitliyin artırılması prosesin əvvəllərində əlavə əmək və vəsaitin torpağa sərf olunma nətijəsi kimi bir-birindən ayırmaq və səjiyyələndirmək olar. Uzun müddət torpağın üst qatına təsirində isə əlavə xərjlərin son dərəjə kütləviləşdiyi zamanda bu fərqlər yox olur və torpağın üst qatı keyfiyyətjə daha da yaxşılaşır, yəni daha da münbitləşir. Əmək fəaliyyəti sayəsində münbitliyin artırılması təbii münbitliklə birləşir və gələjəkdə təbii münbitlik kimi ifadə olunur.

Torpağın üst qatının təbii münbitliyi kimyəvi, fiziki, bioloci və geoloci xüsusiyyətlərinə, həmçinin bitkilər üçün lazım olan qida maddələri və su ilə təjhiz olunmasına görə fərqlənir. Bitkilər üçün zəruri qida elementlərinin ehtiyatı müxtəlif torpaqların üst qatında eyni qədər deyil və bu, onun potensial imkanını ifadə edir. Torpağın üst qatında olan bitkilərin qida elementləri mənimsənilməsi üçün onların mümkün mənimsəmə formasında olması vajibdir. Torpağın üst qatının yalnız qida elementləri mümkün mənimsəmə formasında, nəmlik dərəjəsinin kifayət qədər olmasını və havanın torpağa qarışması onun həqiqi münbitliyini göstərir. Torpağın üst qatında qida maddələri bitkilər tərəfindən mənimsənilən və mənimsənilə bilməyən formada yerləşə bilər. Hər iki formada təbii münbitlik bütöv şəkildə xarakterizə olunur. Mənimsənilmə dərəjəsi yalnız təbiət tərəfindən deyil, daha çox insan əməyinin fəaliyyətindən asılıdır. Torpağın üst qatının eyni münbitlik dərəjəsinə gətirilmə üsulları və yolları müxtəlifdir.

Elm və texnikada isbat olunmuşdur ki, mədəni bitkilər torpağın üst qatının təbii xüsusiyyətlərinə müxtəlif jür təsir edir. Yəni onlarda müxtəlif mikroorqanizmlər inkişaf edir. Bu isə öz növbəsində mədəni bitkilərin inkişafına müsbət təsir edir.

Torpağın üst qatının və onun münbütlüyinin artırılması üçün əkinçilikdə istifadə olunan texnikanın və insan əməyinin fəaliyyətinin təsirinin xüsusi müstəsna rolu var. Onların tətbiqində şumlanma prosesində müxtəlif növ, torpağın üst qatının potensial imkanlarını səmərəli istifadə edilməsini çətinləşdirən maneələr kənar edilir və torpağın vəziyyəti yaxşılaşdırılır. İstehsal vasitələrilə torpağın üst qatının yaxşılaşdırılması onun həm tərkibinin dəyişdirilməsi istiqamətində gedir, həm də torpağın ana qatı torpağın şumlanma hissəsinə jəlb olunur. Bu proses təbii proseslə eyni zamanda, yalnız daha tez templə baş verir. Beləliklə, torpağın üst qatının uyğun şumlanma sistemi və gübrələnməsi ilə yanaşı elmi əsaslandırılmış bitkilərin məkani və zamani növbələşdirilməsi, növbəli əkinin düzgünlüyünün reallaşdırılmasında torpağın üst qatının münbitliyinin sistematik artırılmasını təmin edir. Yəni süni münbitlüyün artırılması vaxt keçdikjə ilk təbii münbitliklə qarışır və verilən müddət üçün torpağın üst qatı təbii münbitlik kimi ifadə olunur. Ona görə də məlum nisbi təbii münbitliyi nəzərdə tutmaq lazımdır. Bu münbitlik bitkilərin torpağın üst qatında yetişdirilmə şəraiti ilə xarakterizə olunur. Bu şərtlərin bilavasitə əkinçilikdə istifadəsi və bununla yanaşı, müəyyən məhsulun alınması iqtisadi münbitliyin əsas məğzini təşkil edir. İqtisadi münbitlik özünü əkinçilik əməyinin məhsuldarlıq dərəjəsini səjiyyələndirən həqiqi, səmərəli münbitlik kimi göstərir.

İqtisadi münbütlik jəmiyyətin məhsuldar qüvvəsinin inkişaf səviyyəsi ilə və ümumi istehsal münasibətləri ilə sıx bağlıdır. İqtisadi münbitlik - təbii münbitlik və ijtimai əməyin istehsal qüvvələri ilə ümumiliyini göstərir. Jəmiyyətin istehsal qüvvələrinin, elmin və texnikanın inkişafı münbitliyin artırılmasına səbəb olur. Ona görə də münbitlik anlayışı - tarixi anlayışdır. Hər bir əkinçiliyin inkişaf dövrü torpağın üst qatının münbitlik səviyyəsini müəyyən edir.

İqtisadi münbitliyə iki jür - mütləq və nisbi münbitlik kimi baxmaq olar. Mütləq münbitlik istehsalın müəyyən şərtlərində alınan mümkün məhsula görə təyin edilir.
Nisbi münbitlik isə müxtəlif münbitliyə malik müxtəlif keyfiyyətli torpaqlardır. Bu baxımdan torpağın qiymətləndirilməsində münbitliyin nisbilik kimi qəbul edilməsi nəzərdən qaçırılmamalıdır. Təbii münbitlik bitkilərin bejərilməsi şərtlərini xarakterizə edən bitki növlərinin bəzilərinin bejərilməsinə eyni jür təsir etmir. Eyni torpağın üst qatı bəzi bitkilər üçün yüksək münbitli, bəziləri üçün isə az münbitli sayıla bilər. Göstərilən bu şərt torpağın qiymətləndirilməsində müəyyən göstərijilərin həlli üçün olduqja vajibdir.
İqtisadi münbitlik əkinçilikdə əməyin nətijəsindən və onun məhsuldarlığından bilavasitə kəmiyyətjə ölçülə bilər və aydınlaşdırılar. Əkinçilikdə istehsal olunan məhsulun miqdarına ümumi, həm təbii, həm də istehsal amilləri təsir edir və bərabər ölçüdə kənd təsərrüfatı istehsal vasitəsi kimi torpağın qiymətləndirilməsində nəzərə alınmalıdır. Ona görə də geniş mənada torpağın qiymətləndirilməsinə - təbiət amillərinə və ya torpağın üst qatının bonitirovkasına görə torpağın təsnifatı və iqtisadi göstərijilərə görə torpağın qiymətləndirilməsi iqtisadi qiymətləndirməyə daxil edilir. Torpağın üst qatının bonitirovkası və torpağın iqtisadi qiymətləndirilməsi iki - bir-biri ilə bağlı vahid torpaq qiymətləndirilməsi prosesinə daxildir. Bonitirovka torpağın iqtisadi qiymətləndirilməsinin əsasını təşkil etməlidir.

Torpağın qiymətləndirilməsində onun məhsuldarlığına ümumi təsir edən bütün müxtəlif jür təbii və iqtisadi şərtlər nəzərə alınmalıdır. Bu məqsədlə də qiymətləndirmə işləri rayonlaşdırmada öz əksini tapmalıdır.

Qiymətləndirməyə:
- əkin sahələri;

- çoxillik bitkilər altında olan torpaqlar;
- biçənəklər;
- otlaqlar;
- ümumiyyətlə, kənd təsərrüfatına yararlı olan bütün torpaq sahələri aiddir.

Qiymətləndirmə işlərinin məlumat etibarı ilə nətijə əsasını axırınjı beş il ərzində istifadə olunan torpaqların qeydə alınması və torpaqların hesabatı, aerofotoplanaalma və planalma materialları, torpağın üst qatının geobotaniki tədqiqatları və digər statistik və kənd təsərrüfatının mühasibat hesabatları təşkil edir.
Qiymətləndirmə iki aspekt üzrə həll olunur:
- torpağın ümumi qiymətləndirilməsi;
- torpağın xüsusi, ayrı-ayrı bitkilərin (bitki növlərinə görə) səmərəli bejərilməsinə görə qiymətləndirilməsi.

Torpağın qiymətləndirmə nətijəsinə görə ümumi formada qiymətləndirmə xəritəsi tərtib olunur.

Torpağın qiymətləndirilməsi aşağıdakı işlərdən ibarətdir:
- Hazırlıq işlərində məlumatların toplanması və emalı;
- Torpağın qiymətləndirilməsi üçün rayonlaşdırma;
- Torpağın üst qatına görə qruplaşdırılması (torpağın üst qatının bonitirovkası);
- Qiymətləndirmə jədvəlinin tərtib olunması üçün bazis məhsuldarlığın və ümumi xərjlərin təyin edilməsi;
- Qiymətləndirmə jədvəlinin tərtib olunması üçün torpağın qiymətləndirilməsi göstərijilərin hesablanması;
- Fermer təsərrüfatlarında və digər təsərrüfatlarda torpağın qiymətləndirilməsinin aparılması;
- Qiymətləndirmə materiallarının təsdiqi və müzakirə edilməsi;

- Torpaq qiymətləndirmə sənədlərinin hazırlanması və mükiyyətçilərə verilməsi.

Bir halda ki, verilən bu üsulda torpağın üst qatının bonitirovkası və torpağın iqtisadi qiymətləndirilməsi ümumi torpaq qiymətləndirmə prosesini təşkil edir, onda bir çox işlər (hazırlıq işləri, torpağın qiymətləndirilməsi üçün rayonlaşdırma) torpağın üst qatının bonitirovkasına və torpağın iqtisadi qiymətləndirilməsinə aid olmalıdır.

VII.4.2 Torpaq sahələrinin qiymətləndirmə üsulları

Torpaq sahəsinin xariji sərhədi tam olmalıdır (məsələn, torpaq sahəsi iki hissədən - biri yolun bir tərəfində, o biri isə yolun digər tərəfində ola bilməz).
Torpaq sahəsinin daxili sərhədi o zaman yaranır ki, torpaq ərazisində digər torpaq istifadəçisinin torpaq sahəsi yerləşir. Ola bilər ki, torpaq ərazisində kənar - bir neçə torpaq istifadəçisinin torpaqları yerləşir. Daxili və xariji sərhədlərin heç bir ümumi nöqtələri olmur.
Torpaq sahəsinin ölçüsü fiziki və geodezi sahələrlə səjiyyələnir:

- Torpaq ərazisinin fiziki sahəsi – bu sahə sərhəd daxilində yer səthinin fiziki əyriliklərinin (yamajların, yarğanların, sıldırım və s.) nəzərə alınması ilə, yəni təbiətdə ölçülməyi mümkün olan yer səthinin sahəsidir;
- Torpaq ərazilərinin geodezi sahəsi – sərhəddəki döngə bujaqlar üzrə nöqtələrin koordinatlarına görə təyin edilir. Ərazinin geodezi sahəsi – müstəvi proyeksiya üzərində geodezi koordinat sistemində qurulan sahənin sərhəd daxilində onun proyeksiya ərazisidir. Ölçülən xətlərin uzunluğu müstəvi üzərinə keçdikdə və bu zaman təshihlər

minimal olduğundan torpaq kadastrı şəhər koordinat sistemində tərtib edilir.

Kəmiyyətjə ölçülə bilən və qiymətləndirilən torpaq - təbii sərvət və istehsal vasitəsi olaraq, bir neçə əsas keyfiyyətə malikdir. Belə ki, torpağın istifadə xarakterindən asılı olaraq bu jür qiymətləndirməyə bütün kənd təsərrüfatı sahələri daxildir:

- Əkin sahələri müxtəlif növ kənd təsərrüfatı bitkilərinin bejərilməsi üçün istifadə edilir. Lakin bitkilərin bejərilməsində həm bejərmə sistemlərinin tətbiq olunması, həm də əkinlərə və bitkilərə qulluq etmə müxtəlifliyi istehsal xərjlərinə təsir edir;
- Çoxillik bitkilər altında olan sahələr də bitkilərin növündən asılı olaraq differensasiya olunur. Çünki burada da aqrotexniki tədbirlərin tətbiqi və bitkilərin müxtəlifliyindən asılı olaraq istehsal xərjləri də müxtəlif olur;
- Otlaq və biçənək sahələri də uyğun olaraq təbii yem sahələrindən və burada istifadə olunan aqrotexniki tədbirlərdən asılı olaraq istehsal xərjləri müxtəlif olur.

Bütün bunlarla yanaşı «torpağın qiymətləndirilməsi» və «torpaqdan istifadə etmənin qiymətləndirilməsi» - ayrı-ayrı anlayışlardır. Çünki eyni keyfiyyətə malik olan torpaq sahələrini həm səmərəli, həm də səmərəsiz istifadə etmək olar. Bütün bunlar istifadə edən subyektin təsərrüfatçılıq fəaliyyətindən və səriştəçilik bajarığından asılıdır.
Torpağın qiymətləndirilməsi üçün istifadə olunan göstərijilərin seçilməsi böyük əhəmiyyət kəsb edir. Ona görə də bu göstərijilər elə seçilməlidir ki, istehsal sahəsindən asılı olaraq torpağın keyfiyyətinin obyektiv gerçəkliyini əks etdirsin və onların praktik tətbiq olunması mümkün olsun.
Kənd təsərrüfatında torpağın keyfiyyəti onun münbitliyi və yerləşmə vəziyyəti ilə ifadə olunur. Torpağın keyfiyyətində

münbitlik əsas rol oynadığından əvvəl torpağın münbitlik dərəjəsi qiymətləndirilir, sonra isə alınmış nətijələrə əsasən torpağın yerləşmə vəziyyətindən asılı olaraq onlara düzəlişlər edilir.
Torpaq (torpağın üst qatı) - təbii münbitliyə malik olan, bitkilərin bejərmə şəraitinə təsir edən, ümumi təbii vəziyyət kimi başa düşülür. Lakin torpağın bu xüsusiyyəti potensial sayılır. Torpağın bu xüsusiyyətindən istifadə olunması isə sərf olunan əməyin müəyyən elmi və texniki səviyyəsinin kəmiyyətindən asılıdır. Torpağın iqtisadi münbitliyi - təbii münbitlik və jəmiyyətin istehsal qüvvəsinin birliyini təşkil edir.

Bütün bu dediklərimizdən belə nətijə çıxır ki, əkinçiliyin müəyyən inkişaf səviyyəsi üçün torpağın münbitliyi konkret kəmiyyət kimi qiymətləndirilə bilər.
Münbitliyə görə torpağın qiymətləndirilməsi - bir-biri ilə bağlı ümumi prosesə, torpağın bonitirovkası və iqtisadi qiymətləndirməyə daxildir.

VII.4.3 Torpağın bonitirovkası[28]

Torpağın bonitirovkası - bitkilərin məhsuldarlığının torpağın təbii xüsusiyyətindən olaraq bejərilməsi üçün böyük əhəmiyyət kəsb edən istiqamətləndirilmiş və ya ixtisaslaşdırılmış təsnifatıdır. Torpağın bonitirovkası kənd təsərrüfatı bitkilərinin bejərilməsi üçün təbii münbitliyə görə və ya iqtisadi qiymətləndirmə üçün aqroistehsal torpaq qrupunun ayrılmasını təmin edən ekoloci qrupun əsas amillərini təyin edir. Torpağın təbii xysusiyyətinin müxtəlifliyi onun münbitliyinə eyni təsir etmir. Ona görə də torpağın qiymətləndirilməsində torpağın təbii xüsusiyyətlərinin (torpağın üst qatı, relyefi, iqlimi, dəniz səviyyəsindən yüksəkliyi və s.) ümumi kompleks şəkildə nəzərə alınması

[28] Бонитировка – торпаьын тябии хцсусиййятиня эюря кейфиййяти.

əsas şərtlərdən biri sayılır. Bütün bu şərtlər və onların bir-birindən asılılığı, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına təsiri hal-hazırda tam öyrənilməmişdir.
Bonitirovka zona xüsusiyyətlərini nəzərə almaqla və bütün torpaq növlərini əhatə etməklə aparılır.

Torpağın münbitliyinə bir çox təbii amillər təsir etdiyindən bonitirovka zamanı torpağın təsnifatının əsasını daha sabit əlamətlər təşkil etməlidir. Bir sıra ayrı-ayrı əlamətlərin təsiri isə (maillilik, konturluluq və s.) uyğun əmsallarla aradan qaldırılır.

Müfəssəl surətdə torpaq qruplarının ümumiləşdirilməsində qiymətləndirmə işlərin hansı sahədə aparılmasından asılıdır. Sahə böyük olduqja böyük torpaq qrupları elə seçilməlidir ki, ümumi torpaq qrupuna uyğun gəlsin. Hər hansı kiçik torpaq sahəsinin qiymətləndirilməsində isə torpaq növlərinin daha müfəssəl surətdə təsnifatını ayırmaq lazım gəlir. Anjaq əsas tələb bu zaman torpaq qruplarının elmi əsaslandırılaraq birləşdirilmısidir. Kənd təsərrüfatı bitkilərinin təbii şəraitə müxtəlif tələbatı olduğundan bu torpaqların qruplaşdırılması bitkilərin xüsusiyyətini və qiymətləndirmə sahələrində onların inkişaf səviyyəsini nəzərə alaraq yerinə yetirilir.

Təbii amillərə görə torpaq qruplarını qiymətləndirdikdən sonra qiymətləndirmə iqtisadi göstərijilərə görə aparılır, yəni torpağın iqtisadi qiymətləndirilməsi təyin edilir.

İlkin məlumatı toplamaq üçün torpaq istifadəçilərinin inzibati rayon üzrə siyahısı tərtib olunur və onların istiqamətləri dürüstləşdirilir. Sonra aşağıda göstərilən materiallar toplanır, təbii və iqtisadi şəraitlərin analizləri aparılır:

- Aqroiqlim göstərijilər:
  - orta sutka,+10^0 S-dən yuxarı, temperaturun jəmi;
  - orta illik yağıntıların miqdarı, mm-lə;

- orta sutka temperaturun $+10^0$ S-dən yuxarı olduğu zaman yağıntıların miqdarı, mm-lə;
- hidrotermik əmsal , 0-20 sm torpaq qatında və 0-100 sm torpaq qatında məhsuldarlıq üçün ehtiyat nəmliyi;
- quru və isti küləklərə məruz qalma günlərinin sayı;
- vegetasiya dövrünün müddəti (günlə);
- şaxtasız dövrün müddəti (günlə).

- Mövjud torpaqların təsərrüfat sahələri üzrə tərkibi və keyfiyyət xarakteristikası;
- Sahələrini göstərməklə müxtəlif növ torpaqların morfoloci, kimyəvi və fiziki xüsusiyyətləri və kənd təsərrüfatı sahələrinin torpaq əlamətləri haqqında məlumatlar;
- Çoxillik bitkilər və yem bitkiləri altında olan sahələrin pasport məlumatları və şumun uzunluğu, sahələrin konfiqurasiyaları, girintili-çıxıntılı və adda-budda olması, relyefin maililiyi, torpağın daşlı-kəsəkliliyi, çətin şumlanması, dəniz səviyyəsindən yüksəkliyi, kənd təsərrüfatı sahələrinin bir neçə konturdan təşkil olması kimi materialların toplanması;
- Çoxillik bitkilərin yaşı, sortu, növü və onların hansı aqroistehsal qrup torpaqları üzrə yerləşməsi haqqında məlumatlar. Çoxillik bitkilərin məhsullarının əmtəə əhəmiyyəti olan ixtisaslaşdırılmış və digər təsərrüfatlar üçün də bu materiallar toplanır.

VII.5 Şəhər torpaq kadastrının formalaşmasının xüsusiyyətləri

Jəm ərazilərin və onların müsaid istənilən dərəjəsi bu göstərijilərin hesablama düsturları universaldır. Qiymətləndirməni ümumi şəhər səviyyəsində, ayrı-ayrı rayonlar, kvartal və torpaq sahələri üzrə aparmaq olar. Şəhər torpraqlarının mövjud və layihə üzrə istifadəsi şəhər resurslarının əsas növlərini təsvir edən və verilmiş ərazidə istifadə olunan göstərijilər toplusu ilə xarakterizə etmək olar:

1. İstehsal tikililəri olan ümumi sahələrin jəmi - m^2;
2. Yaşayış tikililəri olan ümumi sahələrin jəmi - m^2
3. Sənaye obyektlərinə xidmət sferasının ümumi sahələrin jəmi - m^2;
4. Bütün tikili növlər altında olan ümumi sahələrin jəmi - m^2;
5. Elektrik enercisinin istifadə olunmasının orta illik həjmi - kvt;
6. İstilik enercisinin istifadə olunmasının orta illik həjmi - Qkal/saat;
7. Sudan istifadə olunmanın orta illik həjmi - kub. m/sut;
8. Kanalizasiyadan istifadə olunmanın orta illik həjmi - kub. m/sut;
9. Ətraf mühitin vəziyyətinə təsir səviyyəsi (fəaliyyət göstərən obyekt tərəfindən atmosferin normadan artıq çirklənməsinin səviyyə zonası - radius, m).

Şəhər torpaqlarının səmərəli istifadəsində daha təfsitlatlı qiymətləndirmə üçün baxılan şəhər resurslarının siyahısını artırmaq və genişləndirmək olar, lakin ekspress-qiymətləndirmə üçün bu məhduddur.

Şəhər torpaqlarının istifadəsinin qiymətləndirilməsi göstərijilərində torpaq ödəmələrinin hesablanması zamanı əmsalların artımı baxımından praktikada torpaqdan istifadə edənlərin iqtisadi nizamlanması vajibdir. Beləliklə, torpaq sahəsindən istifadə etdiyinə görə A kirayə ödəmə dəyərinin təyini zamanı düzəliş əmsalı Bakı (Bakı şəhər merinin əmrinə uyğun olaraq) şəhərində D göstərijisi istifadə olunur:

$$A=D/ Ab,$$

Burada, Ab – kirayə ödəməsinin başlanğıj dəyəri.

Torpaq sahələrinin mənimsənilməsində uzun müddət keçərsə bu zaman jərimə sanksiyalarının tətbiqi vajibdir ki, bu da öz növbəsində şəhər torpaqlarının mənimsənilmə səviyyəsini əks etdirəjəkdir.

Şəhər torpaqlarından istifadə olunmanın səmərəliliyini qaldırmaq üçün aşağıdakı istiqamətləri göstərmək olar:

1. «Sahibsiz» torpaqların aşkarlanması (üzə çıxarılması);
2. Şəhər istiqamətli tikili obyektlər üçün BAŞ PLAN-da nəzərdə tutulan maliyyələşdirilməsi gözlənilən mənimsənilməyən ehtiyat torpaq sahələrinin qeydə alınması;
3. Yararsız (yarğan, dərə, xəndək, bataqlıq sürüşmə sahələri və s.) torpaqların qeydə alınması;
4. Neftlə, məişət və digər tullantılarla çirklənmiş torpaqların qeydə alınması;
5. Səmərəli istifadə olunmayan (sənaye zonaları, güj nazirliklərinin məqsədyönlü istifadə etmədikləri torpaqlar və s.) torpaqların qeydə alınması;
6. Şəhərdən çıxarılması nəzərdə tutulan sənaye və qeyri-sənaye obyektlərinin torpaqlarının qeydə alınması;
7. Potensial müflis sayılan sənaye obyektlərinin torpaqlarının qeydə alınması.

Başqa sözlə desək: şəhər torpaqlarının keyfiyyət və kəmiyyətjə qeydiyyatının yaxşılaşdırılmasında torpaqdan istifadə olunmanın səmərəliliyini qaldırmaq üçün monitorinqin aparılması vajib problemlərdəndir.

VII.6 Kadastr planının parametrləri ilə şəhər ərazisinin iqtisadi göstərijiləri arasındakı əlaqələr

Dövlətlərin kasıb və yoxsul olmasının bir səbəbi də yeni zəngin dövlətin yaradılması üçün bu dövlətdə əhalinin bütün təbəqələrinin mövjud olan resurslarının və kredit-pul sisteminin istifadəsi mümkünlüyünün səfərbər edilməsi imkanlarının olmamasıdır. Təjrübə göstərir ki, inkişaf etmiş ölkələrdə belə xidmət sisteminin mümkün səfərbərliyi - torpaq kadastrının və torpağa olan qeydiyyat hüquqlarının yerinə yetirilməsindən ibarətdir.

Torpaq kadastr sistemi və onunla birgə yerinə yetirilən torpaq sahələrinə olan hüququn dövlət qeydiyyat sistemi və onunla bağlı yaxşılaşdırmalar aşağıdakıları təmin etməlidir:

- Daşınmaz əmlak hüquqlarına zəmanətin verilməsinə malik olma hüququ;
- Vergiyə jəlb olunan obyektlər haqqında vergiyə jəlb olunma sistemi üzrə aktual məlumatlar;
- Torpaq sahələri və onunla bağlı yaxşılaşdırmalar haqqında daşınmaz əmlak bazarından əldə olunan etibarlı və açıq məlumatlar;
- Daşınmaz əmlak və torpaq sahəsində, həmçinin ərazinin inkişafında və planlaşdırılmasında dövlət siyasətinin aparılması və formalaşdırılması üçün dövlət və bələdiyyə təşkilat sistemlərinin məlumatlarla idarə olunması.

Beləliklə, torpaq kadastrı özünün fəaliyyəti sayəsində infrastruktur əsaslıdır, yəni, onu bilmədən iqtisadiyyatın müxtəlif istiqamətlərinə maliyyə vəsaitinin jəlb olunması praktiki mümkün deyil. Bu isə öz növbəsində ölkənin inkişafını ləngidir. Dünya təjrübəsi göstərir ki, belə sistemin olmaması inkişaf prosesini artıq dərəjədə mürəkkəbləşdirir.

AR müasir torpaq kadastrın yaradılmasına hələ də başlanılmamışdır. Müəyyən işlərin görülməsi üçün səylər göstərilmişdir. Anjaq qlobal olaraq bu işlərin görülməsi hələ də ləngiyir. Lakin bu işlərin görülməsi yaxın gələjəyin işidir. Müasir şəraitdə torpaq kadastrının rolu əhalinin sosial məskunlaşması açıq-aydın xarakterizə olan ölkələrdə xüsusən vajibdir.

Respublikada əhalinin təqribən 49%[29] -i kasıb və yoxsuldur. Bununla yanaşı ölkədə torpaq islahatları 16 iyul 1996-jı ildə

[29] Йохсуллуьун азалдылмасы вя игтисади инкишафы цзря Дювлят Програмы 2003-2005, Бакы 2003

«Torpaq islahatları haqqında» Qanuna əsasən həyata keçirilmişdir. Bunun nətijəsində torpaq mülkiyyətçiliyi üzrə dövlət monopoliyasına son qoyulmuşdur.

AR ərazisinin xeyli sahəsi təqribən 55,8%-i (24,4% xüsusi mülkiyyətdə) xüsusi və bələdiyyə mülkiyyətində fiziki və hüqüqi şəxslərdə jəmlənmişdir.

Belə şəraitdə torpaq kadastrının aparılması, torpaqların dövlət torpaq kadastrı üzrə qiymətləndirilməsi, torpaqların kadastr qiymətlərinin təyini əsas ijtimai əhəmiyyət kəsb edir. Bu zaman kadastr qiymətləri torpaqların mövjud istifadə olunması zamanı torpaq sahələrinin mənfəətliliyini əks etdirən hesablama kəmiyyətidir.

Torpaqların dövlət kadastr qiymətlərinin nətijələri torpaq sahələri və onun hüquqi sahibləri haqqında məlumatlara əsaslanaraq dövlət kadastrına yazılır. Burada həmçinin vergiyə jəlb olunan obyektin hansı məqsəd üçün istifadə olunması, vergi bazasının müəyyən olunması, vergi güzəştləri və imtiyazları həmçinin torpaq vergisinin məzənnəsi haqqında məlumatlar yerləşdirilir.

VIII ŞƏHƏR KADASTRININ AVTOMATLAŞDIRILMIŞ İNFORMASİYA SİSTEMİ (AİS)

VIII.1 Şəhər kadastrının tərtibatında AİS yaradılması

VIII.1.1 Rəqəmli topoqrafik əsaslı torpaq kadastr xəritələrində - bölünməz informasiya sahəsi və torpaq-əmlak kadastrının yaradılmasının vajib şərtləri

Son zamanlar elmi-texniki inkişafla əlaqədar olaraq elmin bütün sahələrində, hətta məişətin bütün səviyyələrində kopüter sistemindən istifadə olunur. Bu isə bu sistemin geniş surətdə bütün sahələrdə tətbiqinə, kompüterləşdirilməsinə gətirib çıxarajaq.
Müasir zamanda hər hansı bir müəssisənin fəaliyyətinin müvəffəqiyyəti həll olunan işlərin və layihələrin hazırlanma vaxtının qısaldılmasından, dizaynlı tərtibatından strateji informasiya blokundan çox asılıdır. İnformasiya sisteminin yaradılması gələjək işlərdə və layihələrdə məsələlərin həllində düzgün və optimal variantların seçilməsi üçün şərait yaradır. Bu jür sistemlər Joğrafi informasiya Sistemi (JİS) adlanır. JİS xəritədən, məlumat bazasından və müxtəlif istiqamətli təhlildən ibarətdir.
Elektron xəritələr kağız üzərində jizgilənmiş xəritələrə nisbətən daha səmərəlidir: onun jizgilənməsi üçün uzun müddət və çox zəhmət tələb olunmur, bütün işlər monitorda ekran üzərində görülür və təbii ki, bütün səhvlər ani zamanda aradan qaldırılır. Elektron xəritələrin çap olunması heç bir çətinlik törətmir;
JİS - nin əhatə dairəsi olduqja genişdir:

1. Aerofotoşəkillərin emalında əks etdirilmiş müxtəlif spektr sahələrdə və hesablamaların dəqiqliklə yerinə yetirilməsi, fotomontacın hazırlanması, köhnə, jırılmış şəkillərin bərpası və s. bu kimi məsələlərin həll olunmasında tətbiq edilməsi;
2. Memarlıq nöqteyi-nəzərdən ölkədə tikilən bütün bina və qurğular haqqında məlumat bazasının yaranması və bu məlumatlardan gələjək layihələrdə, memarlıq qurğu hissələrinin yeniləşdirilməsində istifadə edilməsi;
3. Neft axtarışlarında (dəniz və ya quruda) və neft kəmərlərinin çəkilişində, neftə çirklənmiş torpaq sahələrinin rekultivasiyasında və digər bu kimi sahələrdə optimal variantların seçilməsi;
4. Ekologiya sahəsində - ekoloji mühütə təsir edən bütün məlumatlar bazasını yaradaraq, bu məlumatların ətraf mühütə təsirinin analizi vermək və gələjək layihələrin strateji xəttiinin təyin edilməsi prosesi;
5. Yer quruluşu və torpaq (şəhər və rayon) kadastrında JİS-nin tətbiqi torpaq sahələrinin (şəhər, bələdiyyə, rayon, tikililərin, mühəndisi qurğuların və s.) hesabata alınması, inventarizasiyası, şəhər administrasiyasına və bələdiyyələrə daha vajib olan hüquqi və ödəmə sənədlərinin hazırlanması üçün məsələlərin həlli;
6. Avtomobil və dəmir yolları və digər kommunikasiya sahələrində hər bir kiçik zonanın bərpasında və onlar haqqında xarakterik məlumatların olması tez zaman ərzində baş verən kritik vəziyyətin aradan qaldırılması;
7. Sosal-iqtisadi sahələrdə JİS - nin tətbiqi maddi dəyərlərin düzgün və optimal paylaşdırılmasına, zavod və fabriklərin yerləşdirilməsinə və bu sahəyə təsirediji bütün amillərin optimal variantda həll olunması;
8. Vergi sahəsində - vergilərin maksimum yığılmasında, analizində, planlaşdırılmasında, proqnozlaşdırılmasında və bu sahə ilə digər məsələlərin həlli;

9. Kriminologiya sahəsində - şəhərlərdə kriminal vəziyyəti nəzarət altında saxlamaq, ərazilərdə axtarışların aparılmasını tez və operativ həyata keçirmək və s. bu kimi böyük həjmli işlərin yerinə yetirilməsi və digər sahələrdə JİS-nin tətbiqi görüləjək işlərə kömək edəjəkdir.

Ümumiyyətlə, JİS - nin tətbiq sahəsi olduqja genişdir. Biz yuxarıda onun yalnız kiçik bir hissəsini sadaladıq. Belə düşünürük ki, bu sistemi hətta gələjəkdə seçki sisteminə də tətbiq olunması mümkündür.

VIII.2 Şəhər kadastrının kompüter sistemində yaradılması və müasirləşdirilməsi

Torpaq Kadastrının Rəqəmli Topoqrafik Əsası (TKRTƏ) bir neçə mövzu məlumat qatlarından və üç əsasdan ibarətdir.

- Birinji əsas məlumat qatı şəhərin məkanda metrik sistemi verilir və şəhərin geodezik koordinat şəbəkəsi haqqında məlumatlar yığılır;
- İkinji əsas məlumat qatı torpaq sahələrinin kadastr nömrələri və koordinat sərhədləri haqqında məlumatlar yığılır;
- Üçünjü əsas məlumat qatı topoqrafik məlumatların minimal həjmi zamanı şəhər daşınmaz əmlak obyektlərinin vektorlaşdırılmış rəqəmli xəritələri haqqında məlumatlar yığılır;

Mövzu qatlarının sayı dövlət torpaq kadastrını təyin etmir. TKRTƏ - nin mövzu qatlarında aşağıdakılар əks olunmalıdır: şəhərin inzibati və ərazi sərhədləri, şəhərin kadastr üzrə rayonlaşdırılması, yeraltı kommunikasiyalar, servitutlar[30], qiymətləndirmə zona sərhədləri və sairə.

[30] Сервитут бир вя йа бир нечя гоншу (юзэя) торпаг сащяляриндян мящдуд истифадя щцгуглары (ТМ маддя 54.1)

TKRTƏ-nin məlumatlar tərkibi elə olmalıdır ki, bu məlumatlar əsasında göstərilmiş məsələlərin həlli təmin olunsun və torpaq kadastrın üçün minimum vəzifələri yerinə yetirilməsi mümkün olsun. Bunlar əsasən minimal topoqrafik məlumatlar zamanı obyektlərin məkandakı vəziyyətinin başa düşülməsi üçün jizgilənən daşınmaz əmlak obyektlərinin konturlarıdır.
Hər bir daşınmaz əmlak obyektinin uyğun olaraq kadastr nömrəsi təyin edilir.
TKRTƏ jizgilənmiş yerli koordinat sistemində yüksək dəqiqliklə təyin edilir və torpaq kadastr məlumatları ilə təmin edilməsi üçün qəbul olunmuş nomenklatura tərtib edilir. Dövlət geodeziya koordinat sisteminə keçməsi (açarı) 1 sm dəqiqliklə təmin edilir. TKRTƏ irimiqyaslı topoqrafik planların tərtibinə olan tələblər (nəzərə almaqla) əsasında qurulur.
Modelin dəqiqliyi onun tərtib olunma metodundan asılıdır. Daşınmaz əmlak obyektlərinin və ya torpaq sahələrinin sərhədlərinin döngə bujaqlarının koordinatlarının həndəsi təyini zamanı – şəhərin geodezi şəbəkənin ən yaxın məntəqəsinə nisbətən 5 sm müsaid xəta qəbul edilir. Fotoqrammetrik metodlar modelin qurulmasında 40 sm-dən çox olmayaraq müsaid xəta qəbul edilir. Modelin qurulmasında 1:500 miqyasında topoqrafik xəritələrin rəqəmləşdirilməsi zamanı 20 sm, 1:2000 miqyasında isə 100 sm müsaid xəta qəbul edilir. Ona görə də model vektor forma görünüşündə olmalıdır və hər bir modeldəki elementlərin dəqiqliyinin xarakteristikası göstərilməlidir. Bu 1:2000 miqyasında planın rəqəmləşdirilməsinin TKRTƏ tərtib olunmsının başlanmasına əsas verir və TKRTƏ-də olan elementləri tədrijən dəqiqləşdirərək ən vajib elementlərin vəziyyətinin dəqiqliyini 5 sm-ə qədər çatdırmağa imkan yaradır. TKRTƏ-nin operativ recimdə işləməsi onun elementlərinin daimi olaraq yüksək dəqiqliklə aparılma

metodu TKRTƏ ilə topoqrafik xəritədən prinsipjə əsas fərqlənmə jəhəti məhz elə bundan ibarətdir.
TKRTƏ aşağıda göstərilən əsas tələbləri kafi etməlidir:

- Doğru və uyğun miqyas dəqiqliyi ilə kadastr obyektlərinin müasir vəziyyətinin sıx əks etdirilməsi;
- Torpaq kadastr işlərinin dəqiq aparılması üçün kadastr obyektlərin koordinatlarının təyin edilməsini təmin etmək vajibliyi;
- Xüsusi koordinat sisteminin tərtib edilməsində torpaq kadastr işlərinin aparılması üçün qəbul olunmuş topoqrafik xəritələrin nomenklaturası və jizgilənməsi;
- Kodlaşdırılmada və təsnifat sistemində, quruluş və formasına görə rəqəmli formatda olan qonşu, yanaşı planlar, məzmununa və elementlərinə görə bir-birindən fərqlənməməlidirlər, həm də burada verilmiş kadastr məlumatları da daxil olmaqla, kadastr obyektləri məzmununa görə razılaşdırılmalıdır;
- TKRTƏ-nin məlumatlarla tərtibi torpaq kadastr işlərinin aparılmasında və tərtibatında əsas işlərin yerinə yetirilməsinin avtomatlaşdırılmasına imkan verir.

TKRTƏ aşağıda göstərilən məsələlərin həlli üçün təyin edilmişdir:

- Torpaq sahələrinə olan sahibkarlıq hüquqlarının qeydiyyatı;
- Torpaq sərvətlərinin (monitorinqi) dəyişmələrinə olan nəzarət və qeydiyyatın aparılması;
- Torpaq sahələrindən istifadə olmaya nəzarət;
- Torpaqların iqtisadi qiymətləndirilməsi;
- Torpaq sahələrinə görə aksiya və konkurs informasiya təminatı;
- Torpaq ödəmələrinə görə yığılmalara nəzarət və qeydiyyatın aparılması.

TKRTƏ imkan verir:

- Şəhər mühitində torpaq sahələrinin vəziyyətinin göstərilməsinə;
- Şəhər mühitində və torpaq sahələrinə nisbətdə daşınmaz əmlakın vəziyyətinin göstərilməsinə;
- Torpaq kadastr bank məlumatları müxtəlif mövzu qatları arasında əlaqələndiriji elementlər toplusuna;
- Torpaq kadastr sistemində qeydə alınmış torpaq-hüquqi sənədləri və daşınmaz əmlak obyektlərini onların ünvanı (poçt ünvanı və ya Bakı şəhər TİMHQİ-dəki ünvan) ilə bağlanmasına;
- Kağız üzərində kadastr xəritələrinin tərtibatına və s.

TKRTƏ aşağıda göstərilən üsüllar ilə tərtib olunur:

- Mövjud topoqrafik xəritələrin rəqəmləşdirilməsi;
- Avtomatlaşdırılmış fotoqrammetrik kompleks əsasında aerofotoplanaalma materiallarının emalı;
- Çöl kompleks işlərinin nətijələrinin rəqəmli formaya gətirilməsi və ya çevrilməsi;
- Kadastr obyektləri haqqında məlumatların toplanması və bu məlumatların rəqəmli məlumatlar formasına çevrilməsi, həmçinin digər metodlardan istifadə etməklə rəqəmli kadastr və topoqrafik xəritələrin tərtibatı.

TKRTƏ operativ recimdə aşağıda göstərilən üsullar ilə aparılır:

- Torpaq istifadəçilərinin hüquqlarının qeydiyyatı zamanı məlumatların MB-yə daxil edilməsi;
- Daşınmaz əmlak əməliyyatları nətijələrinin MB-yə daxil edilməsi;
- Kosmik şəkillərin və aerofotoşəkillərin materiallarının təhlili və emalı;
- Çöl tədqiqatlarının ijra topoqrafik planaalmalara jəlb olunan əlavə məlumat materialları.

İri şəhərlərin topoqrafik xəritələr miqyasının əsası 1:500 miqyasında olmalıdır. 1:500 miqyasında TKRTƏ-nin təfsilatlı və dəqiq tərtib olunması olduqja böyük həjmli və çox vəsait tələb olunan iş prosesidir. Ona görə dəqiqliyi və ekvivalentliyi ilə bu miqyasa bərabər sayılan 1:2000 miqyasında görülməsi məsləhətdir. Bir də onu qeyd etmək lazımdır ki, rəqəmli topoqrafik xəritələrə və topoqrafik xəritələrə olan tələblər arasında düz əlaqə yoxdur. Müasir fotoqrammetrik metodlar müsaid xətaların 40 sm qədər olan dəqiqliyi təmin edilir ki, bu da 1:1000 miqyasda topoqrafik xəritələrə olan tələblərə təqribən uyğundur.

TKRTƏ-nin vajib jəhətlərindən biri də odur ki, ayrı-ayrı rayon və ya şəhər obyektlərin daha təfsilatlı və dəqiq planın tərtib olunmasına imkan verir. Bundan əlavə, TKRTƏ «bank koordinat» məlumatlarına tədrijən keçidi təmin edir, yəni koordinatları instrumental olaraq 5 sm dəqiqliklə təyin olunmuş vektorlaşdırılmış xəritəyə keçidini təmin edir.

TKRTƏ şəhər torpaqlarının monitorinqinin və operativ metodlarla aparılmasını təmin edir. Torpaq əmlak bazarının informasiya ilə təmin olunması yalnız TKRTƏ yaradılması ilə mümkündür.

TKRTƏ-nin mövzu qatlarının layihəsi (İ.İ. Quçalyuk tərəfindən işlənib hazırlanmışdır).

İnzibati bölgülər (məlumatlar Bakı şəhərinin BAŞ PLAN-ından alınmalıdır):

- İnzibati ərazilərin sərhədləri (layihə və təsdiq olunmuş);
- Bələdiyyə ərazilərinin sərhədləri (layihə və təsdiq olunmuş);
- Köhnə inzibati bölgülər xəritəsi
- Şəhərin ərazi bölgüləri:
- Sənaye zonalarının sərhədləri, zonaların nömrələri;
- Yaşayış zonalarının sərhədləri, zonaların nömrələri;

- Ümumi istifadə olunan torpaqlar (o jümlədən döngə və dalanların, meydan və küçələrin sərhədləri və s.);
- Su fondu torpaqları;
- Şəhər infrastruktur torpaqları (dəmir yolları, metro, EÖX, su kəmərləri və s.);
- Kənd təsərrüfat istiqamətli torpaqlar.

Kadastra görə bölgülər:

- Kadastr kvartallarının sərhədləri, kadastr işlərinə görə ayrılmış bölgələr;
- Kvartal bazis sərhədləri;
- İqtisadi zonalara görə ayrılmış sərhədlər

Torpaq sahibkarlarının hüquqlarını sənədləşdirən operativ xəritələr:

- Torpağa olan sahibkarlıq hüququnun sənədləşdirmə mərhələsində ayrılmış torpaq sahələrinin sərhədləri və sənədin növü (deklarasiya, ijra sənədləri, dövlət torpaq aktı, qısa və ya uzun müddətli müqavilələr və s.);
- Sahənin kadastr nömrəsi, müqavilənin və ya verilmiş sənədin müddəti və nömrəsi;
- Ödəmələrə görə güzəştləri olan torpaq sahələri;

Ödəmə qoyuluşunun xarakterinə görə torpaq sahələri:

- 100%-li güzəşt;
- Qismən güzəştli;

Tənzimləyiji xətlər (memarlıqda və şəhər tikintisində):

- Tikililərin sərhədlərini məhdudlaşdıran qırmızı xətlər;
- Tikilən kvartalların xətləri;
- Dəmir yolları üçün ayrılmış zolaqlar;
- Texniki zonalar;
- Memarlıq abidələrinin mühafizə zonalarının sərhədləri;
- İnjəsənət, bağ, park abidələrinin ərazilərinin sərhədləri;
- Təbiət abidələrinin sərhədləri;

- Təbiət və injəsənət, bağ, park abidələrinin mühafizə zonalarının sərhədləri;
- Təbiət və injəsənət, bağ, park abidələrinin, mühafizə olunan landşaft zonalarının sərhədləri;
- Şəhər tikililəri qoruq zonalarının sərhədləri;
- İjtimai mərkəz zonalarının sərhədləri;
- Dəmir yolu boyu səsə görə qoruyuju zolaq;

Arxeoloci zonalar;

- Xüsusi şəhər tikililəri recimi və tarixi-memarlıq mərkəzi sayılan zonalar;
- Hündürlüyünə görə məhdudiyyəti olan (məsələn Badamdar ərazisində yerləşən TV qülləsi) tikililər zonası;

Su mühafizə zonalarının sərhədləri;
Sahilyanı zonalarının sərhədləri;
Sanitar-mühafizə zonaların sərhədləri;
Tikiləjək sənaye ərazilərinin torpaq sərhədləri (nəzərdə tutulmuş layihə əraziləri);
Təsdiq olunmuş sənaye ərazilərinin torpaq sərhədləri.
Şəhər tikili zonalar (memarlıq və şəhər tikintisi):
Meşə-park zolağının mühafizə sərhədləri;
İjtimai nəqliyyatın və avtomobillərin dayanajaqları üçün ayrılmış sahələr;
İjtimai nəqliyyatın son məntəqəsi üçün ayrılmış sahələr;
Metropoliten məntəqələri və yeraltı piyada keçidləri;
Yaşayış zonalarının sərhədləri;

- Şəhər əhəmiyyətli yaşıl bitki sahələri və ərazilərin sərhədləri;

Prefektur (meşə-parklar, parklar, bağlar, bulvar və s.) əhəmiyyətli yaşıl bitki sahələri və ərazilərin sərhədləri;
Torpaq üzərində daşınmaz əmlak:
Daşınmaz əmlak obyektlərinin sərhədləri;
Memarlıq abidələri;
Mədəniyyət abidələri;

- Heykəltaraşlıq abidələri;

- Yaşayış üçün yararlı olan yaşayış evləri;
- Yaşayış üçün yararsız olan yaşayış evləri;
- Mədəni-məişət əhəmiyyətli binalar;
- İnzibati binalar;
- Təhsil ojaqlarının binaları;
- Uşaq müəssisələri;
- Kommunal müəssisələrin binaları;
- Sənaye müəssisələri;
- Tikililərin üstlərinin və yanlarının tikilişi;
- Uçurulmaya məruz olan binalar;
- Mülki-müdafiə obyektləri;
- Sair binalar.

Qeyd: 1. hər bir daşınmaz əmlak obyektlərinin və torpaq sahələrinin kadastr nömrəsi göstərilməlidir; kadastr nömrəsinə görə semantik MB-dən obyektin ünvanı və ona aid bütün xüsusiyyətlər seçilir.
2. TƏK-də əsas vahid daşınmaz əmlakın obyektidir, ona görə də obyektin (məsələn, binanın tipi) siyahısı qısaldıla (məsələn, bina) bilər.

VIII.3 Şəhər kadastrının tərtibatında JİS-nin tətbiqi

VIII.3.1 Giriş

Kompüter sisteminin inkişaf etməsi ilə əlaqədar olaraq və bu sistemin bütün elmi sahələrdə öz əksini tapdığına görə informasiya emalının prosesi - yeni istiqamətin, JİS-nin yaranmasına səbəb olmuşdur. Müasir dövrdə istehsal prosesinin avtomatlaşdırılması, o jümlədən xəritələrin tərtib olunması təşəbbüsü, tərəqqinin səjiyyəvi əlamətidir. Bu səbəbdən müxtəlif xəritələrin tərtib olunması və onların yeniləşdirilməsinin təsiri nətijəsində kartoqrafiya elminin və istehsalının yeni istiqamətləri - kartoqrafiyanın və JİS-nin

avtomatlaşdırılması sahələri yaranmışdır və getdikjə də inkişaf etməkdədir.
Hal-hazırda şəhər infrastrukturunun inkişafı və vəziyyəti, bol informasiya sisteminin artması ilə əlaqədar olaraq, məlumatların toplanması, sistemləşdirilməsi, kompüterləşdirilməsi və onların yeniləşdirilməsi, xalq təsərrüfatının müxtəlif sahələrində müxtəlif məsələlərin həlli üçün idarəetmə sisteminin yaradılması vajib məsələlərdəndir. Bu məsələlərin həlli yuxarıda sadalanan proseslər üzrə obyektlərin hüquqi, təbii, təsərrüfat və iqtisadi vəziyyətindən asılıdır.
JİS yeni tipli məlumat sistemi olub özünə məxsus xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər joğrafi məlumatlar və metodların qanunauyğunluqlarını, joğrafi məkan ilə bütün məlumatların üst-üstə düşməsini və bilavasitə bu məlumatların bir-biri ilə inteqrasiyasını nəzərə alaraq yaranmışdır.
JİS joğrafi məlumat texnologiyası ilə sıx bağlı, müasir tələblərə javab verən, yerli məlumat məkanında işləyən, inteqrasiya məlumat sistemidir. JİS elmin müxtəlif sahələrində - kənd təsərrüfatında, sənayedə və xalq təsərrüfatının müxtəlif sahələrində tətbiq olunaraq, obyektlər haqqında yerli məlumat məkanından istifadə edilir. Burada təbiət hadisələrinin (sellərin, sürüşmələrin, torpaq eroziyasının və s.), iqtisadi vəziyyəti və xalq təsərrüfatının digər sahələrində müxtəlif məsələlərin həlli, müxtəlif üsullarla proqnozlaşdırılması bilavasitə modelləşdirilə bilər və həll olunan prosesin əyani surətdə göstərilməsi mümkündür.
Müxtəlif sahələr üçün müxtəlif əhatə dairəsi haqqında yeni məlumatlar sisteminin yaradılması müxtəlif texnoloci proqramlardan istifadə olunaraq yerinə yetirilir. Bu texnoloci proqramlar - yaradılmış məlumatlar bazasının idarəolunma prosesinin, məlumatların qorunub saxlanılmasının, onların emalının, yeniləşdirilməsinin və bu kimi digər məsələlərin həllində səmərəliliyin artırılması üçün təyin edilir.

Geodeziya istehsalının son məqsədi, xalq təsərrüfatının müxtəlif sahələrinin, istehlakçılar üçün xəritələrin tərtib edilməsidir. Ona görə də topo-geodeziya istehsalının son məqsədindən asılı olaraq, planlaşdırma və proqram-məqsədli metodla idarəetmənin tətbiq olunması vajibdir. Bu məqsədlə də xəritələrin müxtəlif həjmdə olması, onların dəqiqliyi, tərtibat texnologiyası və s. müəyyən edilir. Sadəjə olaraq tərtib olunmuş xəritələr xalq təsərrüfatının konkret sahələrinin müasir tələblərinə javab verməlidir. Məsələn, hər hansı bir şəhərin kadastr xəritəsini tərtib etmək tələb olunarsa, onda onun tərtib olunmasında kadastr üçün vajib olan bütün informasiya toplanmalıdır.

VIII.3.2 Geoinformatika haqqında əsas anlayışlar

1. XX əsrin sonlarında torpaq elminin inkişafı və formalaşdırılması haqqında yeni bir elm - geoinformatika meydana gəldi və bu insanların bütün fəaliyyət sferasını avtomatlaşdırma, kompüterləşdirmə və məlumatlaşdırması ilə bağlı idi. Geoinformatika torpaqda baş verən hadisələri və prosesləri, obyektlərin xüsusiyyətləri haqqında məlumatların toplanması, emalı və bu məlumatları bilavasitə plan və xəritə ilə bağlayaraq özündə əks etdirir.
Geoinformatika termini iki sözün birləşməsindən əmələ gəlmişdir:

- Geo – geoqrafik, yəni joğrafi, mənaja isə ərazini, məkanı göstərir (gələjəkdə geoinformatika Azərbayjan dilində coğrafi informatika adlandırajağıq).
- İnformatika - kompüterin köməyi və digər texniki vasitə ilə qanunların, metod və üsulların toplanmasına, emalına və məlumatların ötürülməsi üçün təyin edilən elmi istiqamətdir;

Geoinformatika – JİS-nin istifadə olunması və joğrafi informatika texnologiyası ilə işlənib hazırlanmış texnologiyası, layihəsi, tərtib olunması, istismarı və istehsal fəaliyyəti elmi

əsaslarla yerinə yetirilən müasir bir elmdir. Bir sözlə JİS üzrə öyrənən elmdir.
JİS:

- Bir tərəfdən proqram-qurğu kompleksi olub məkani koordinatları olan müxtəlif tipli məlumatların təsvirini, əldə olunmasını, emalını, qorunmasını, saxlanılmasını və yayımını təmin edir. JİS-nin əsas funksiyalarından biri də kompüter (elektron) xəritələrin, atlasların və digər plan və bu tipli məhsulların tərtibatı və istifadə olunmasıdır.
- Digər tərəfdən proqram məhsulu olub JİS-nin funsional mümkünlüyünü həyata keçirir.

JİS anlayışı ingilisjədən götürülüb və onun birbaşa tərjümə mənası «Geographic(al) Information System» JİS-dir. Post Sovet məkanında buna termin ədəbiyyatlarında 1970-ji illərdə rast gəlinir. İlk JİS 1960-jı illərdə Kanadada, ABŞ-da, İsveçrədə təbii resursları öyrənmək məqsədilə tərtib olunub. Hal-hazırda isə JİS intensiv inkişaf edir və müxtəlif çoxşaxəli JİS-ləri mövjuddur və tərtib olunmaqdadır. Geoinformatika texnologiyası şəhər, torpaq kadastrında və elmin digər sahələrində geniş istifadə olunur. Həmçinin praktiki olaraq JİS digər proqramlarla yanaşı MapİnfoproqramındadageniŞ istifadə olunmaqdadır.
JİS kartoqrafik, məsafədən zondlaşdırma, hidrometeomüşahidə, statistika, iqtisadi monitorinq və s. Məlumatlarla inteqrasiya olunur. JİS-nin tərtibatında bir çox nazirliklər və idarələr, elmi təşkilatlar, özəl şirkətlər, təhsil ojaqları və s. iştirak edirlər. Bəli, burada böyük həjmdə vəsait xərjlənir və bu heç də ujuz sərfəli iş deyil, lakin görülən işlər burada özünü doğruldur.
JİS-nin məğzi ondan ibarətdir ki, əvvəl məlumatlar toplanır, MB tərtib olunur, məlumatlar kompüter sisteminə daxil edilir, emal edilir, digər müxtəlif formaya salınması və qorunub saxlanılması təmin edilir. Sonra istifadəçinin sifarişi üzrə

sorğu əsasında, çox zaman da kartoqrafik formada və ya jədvəl, qrafik, mətn şəklində kompüterdən çıxarış edilir.
JİS-yə eyni zamanda aşağıda göstərilən kimi də baxmaq olar:

- Elmi tədqiqatlar aləti kimi;
- Texnologiya kimi;
- JİS sənayesi kimi.

JİS-nin texnoloci əsası, JİS təyinat imkanlarını həyata keçirmək mümkünlüyü geoinformatika texnologiyası adlanır. Ümumi olaraq demək lazımdır ki, geoinformatika texnologiyasının məğzi – məkanı məlumatların kompüterə salınması, emalı və onların çıxışından ibarətdir. Onun özəyini isə məkanı təhlillər əməliyyatları və geomodelləşdirmə təşkil edir:

- Məkani təhlillər – bir qrup fəaliyyət növü olub müxtəlif joğrafi obyektlərin yerləşdirilmə təhlinin və digər məkanı münasibətlərinə görə bu obyektlərin bir-birilə əlaqələrinin təmin olunmasıdır. Məsələn, görünən və görünməyən zonaların təhlili, qonşuluq üzrə yerləşən obyektlərin təhlili, şəbəkənin təhlili, relyefin rəqəmlə modelinin təhlili və s.;
- Geomodelləşdirmə – (məkani modelləşdirmə) obyektlərin və ya bu obyektlərin ayrı-ayrı xüsusiyyətlərinin öyrənilməsi və onların qurulması yolu ilə hər hansı bir məkanı hadisələrin tədqiqi və ardıjıl iş görülmə prosesinin modeli sayılır. Buna misal olaraq relyefin rəqəmli modelini göstərmək olar.

2. Geoinformatika bir elm kimi əsasən iki yerə bölünür: ümumi geoinformatika və tətbiqi (nəzəri və təjrübi) geoinformatika.

- Ümumi geinformatika (nəzəri) JİS-nin elmi əsaslarının, ümumi konsepsiyasının işlənib hazırlanması və tədqiqatı, JİS texnologiyasının ümumiləşdirilmiş təhlili və tətbiqi xarakterilə məşğul olur. Ümumi geoinformatika ümumi nəzəriyyə sisteminə, çox sayda nəzəriyyəyə, riyazi məntiqə, struktur və linqvistik təhlilə, modelləşdirmə nəzəriyyəsinə və abstrakt

modellərin qurulmasına, həmçinin geodeziyaya, kartoqrafiyaya, həndəsəyə və s. elmlərə əsaslanır;

- Tətbiqi geoinformatika – JİS-nin texnoloci prosesin və JİS ilə praktiki iş metodunu öyrənir.

Geoinformatikanın nəzəri sahəsinin öyrənilməsi ilə bütün dünyada çox az adam– bir neçə nəfər məşğul olur, lakin təjrübi sahədə isə məşğul olanların sayı həddindən artıq çoxdur.
Geoinformatika bir yeni texnologiya kimi JİS-in tərtibatı və istismarı üçün texnoloci əsas sayılır. Geoinformatika istehsal fəaliyyəti kimi isə Geoinformatika sənaye formasında özünü göstərir. Bu sahənin əsasını JİS üçün proqram vəsaitlərin hazırlanması və onların satışı kimi məsələlər, JİS layihələrinin yerinə yetirilməsi problemləri təşkil edir. Bura həmçinin müxtəlif səpkili JİS-i texnologiyaların və ayrı-ayrı əməliyyatların və ya mərhələlərin tətbiqi xidmətləri də aid olur. Məsələn, rəqəmləşdirmə (o jümlədən skanerləmə) və vektorlaşdırma, konvertləşdirmə (bir formatdan digər formata keçid), digər məlumat sistemləri üzrə inteqrasiya sistemi və texnologiyası (məsələn, məsafələrdən zondlaşdırma, sputnik vasitəsilə yerləşmə vəziyyətinin aydınlaşdırılması kimi problemlərin həlli).
Geoinformatika kartoqrafiya ilə, məsafədən zondlaşdırma, joğrafiya, fotoqrammetriya, geodeziya və məkani məlumatların emalı ilə məşğul olan geologiya torpaqşünaslıq və s. bu kimi və digər fənlərlə sıx əlaqəsi vardır.
Kartoqrafiya ilə aşağıda göstərilən əlaqəsi vardır:

- joğrafi xəritələr – JİS üçün məkani məlumatların əldə olunmasında əsas mənbə sayılır;
- kartoqrafiyada qəbul olunan jizgilənmiş xətlər və koordinat sistemı, JİS-də joğrafi lokal (yerli) məlumatlar üçün bazisın yaradılmasına xidmət edir.

Buna əlavə olaraq demək olar ki, joğrafi xəritələr – JİS-ə daxil olan, emal olunan və qorunub saxlanılan məlumatların əsas növü sayılır.
JİS texnologiyası, əsasən, riyazi-kartoqafik modelləşdirməyə və kartoqrafik təhlil metodlarına əsaslanır.
Kartoqrafik təsvirlər – istifadəçilərə verilən ən məqsədyönlü geoinformasiya formasıdır, xəritələrin tərtib olunması isə – JİS-nin əsas funksiyasıdır.

3. Eyni tipli JİS ümumi növlü quruluşuna üç blok daxildir:
- Daxil olma bloku. Bu bloka məkani məlumatları rəqəmli forma halına və onların kompüterin yaddaşına salınması və ya MB yaradılması üçün müxtəlif qurğulardan – skaner, diqitayzer və klaviaturadan istifadə olunur;
- Emal bloku. Bu blok kompüterdən, idarəetmə sistemindən və proqram təminatından ibarətdir;
- Çıxış bloku. Emal olunmuş məlumatları kartoqrafik formada görünüşü üçün kompleks forma - monitor, printer, plotter və s. ola bilər.

JİS-nin vajib funksiyaları:
- məlumatların daxil olunması;
- məlumatların forma dəyişikliyi (transformsiyası);
- məlumatlar formatının konvertasiyası;
- kartoqrafik proeksiyaların transformasiyası;
- MB-da məlumatların idarə olunması, manipulyasiyası, qorunub saxlanılması;
- kartoqrafik əməliyyatlar;
- overley (qarşılıqlı qatların bir-birinin üzərinə salınması) əməliyyatları;
- məkanı təhlil əməliyyatları;
- relyefin rəqəmli modelləşdirilməsi;
- məkani modelləşdirilmə (geomodelləşdirmə);
- məlumatların təsviri baxışı;
- məlumatların çıxışı.

4. JİS-nin qəbul olunmuş aşağıdakı fərqləri vardır:
- Ərazi üzrə əhatəsi: qlobal, milli, regional, lokal, yerli;
- Ərazilərin istifadəsi üzrə istiqaməti: şəhər (bələdiyyə); torpaq (bu torpaq sərvətləri və torpaq-kadastr oriyentasiyalı JİS); təbiətin mühafizəsi; meşə, kommunal, nəqliyyat və s.
- Xüsusiləşdirilmiş problemlər (həll olunan məsələlər) üzrə istiqaməti: inventarlaşdırma, kadastr qiymətləndirilməsi, idarəetmə, monitorinq, proqnozlaşdırma.

5. JİS-nin tərtibinə geniş mənada aşağıdakı mərhələlər daxildir:
- Layihə qabağı tədqiqatlar mərhələsi, o jümlədən: istifadəçilərin tələblərinin öyrənilməsi və JİS proqram vəsaitlərin istifadəsinin funksional mümkünlüyü; texniki-iqtisadi əsaslandırma (TİƏ), «xərjlərin – gəlir» üzrə qiymətləndirmə nisbiliyi;
- JİS-nin layihələndirmə sistemi, o jümlədən «Pilot-layihə» mərhələsi;
- JİS-nin (özünün) işlənib hazırlanması;
- Pilot sahələrdə JİS-nin sınaqdan keçməsi (hər hansı bir kiçik ərazinin fraqmenti üzrə);
- JİS-nin təjrübəli nümunəsinin tərtib olunması;
- JİS-nin tətbiq olunması;
- JİS-nin istifadə olunması.

JİS-nin tərtib olunması ilə çox məşhur böyük Intergraph, Esri. kimi şirkətlər məşğuldur.

VIII.3.3 JİS –də istifadə olunan aparat vasitələr

Məlumatların daxil edilməsində texniki vasitələr.
Məlumatların formasının dəyişilməsində və emalında texniki vasitələr.
Məlumatların təsvir olunmasında texniki vasitələr.

Geninformatikanın texniki vasitələrini şərti olaraq üç yerə bölmək olar ki, yalnız jihaz və avadanlıqlıqların hər biri həm universal həm də xüsusi imkanlara malikdir. Bunlar məlumatların daxil edilməsinin texniki vasitələrindən, hesablama texnikasından, məlumatları əks etdirən qurğulardan və xəritələrin çap olunmasından ibarətdir.

1. Məlumatların kodlaşdırılması üçün, önjə, rəqəmləşdirilmə vasitələrindən istifadə olunaraq analoci-rəqəmləşdirməyə görə kartoqrafik materialların forması dəyişdirilir (rəqəmləşdirijilər).

JİS-nin ilkin inkişaf mərhələsində rəqəmləşdirmənin iki əsas növü vardır:

- yarımavtomat (digitayzerlər), əl ilə yerinə yetirmə və avtomatik olaraq koordinatları qeydə almaqla məlumatların yerləşdirilməsi (maqnit lentlər, disketlər, optik disklər və s.);
- avtomat, skanerin şüasını verilmiş kağız üzərində gəzdirməklə şəklin elemenlərinin fiksə olunması (skanerlər və ya skaner tipli qurğular).

Məlumatların daxil olunma texnologiyası bu qurğuların tətbiqinə əsaslanan rəqabətli və alternativ ola bilər.

Əvvəllər məlumatlar digitayzerin köməyi ilə birbaşa vektor formasında daxil olunurdu. Hal-hazırda isə skanerlər geniş vüsət almışdır, məlumatların daxil olunması, bir qayda olaraq, skaner vasitəsilə (rastr formatında) kompüterin yaddaşına (tif, bmp, cpq və sair formatlarda) salınır, sonra isə monitorun ekranında vektorlaşdırma prosesi həyata keçirilir.

Digitayzer düz səthli masadan və çıxarıjı mexanizmə malik qurğudan ibarətdir. İri formatlı masalar xüsusi dayaqlara bərkidilir. Masanın iş sahəsi bərk adətən şəffaf materialdan ibarət olub işıqlandırılması üçün xüsusi lampası vardır. Çıxarıjı mexanizm iki tipli ola bilər:

- Kursordan – yüksəkdəqiqli işlərin (koordinatların) yerinə yetirməsi üçün;

- Pero – daha az dəqiqlik tələb olunan işlərin yerinə yetirilməsi üçün.

Pero və ya kursordan istifadə olunması qoyulmuş məsələnin həllindən asılıdır. Digitayzerlər müxtəlif olur:

- işçi sahələrin ölçüsü və ümumi qabaritləri təqribən A4 dən A0 formatına uyğun olan digitayzerlər;
- dəqiqliyi kursorun xətası ilə nəzarət olunan digitayzerlər;
- digitayzer sahəsinin dəqiqliyi, konstruktiv quruluşa malikliyindən asılı olaraq müsaidlikliyi, daha doğrusu minimal addım kəmiyyətindən - inkrementlikdən (və ya diskretlikdən). Minimal addım isə adətən mm-in 1/100 hissəsi qədər qəbul olunur.

Kiçik digitayzerləri bəzi hallarda başqa jür - «tabletka» adlandırırlar.

Rəqəmli kameralar fokus məsafəsi dəyişkən olan obyektivlə təjhiz olunmuşdur. Rəqəmli kameralar buraxma mümkünlüyü 1343x972 nöqtə olmaqla təsviri əhatə edən 1,3 mln. elementdən ibarətdir. Bu orta mümkünlüklü rəqəmli kameralardır. Ardıjıl interfeysin köməyilə, təsviri rəqəmli kameradan kompüterin yaddaşına göndərmək mümkündür.

Skanerlər - originaldan skanerləmə yolu ilə yüksək (300-600-1200 və daha yüksək *dpi*) buraxma qabiliyyətinə malik olan rastr formatlarını avtomatlaşdırılmış surətdə təsvirlərin bilavasitə kompüter sistemində göstərən analoci-rəqəmli qurğudur.

Skanerlər planşet, barabanlı, rolikli və əldə istifadə olunan formatda olurlar.

Toxmaqjıqlar(klaviatura) – toxmaqjıqlar vasitəsilə simvolların yığılması. Konstruktiv xüsusiyyətinə, funksional imkanlarına, məhsuldarlığına və istifadə xarakterinə görə kompüterlər fərdi kompüterlərə (FK) və işçi stansiya (İS) bölünürlər.

FK – bu kompüterlər bir istifadəçi üçün onu bütün vajib işlərlə təminini nəzərdə tutur.
Bütün mütəlif formalı FK-lar 2 tipli mikroprosessorlardan ibarətdir:

- İntel (Pentium);
- Power PC, Motorola, IBM.

İS – güjlü qrafiki sürətə malik, RISC prosessorlu yüksəkməhsuldarlı kompüterdir.
Kompüter şəbəkəsi – bu sistemin əsas rolu bir kompüterdən digər kompüterə müxtəlif informasiyaları şəbəkə vasitəsilə ötürməkdir.

VIII.3.4 JİS –nin proqram təminatı. Proqram təminatının növləri

1. Məlumatların yerləşdirilməsi üçün proqram təminatı – bu: Rəqəmləşdirmə və ya skanerləşdirmə üçün idarəetmə qurğudur. Adətən bu qurğu ekranda JİS-də digər proqram formatında görünən təsvirləri redaktə və rəqəmli məlumatların idxalını və ixrajını konvertasiya etmək üçün yerinə yetirilir.
Məlumat Bazasının İdarəetmə Sistemi (MBİS). Məlumat Bazası (MB) JİS-də əsas mərkəzi anlayışlardan biridir. MB - avtomatik surətdə emalını təmin edən rəqəmli məlumatlar toplusu kimi başa düşülür. MB-nın yaradılması və ona mürajiət edərək ondan müxtəlif məlumatların əldə olunması MBİS-dən istifadə edərək həyata keçirilir.
MBİS-də – MB-nın yaradılması, istifadəsi və aparılması üçün təyin olunan kompleks proqramdır. Çoxsaylı müasir kommersiya istiqamətli MBİS-i müvafiq (relyasion) tiplərə aiddir, belə ki onlar relyasion məlumat modeli ilə müvafiq işləyir. Relyasion məlumat modelinə düzbujaqlı jədvəl formasındakı məlumat forması kimi göstərmək olar. Burada hər bir obyektin (J_1,J_2,…J_3) xüsusiyyətləri sütunlarda göstərilməklə (A_1,A_2,…A_n)

	A1	A2	A3
J1			
J2			
J3			

MBİS-i aşağıdakı əməliyyatları əks etdirir:

- məlumatların salınması;
- məlumatların qorunub saxlanılması;
- məlumatlarla manipulyasiya (pozulması, əlavə olunması) etmək;
- məlumatlara sorğuların göndərilməsi və onların emalı;
- məlumatların axtarışı;
- məlumatların seçilməsi;
- məlumatların qruplaşdırılması;
- məlumatların yeniləşdirilməsi;
- məlumatların tamlığının qorunması;
- məlumatların istifadə olunmasına ijazə verilməməsinə və ya itirilməsinə görə onların qorunması.

Əgər bilavasitə relyasion məlumatlar jədvəlinə mürajiət etsək, onda aşağıdakı əməliyyatların yerinə yetirilməsi mümkündür:

- Jədvəldəki sütunlara tətbiq olunan: yeni məlumatları əlavə etmək (add item); məlumatları silmək (drop item);
- Jədvəldəki yazılara tətbiq olunan: məlumatların əlavə olunması (add); qruplaşdırılması (sort); məlumatların məntiqi şərtlərə görə seçilməsi (reselect);
- Jədvəldəki ayrı-ayrı elementlərə tətbiq olunan: elementlərin məzmununun dəyişilməsi (update);
- Ümumi jədvələ tətbiq olunan: MB lazım olan jədvəlin seçilməsi (select); jədvəlin saxlanılması (save); jədvəlin silinməsi (erase).

ArcInfo-da:
Bir çox MB-yə mümkün olan girişlər sorğu quruluşunun xüsusi dili əsasında həyata keçirilir (SQL). CİS-nin proqramlarının çox zaman özünün MBİS-si olur. Eyni zamanda avtanom kommersiya xarakterli MBİS-ləri də olur.

Məsələn, *dBase, FoxBASE, Informix, Ingress, Oracle, Sybase.* Bunların içərisində *dBase* və *Oracle* daha çox geniş yayılmışdır. MB-dakı bir çox avtanom məlumatlar CİS-nin kommersiya xarakterli sisteminə ixraj oluna bilər.

2. Məlumatların emalı və təhlili, proqramların transformasiyası.

Bu proqramlar qeoinformasiya texnologiyasının özəyini təşkil edir. Onlara aşağıdakıları təmin edən proqramlar daxildir:

- Məlumatlar quruluşunu dəyişən əməliyyatlar;
- Koordinat sisteminin dəyişməsi və proyeksiyanın transformasiya olunması;
- Həndəsi hesablama əməliyyatları;
- Overley əməliyyatları (ayrı-ayrı adların və tiplərin qatlarda yerləşən məlumatların üst-üst salınması);
- Ümumi həndəsi, qrafhəndəsi və modelləşdirmə funksyaları.

Məlumatlar quruluşunun dəyişməsi – vektor formatlı məlumatları rastr formatlı məlumatlara çevirmək və ya əksinə görülən əməliyyatlardan ibarətdir. Vektor-rastr alqoritmlərin dəyişməsi olduqja sadədir:

a) vektor təsvirləri: vektor poliqonlarının nömrələrilə birgə yığılması;

b) nizamlı kvadrat şəbəkəsi ilkin vektor təsvirlərinin üzərinə salınır.

Damaların və poliqonun məxsusluğu ümumi olaraq, onların həndəsi mərkəzi vəziyyətinə görə təyin edilir.

v) və q) hər bir dama öz poliqonunun nömrəsini alır.

Bütün buişlər avtomatik olaraq həyata keçirilir.

<u>İnterfeysi işə salan proqramlar.</u> İnterfeys - onun quruluş, proqram, həmçinin istifadə sisteminə və tərkibinə daxil olan, qarşılıqlı hesablamalar sistemini təmin edən, vəsaitlər və qaydalar toplusudur. İstifadəçinin sistem ilə qarşılıqlı işlərinin

həyata keçirilməsi istifadəçi interfeys əsasında yerinə yetirilir. Kompüterin quruluşu ilə qarşılıqlı ünsiyyəti ən rahat üsul – əməliyyat sistemi (ƏS) təmin edir, hansı ki, kompüteri qoşan zaman o da bu sistemə qoşulur.

ƏS - proqram vəsaitlər toplusu olub, kompüterin qurğu resurslarının idarəetməsini və istifadəçinin qurğu ilə proqram proseslərinin qarşılıqlı təsirini və digər prosesləri təmin edir. ƏS yaddaşı idarə edir, fayl sisteminin giriş-çıxışını və proseslərin qaşılıqlı təsirini, qorunma sistemini təmin edir, resursların istifadə qeydiyyatını həyata keçirir və s.

VIII.3.5 JİS-dəki məlumat toplusu

1. Məlumatlar – real həyatın hadisələrini təsvir edən və müxtəlif faktları qeydə alan hər hansı bir formal şəkildə (kəmiyyətjə və keyfiyyətjə) göstərilməsidir.

Məlumatlar müxtəlif olur, məsələn: müşahidələrin, ölçmələrin və s. nətijələri.

Məlumatlar üç əsas komponentdən təşkil olunur:

- Atributiv məlumatlar – bu məlumatlar məğzi, xüsusiyyəti, dəyişkənliyi, qiyməti və s.bildirir;
- Joğrafi məlumatlar – bu məlumatlar digər məlumatlara nəzərən məkandakı vəziyyəti (praktiki olaraq bu məlumatlar – koordinatlardır) bildirir;
- Tarixi (vaxtı) bildirən məlumatlar - bu məlumatlar müxtəlif hadisələrin tarix haqqındakı müddəti və ya həmin andakı vəziyyətini bildirir;

JİS-də məkanı məlumatlar fərqliliyi (daha doğrusu obyektlərin koordinatları, onların məkanı vəziyyəti və atributiv məlumatlar, yəni obyektlərin xüsusiyyətləri) qəbul olunmuşdur.

Məkani obyektlər üç tip formasında ola bilər:

- Nöqtə formasında;
- Düz və ya əyri xətlər formasında;

- Poliqon formasında.

JİS-də digər əsas anlayış – metaməlumatlardır (əsl mənası – «məlumatlar haqqında məlumatlar»). Bu məlumatlar məlumatların yerləşdiyi vəziyyət, onların keyfiyyəti, tərkibi, məzmunu, mənbəyi (hansı şəraitdə və hansı üsulla əldə edilməsi), əldə olunma forması, əldə olunma şəraiti, mümkünlüyü və istifadəsi, məlumatlara olan müəllif hüquqları və sair bu kimi məlumatların olmasıdır.
JİS-də kompüter sisteminə daxil edilən, emal olunan və istifadəçiyə verilən məlumatlar *informasiya* adlanır.
Beləliklə, JİS-də informasiyanın əsas növləri aşağıdakılardır:
- məkani məlumatlar;
- metaməlumatlar.

Məkanı məlumatların əsas mənbəyi aşağıdakılardır:
- kartoqrafik mənbələr (planlar, xəritələr);
- məsafədən zondlaşdırma (MZ) məlumatları (aerokosmik məlumatlar: aeroşəkillər, kosmik şəkillər);
- müşahidə recimləri haqqında məlumatlar (hidro və meteopostlar, okeanoqrafik məntəqələr və s.);
- statistik məlumatlar (jədvəllər, dövlət statistikası, və s.).

MZ üzrə materiallar müxtəlif uçun aparatlarından (təyyarələrdən, vertolyotlardan) və kosmik peyklərdən (süni peyklərin zondlaşdırılmasından, orbit stansiyalarından) alınır.

2. Məkani məlumatları aşağıdakı üsullarla fərqləndirmək olar (yəni, məkanı obyektlərin rəqəmli təsvir olunma üsulları):
- vektor formatında göstərilməsi;
- rastr formatında göstərilməsi;
- nizamlı-dama formatında göstərilməsi;
- kvadratomik (kvadroağaj) formatda göstərilməsi;

Vektor formatında göstərilən məlumatlar (məlumatların vektor modeli) – bu rəqəmli nöqtə, xətt, poliqon (anjaq obyektlər həndəsi formada) kimi göstərilən məkanı obyektlərin koordinatları şəklində verilmiş məlumatlardır.
Vektor formatında göstərilən məlumatlar vektor tipli xəritələrin rəqəmləşdirilməsilə bağlıdır, belə ki, onlar digitayzer və ya skaner vasitəsilə sonradan əl ilə yerinə yetirilmiş işlərdən sonra alınmış məlumatlardır.
Nöqtə ilə qeyd olunmuş obyektlər vektor formatında ardıjıl yazı şəklində (hər biri üç yazı ilə təsdiqlənən formada) göstərilir:

İD	X	Y
1	x_1	y_1
2	x_2	y_2
…	…	…
n	x_n	y_n

- unikal identifikasion nömrələr;
- X koordinatların qiyməti;
- Y koordinatların qiyməti;

Xətti obyektlər vektor formatında ardıjıl aşağıda olduğu kimi yazı şəklində göstərilir:
- xətlərin, parçaların (İDN) identifikasion nömrələri;
- nöqtələrin jüt koordinatları;
- fayl məlumatında bir parçanın digərindən ayrılma mümkünlüyünü göstərən xüsusi «qeydetmə» elementi.

İD	X	Y
1	x_1	y_1
2	x_2	y_2
…	…	…
3	x_n	y_n
«END»		

Bu jür model forması xətti obyektlərdə «spagetti» adını almışdır, çünki onlar xətti obyektlərin topologiyasını göstərmir.
Lakin obyektlərin həm həndəsi formasını və topologiyasını (yəni, düyünlər, qövslər və poliqonlar arasında münasibəti) göstərən modellər vektor-topoloci modellər adlanır.
- düyünlər – 1,2,3;
- aralıq nöqtələr – 3, 6, 5;
- qövslər – 1-2, 2-4, 4-2; 4-1;
- poliqonlar – A, B, V, Q, D

Rastr formatında (rastr modeli) göstərilən məlumatlar – bu məlumatlar məkandakı obyektlərin rəqəmli formada rastr (piksel) damalarında eyni ölçülü toplu şəklində göstərilən və onların hər birinə verilmiş sinfi adlarıdır.
Obyektdən asılı olaraq hər bir pikselin öz nömrəsi olur.



Шякил 9.

Nizamlı-dama formasında göstərilən məlumatlar - bu məlumatlar məkandakı obyektlərin rəqəmli formada şəbəkədəki nizamlı damalarda toplu şəklində göstərilən və onların hər birinə verilmiş sinfi adlarıdır. Digər sözlə desək, nizamlı-dama formasında göstərilən məkani obyektlər üzrə məlumatlar üçün ərazi düzgün həndəsi (düzbujaqlı, kvadrat, üçbujaq, trapesiya və heksaqonal şəkilli) damalara bölünür.

Damaların ölçüləri müxtəlif ola bilər və tələb olunan məkani mümkünlüklə təyin edilir.
3. İdentifikasiya – bu unikal nömrələmə olub, məkani obyektlərə qatlarda avtomatik olaraq və ya istifadəçi



tərəfindən təyin olunan adlardır. Onlar məkani məlumatların vəziyyəti ilə əlaqə saxlanılması üçün xidmət edir.
Klassifikasiya – hər hansı bir sahənin obyektlərinin xəritələşdirilməsi haqqında məlumat sistemidir və onlar kodlaşdırılma ilə müəyyən edilir.
Sistemləşdirilmiş obyektlərin xəritələşdirilməsi uyğun seçilmiş klassifikasiya ilə yerinə yetirilir.
Obyektlərin xəritələşdirilmə klassifikasiyası – seçilmiş əlamətinə uyğun olaraq sinif və yarımsinif şəklində, obyektlər haqqında məlumatlar və ya hər hansı bir sahənin obyektləri haqqındakı məlumat toplusunun sistemli formasıdır.
Klassifikasiyaya olan tələblər aşağıdakılardır:

- Vahid kodlaşdırmanın tətbiqi və ondan istifadəetmə sadəliliyi;
- Bütün səviyyələrdə və bütün siniflərdə klassifikasiyanın əlamətinə görə kodlaşdırmanın vahid metodu və qaydası;
- informasiyanın emalında texniki vəsaitlərdən və tətbiq olunan proqramlardan asılı olmaması;
- kompleks məsələlərin həllindən asılı olmaması (universal olması);
- klassifikasiyanın həjmi və obyektlər haqqında informasiyanın genişləndirilməsində adaptasiya olunması.

Obyektlərin xəritələşdirilməsinin klassifikasiyası üç bölməni əhatə etməlidir:

- obyektlərin xəritələşdirilməsi (torpaq, atmosfer, yerin altı);
- xəritələrdə yazılar (joğrafi adlar, aydınlaşdırıjı yazılar, indekslər və s.);
- legenda və əlavə məlumatlar (diaqramlar, qrafiklər və s.).

VIII.3.6 JİS-xəritələşdirilməsi

1. JİS-xəritələşdirilməsi joğrafi informasiya texnologiyasının biliyi sayəsində onun texnologiyası əsasında xəritələrin istifadəsi və avtomatlaşdırılmış tərtibatı kimi başa düşülür.
JİS-xəritələşdirilməsi vajib anlayışdır: bu rəqəmli xəritə və elektron xəritələrdir.
Rəqəmli xəritələr - joğrafi təsvirlərin rəqəmli modelidir (xəritələr, planlar, aeroşəkillər). Bu məlumatlar joğrafi təsvirlərin qurulması üçündür.
Elektron xəritələr – rəqəmli modelin kompüter sistemində gözlə baxılması, yəni proqram və texniki vəsaitin köməyilə gözlə baxılması üçün joğrafi təsvirlərin proqram vasitəsilə idarə olunmasıdır.

Rəqəmli xəritələrin (RX) xüsusiyyətləri. Rəqəmli xəritələr, bir qayda olaraq, real joğrafi koordinat sisteminda yerləşdirilir və saxlanılır, lakin miqyası olmur. RX (kompüterin ekranında və ya kağız üzərində) istifadəçinin istəyilə ixtiyari miqyasa gətirilə bilər. Lakin bu heç də hər zaman yaxşı olmur.
RX joğrafi koordinat sistemində qorunub saxlanılması imkan verir ki, joğrafi təsvirlərə (xəritələrə) istənilən kartoqrafik proyeksiyada baxılması və onları bir proyeksiyadan digər proyeksiyaya, bir koordinat sistemindən digər koordinat sisteminə keçməsini həyata keçirmək mümkün olsun.
RX topoloci korrektləşməyə daha tələblidir. Əgər hər hansı bir xətt kağız üzərində axıra çatdırılmayıbsa belə onlar o qədər də gözə görünməyəjəkdir. Əgər bu elektron xəritələrdədirsə, məsələn, poliqonun xətti sona qədər jizgilənib birləşdirilməyibdirsə, onda bu poliqonla işləmək olmaz (məsələn, poliqonun sahəsini təyin etmək mümkün deyil).

2. JİS-xəritələşdirilməsinin ümumi texnoloci sxemi (elektron xəritələrin hazırlanması üçün görülən işlərin bütün mərhələləri):
a) Xəritələrin layihələndirilməsi:

- rəqəmli xəritələrin hazırlanması prosesində əmək həjminin və «əmək-vaxt»ın qiymətləndirilməsi;
- rəqəmli xəritələrin hazırlanmasında son nətijəyə nail olmaq üçün tələb olunan vəsaitin və imkanın (nə qədər işçi qüvvəsi və hansı proqramların lazım olması və s.) qiymətləndirilməsi;
- rəqəmli xəritələrin hazırlanmasında mənbənin qiymətləndirilməsi (mənbənin fiziki vəziyyəti: kağızın deformasiya vəziyyətinin səviyyəsi, onun bükülmə və jırıq olma mövjudluğu; informasiyanın aktuallığı – tərtib olunma vaxtı və s.);
- kartoqrafik proyeksiya mənbəsinin parametrlərinin təyin olunması (bu olduqja vajibdir);
- gələjək xəritənin təyinatına uyğun olaraq mənbənin təfsilatlı təyin olunması (nə qədər təfsilatlı olarsa bir o qədər yaxşıdır, burada həmişə işləmir: diskdə həjm çox olduqja onunla işləmək bir o qədər çətinləşir).

b) Jədvəl və qatların tərtibatı:
Kartoqrafik mənbə seçiləndən sonra lazımdır ki,:
- xəritələrdə qorunub saxlanılan informasiyalar üçün eyniadlı (eynitipli) obyektlərin tematik qatları təyin olunsun;
- jədvəl formasında qorunub saxlanılan atributiv məlumatlar dəsti hər bir qat üçün planlaşdırılsın (*Qat* – müəyyən ərazidə bir mövzuya aid olan eynitipli məkanı obyektlər toplusudur).

c) Xəritələrin legendalarının hazırlanması:
- şərti işarələrin işlənib hazırlanması (mümkündür ki, proqramın tərkibindəki şərti işarələrdən istifadə olunsun və ya yenisi layihələndirilsin);
- xətlərin qalınlığı və rənglərin çalarları təyin olunsun.

d) Xəritələrin rəqəmləşdirilməsi:
Xəritə qatlarının rəqəmləşdirilmə ardıjıllığı təyin olunsun (joğrafi xəritələrin hazırlanmasında təklif olunan ardıjıllıqdan

istifadə olunması mümkündür). Rəqəmləşdirilmə diqitayzer və ya skaner (ardıjıl vektorlaşdırma yolu ilə) vasitəsilə həyatə keçirilir.

e) Rəqəmləşdirilmiş xəritələrin redaktə olunması:
Qrafik salınandan sonra xətaların müəyyən edilmısi və aradan qaldırılması vajibdir. Ən çox yayılan tipik xətalar elektron xəritələrdə qrafiklərdir:

- buraxılmış və ya artıq əlavə olunan obyektlər (buraxılmışları rəqəmləşdirmək, artıqları isə silmək);
- poliqonların bağlanmaması və əlaqələndirilməməsi;
- poliqonda bir qeyddən daha artıq olması və ya heç olmaması (bu *ArcInfo*);
- eyni xətlərin bir neçə dəfə rəqəmləşdirilməsi.

Bu xətaların çoxu avtomatik olaraq (proqram üsuluna görə) tapılır. Lakin buraxılmış obyektlər isə yalnız gözlə yerinə yetirilməlidir.
Xətaları aradan qaldırdıqdan sonra vajibdir ki, daha kiçik xətalar da aradan qaldırılsın, məsələn, xətti obyektlərin dəqiq keçirilməsi.
Avtomat olaraq vektorlaşdırmanın da öz çatışmayan jəhətləri vardır, belə ki, avtomatlaşdırmadan sonra redaktəyə ehtiyaj duyulur və çox zaman avtomatlaşdırmadan yaranmış vektor xəritələr daha çox redaktə olunur.

f) Xəritələrin real joğrafi koordinatlara keçirilməsi:
Bu alınmış rəqəmli xəritələrin real joğrafi koordinat sisteminə keçidini təmin etməkdir. Bir qayda olaraq, proqram məhsulları sferik koordinat sistemindən düzbujaqlı müxtəlif proyeksiyalı koordinat sisteminə keçidi üzrə funksiyaya malik olurlar. RX-nin real joğrafi koordinat sisteminə keçidi üçün vajibdir ki, xəritənin ilkin hansı proyeksiyada tərtib olunması məlum olsun;

g) Xəritələrin qatlara uyğun olmasının yoxlanılması:
Joğrafi obyektlər qatlar üzrə qorunub saxlanılır. Bu səbəbdən eyni obyektlərin təkrar rəqəmləşdirilməsindən bir sıra xətalar meydana çıxır. Qatların bir-birinin üzərinə salındıqda bu xətalar (onları sürüşdürərək) üzə çıxır.

h) Atributiv məlumatların salınması (MB);

i) Xəritələrin tərtibatı;

j) Xəritələrin təsviri (metaməlumatlar: proyeksiyanın parametrləri, mənbələr, nə vaxt və kim tərəfindən tərtib olunmuşdur və s.).

3. RX-nin keyfiyyətinə olan tələblər.
a) Ümumi tələblər:

- İnformasiyaların semantik (mənaja) düzgün olması. Elektron və ilkin orijinal xəritələri bir-birilə müqayisə edərək şərti işarələrin düzgün şərh olunmasının yoxlanılması;
- Kodlaşdırmanın düzgün olması – qəbul olunmuş kodlaşdırma sistemində semantik (mənaja) məlumatların uyğunluğunun yoxlanılması;
- Obyektlərin identifikasiya (İD-lər unikal olmalı və təkrara yol verilməməlidir) sisteminin düzgünlüyünün yoxlanılması;
- Metrik informativliyin və vektorlaşmanın dəqiqliyi (çayların xətləri hamar olmalıdır, kvartalların bujaqları səlis göstərilməlidir, və s.);
- İlkin kartoqrafik materialların deformasiyası minimal səviyyədə olmalıdır;

b) Xüsusi tələblər:

- topoloci münasibətlərə riayət etmək;
- obyektlərin dəqiq formasını vermək;

- obyektlərin loqik qarşılıqlı yerləşməsinin dəqiqliyi (məsələn, horizontalların salınması), yəni ilkin xəritədə çap zamanı yaranmış mümkün xətaların aradan qaldırılması;
- bu tələbin yerinə yetirilməsi o zaman mümkündür ki, işi yerinə yetirən mütəxəssisin joğrafi bilik səviyyəsi kifayət qədər qaneediji olmalıdır. İjraçı tam məsuliyyəti ilə başa düşməlidir ki, o nə edir.

VIII.3.7 MBİS vəsaitlərilə MB-nın proqramlaşdırılması və tərtib olunması

Jəmiyyətin kompüterləşdirilmə prosesini FK-nın meydana çıxmasın aktivləşdirmişdir və ona dönməzlik xarakteri vermişdir. FK əsasında avtomatlaşdırma insan fəaliyyətini yeni keyfiyyət səviyyəsinə qaldırır, məlumatların emal stereotiplərinin dəyişməsinə, yeni məlumat texnologiyası əsasında müəssisələrin fəaliyyətinin təşkilinə imkan verir. Yaxın gələjəkdə praktiki olaraq bütün orta və kiçik müəssisələr və təşkilatlar bu və ya digər həjmdə FK əsasında avtomatlaşdırmanın tətbiqi zəruriliyini hiss edəjəklər. Bu prosess artıq ölkədə baş verməkdədir.
Hələ 1945-ji illərdə yaranmış ilk kompüterlərin məqsədi – ballistik və fiziki hesablamalar üçün nəzərdə tutulmuşdu. Lakin insan fəaliyyəti və obyektiv olaraq onun ehtiyajlarının ödənilməsi, müxtəlif tipli məlumatların emalı və kompüterlərin xarakteristikasının daha da təkmilləşdirilməsi AİS-nin tətbiqinə gətirib çıxarmışdır. Onu da qeyd etmək lazımdır ki, kompüterlərin geniş istifadəsi təkjə istehsal fəaliyyətinin idarəetməsinin avtomatlaşdırılması üçün deyil, həm də elmi tədqiqatların, eksperimentlərin modelləşdirilməsində, layihə-konstruktor işlərinin avtomatlaşdırılmasında (LKİA), istehsalatda texnoloci proseslərin avtomatlaşdırılmasında (İTPA), iri həjmli məlumatların saxlanılmasının avtomatlaşdırılmasında (MB) və s. bu kimi məlumatların avtomatlaşdırılmasında mühüm rol

oynayır. FK-ların ijtimai həyatda hesablama texnikasına tətbiq olunması bir çox məlumat prosesinə birləşmə imkanı verdi: rabitə sisteminə və əvvəllər müstəqil inkişaf edən poçt, teleqraf, telefon, media- radio, telegörünüş, kosmik rabitə peykləri və s. Məsələn, FK telefon şəbəkəsinə qoşulması elektron poçtunun yaranmasına səbəb oldu.
Rəqəmli məlumatların səmərəli istifadə olunması məlumatların qorunub saxlanılma funksiyasının təmini, onların təsvir olunması, yeniləşdirilməsi və s. həmçinin proqram vəsaitlərin əldə olunması ilə emalın tətbiq sahəsinin (yəni təhlili, modelləşdirilməsi və s.) yerinə yetirilməsilə həll olunur.
Məlumatların tipindən və formatından, JİS-nin proqram vəsait səviyyəsindən və əhatə dairəsinin müxtəlif xarakterindən və onların istifadə şəraitindən asılı olaraq məlumatların qorunub saxlanılmasının təşkili və onların əldə olunmasına müxtəlif məhdudiyyətlərin qoyulması variantlarla həll oluna bilər.

VIII.3.8 Nöqtələrlə, xətlərlə və kontur jizgiləri üzrə qapalı poliqon kimi işarə olunan obyektlərin ümumi analitik əməliyyatları

Məlumatların təhlili joğrafi məlumat texnologiyasının özəyini təşkil edən JİS-də üç iri (giriş, emal və çıxış) modullardan ibarətdir. Qalan bütün əməliyyatlar müxtəlif nöqteyi-nəzərlərdən model funksiyasını və onun əsas analitik sistemini yerinə yetirmə mümkünlüyüni təmin edən «servis» xarakterli formasını daşıyır. Müasir proqram vəsaitləri - analitik blokun (modulun) tərkibi konkret JİS-də yerinə yetirilən prosesdə formalaşır. Analitik xarakterli sadə əməliyyatların və ya onların ardıjıl qruplarının müxtəlif təsnifatlı qruplaşdırma forması vardır. Onları aşağıdakı kimi göstərmək olar:

- Məlumatların quruluşunun dəyişilməsi əməliyyatları;
- Koordinat sisteminin dəyişilməsi və proyeksiyaların transformasiyaları;

- Həndəsi hesablama əməliyyatları;
- Üst-üstə düşmə əməliyyatları (müxtəlif adlı və müxtəlif tipli məlumat qatlarının bir-birinin üzərinə salınması);
- Modelləşdirmə, qrafo-analitik və ümumi analitik funksiyalar.



Şəkil 10.

Məlumatların quruluşunun dəyişilməsi əməliyyatları. Məlumatların JİS-nin tərkibinə bu və ya digər üsullarla daxil olması çox zaman müəyyən əvvəlki əməliyyatlarda gələjəkdə məlumatların emalı üçün onların bu vəziyyətə uyğunlaşmasına ehtiyaj duyulur. Qəbul olunmuş məlumatların «giriş sahəsində» bir formatın digər formatda konvertləşdirilməsi olduqja vajibdir. Daha da praktiki vajib əməliyyat qruplarından biri də məlumatların vektor formasından rastr formasına və ya onların əks formata keçməsidir. Burada təkjə məlumatların import/eksport qarşılıqlı digər mühütlə bağlı məsələlərdə deyil, həmçinin bu məlumatların həm rastr, həm də vektor formatında JİS-də işlənməsinin təmin edilməsidir. Rastr formatından vektor formatına keçməsi əlaqədar olaraq yeni alqoritmlər vardır və işlənib hazırlanmaqdadır. «Rastr-vektor» və «vektor-rastr» format dəyişilikləri daha da yayılmaqdadır. Məlumatların «Vektor-rastr» formatında dəyişiliklər tipi - vektor halında (EPPL7, IDIRISI) məlumatların JİS-ə salınmasının tipik (səjiyyəvi) rastr məsələsidir. «Vektor-rastr» alqoritm format dəyişilikləri olduqja sadədir və onların nətijələri eyni mənalıdır.

«Vektor-rastr» format dəyişiliklərini ümumiləşdirilmiş təsvirlər üçün istifadə etmək olar. Vektor və rastr təsvirlərinin ilkin təfsilatı dəyişdirildikdə onun ilkin təsvir forması dəyişəjəkdir.

Tərs məsələ «rastr-vektor» dəyişikliyi rəqəmli (məsələn, aerokosmik) təsvirlərin aydınlaşdırılması ilə bağlı rəqəmli rastr kartoqrafik təsvirlər, orijinaldan skanirləmə yolu ilə analoq-rəqəmli dəyişikliklər üsullarından istifadə etməklə ardıjıl olaraq vektorlaşdırılmış müasir qarışıq rastr-vektor texnologiyası çərçivəsində rəqəmləşdirilmiş xəritələrdən və digər joğrafi informasiya və avtomatlaşdırılmış texnoloji əlavələrdən ibarətdir. Belə dəyişikliklər ideyası da olduqja sadədir. Lakin onun tətbiqi böyük çətinliklərlə qarşılaşır. Ona görə də burada səmərəlilik, istifadəçilərin öhdəsinə verilən məlumatların rastr-vektor dəyişilikləri prosesinə təsir etməsindən və vektorlaşdırmanın avtomatlaşdırma üsullarına interaktiv mümkünlüyü ilə birgə nəzarət olunmasından daha çox asılıdır. Nəzərə almalıyıq ki, daha çox əmək və vaxt həjmli mərhələlər avtomatlaşdırma prosesinə daha tuş gəlir: ilkin rastr təsvirlərinin filtrdən keçirilməsi, səs-küyün yatırılması, bütöv xətlər arsında yaranmış məsafələrin ləğvi və indeksasiyası, onların qalınlıqlarının azaldılması və təsvirlərin «skletləşdirilməsi», sonradan avtomatlaşdırılmış əməliyyatlar prosesində vektorlaşdırılmış hissəyə «əl» ilə geometrik və topoloci korrektə (dürüstləşdirmənin və dəqiqləşdirmənin) verilməsi.

Rastr-vektor əməliyyatı dəyişikliyində «parazit» poliqonlar içərisində poliqon şəbəkə topologiyasını korlayan bəzi kənar effektlilik yaranır.

Koordinat sisteminin dəyişilməsi və proyeksiyaların transformasiyaları. Bu blok qrupa məkani obyektlərin koordinat hesablamalarının adi (trivial) əməliyyatları (dövri, yerinin dəyişdirilməsi, oxların miqyaslaşdırılması və s.) və daha mürəkkəb transformasiya ilə bağlı, məsələn, obyektlərin dəqiq məlum koordinatların elastik (xətti, affin-konfiquqasiyalı) dəyişikliklər, və nəhayət daha mürəkkəb yarımqrup əməliyyatları kartoqrafik proyeksiyaların transformasiyasını tətbiq edərək istinad nöqtələri sistemində yerləşdirilməsi kimi əməliyyatlar daxildir:

- Həndəsi hesablama əməliyyatları.
- Üst-üstə düşmə əməliyyatları (müxtəlif adlı və müxtəlif tipli məlumat qatlarının bir-birinin üzərinə salınması).
- Modelləşdirmə, qrafo-analitik və ümumi analitik funksiyalar.

VIII.3.9 Məlumat bazasının tərkibinə və JİS-yə olan tələblər

Müasir dövrdə JİS-yə olan əsas tələbləri qısaja olaraq aşağıdakı kimi ifadə etmək olar:
JİS-nin bütövlüyüni, yəni istismar sistemi prosesində qarşıya çıxan hərtərəfli məlumatların jəlb olunmasını, proqram vəsaitləri və texniki təjhizatı təmin etməlidir;
Məlumat bazasının quruluşu həm ərazi, həm də onun tərkibi baxımından joğrafi sistem quruluşunu təqlid (yamsılama) etməlidir;
Bu quruluşun qarşılıqlı joğrafi sistemin komponentləri arasında mühüm komponenti əmələ gəlir. Onlar modelləşdirilməlidir və öz əksini JİS-də tapmalıdır. Yalnız bu zaman joğrafi sistemi bütöv bir obyekt kimi JİS-də təsvir etmək mümkündür.
Sistem kompleks şəklində olmalıdır. JİS texnologiyasının digər ənənəvi üsullardan əsas üstün jəhəti ondan ibarətdir ki, burada bir neçə böyük qrup parametrlərin və onların qarşılıqlı əlaqələrinin birlikdə təhlil olunması mümkündür. Bu isə öz növbəsində mürəkkəb joğrafi proseslərin və hadisələrin öyrənilməsinə şərait yaradır. MB-də blokların təbii qarşılıqlı bağlılığı - joğrafi tədqiqat texnologiyasının JİS-də təqlid edilməsi vajibdir. JİS-i açıq olmalıdır, onun yeni şəraitə uyğunlaşdırılması üçün modelləşdirilməsini müasir səviyyəyə uyğun gəlməsini nəinki onu yaradanlar tərəfindən, həmçinin istifadəçilər tərəfindən də təkmilləşdirilməsinin asan olması təmin edilməlidir. Transformasiya həm yeniləşdirməni, həm də tətbiq sahəsində yenidən istiqamətləndirməni təmin etmək üçün vajibdir. JİS müasir texnologiyalarla tez zaman ərzində

uyğun olaraq uzlaşmalıdır. JİS-nin həmçinin, müasir təşkilati quruluşu, riyazi təminatı və texnikasının olması vajibdir.
JİS-nin layihə prosesi - məlumatlara olan tələblərin təhlilindən, texniki (jihazlardan) təjhizatdan və proqram təminatından - sifarişçinin məqsədyönlü verilən göstərişlərindən, həmçinin texniki-iqtisadi əsaslandırmadan, yəni layihə rentabelliyinin səviyyəsinin qiymətləndirilməsindən asılı olaraq bir neçə mərhələdən ibarətdir.
JİS-də məlumatların təminatının layihələndirilməsi onun potensial istifadəçiləri tərəfindən JİS vasitələrilə həllini planlaşdıran ilkin məsələlərin mahiyyətindən asılı olaraq JİS MB-də materialların tərkibinə olan tələblərin təhlilindən ibarətdir. Belə təhlil aşağıdakılara əsaslanır:

- Mövjud məlumatların inventarlaşdırılması;
- Əldə olunmuş məlumatlarla onların ən «ideal» siyahısındakı törəmə məlumatlarla və ilkin istifadəçilərin tələbatına uyğun olan məlumatlarla müqayisəsi;

Ya «ideal» siyahını tam, ya da əldə olunan materiallarla istifadəçilərin tələbatına uyğun olan materiallar arasında kompromiss yaradaraq onları təmin edən MB quruluşunun təyini.
JİS-nin MB tərkibini əhəmiyyətli dərəjədə təyin edən potensial istifadəçilər tərəfindən məsələlərin spektr təhlililə yanaşı həll olunması, ərazinin informasiya bolluğunun inventarlaşdırılması və qiymətləndərilməsi – JİS-də ümumi layihənin ilkin mərhələlərindən biridir.
Layihənin analtik-inventarlaşdırma hissəsi həmçinin müxtəlif joğrafi-informasiya layihələrin təminatı üçün gələjək məlumatların əsasını təşkil edə bilər. Metodiki olaraq MB təşkili - məlumatın təsvir vəsaiti kimi və istifadəçilər tərəfindən məlumat axtarışı üçün sorğunun verilməsi, onların inteqrasiyası üçün qabaqjadan zəmin yaratmaq, o jümlədən MB şəbəkəsinə və ya mərkəzləşdirilmiş MB-yə kollektiv surətdə çıxışın paylanmasından ibarətdir.

İnventarlaşdırma məsələsi əsasən 3 mərhələdən ibarətdir:

- Məlumatların axtarışı, jədvəl-mətn formasında tərtib edilmiş mövjud məlumat (rəqəmli və analoq formasında) mənbəyinin aşkarlanması, təsviri və qiymətləndirilməsi;
- MBİS standartları çərçivəsində məlumatlarla manipulyasiya mümkünlüyü olmaq şərtilə onların formallaşdırılmış və qorunub saxlanılması üzrə təsvir olunması;
- Rəqəmli məlumatlar (JİS-də onun inkorporasiyası və əlavə xarakterin əldə olunması) üçün metodiki olaraq MB tərtibi.

Məlumatlar aşağıdakı pozisiyalar üzrə inventarlaşdırılaraq yerinə yetirilməlidir:

- MB-nin adı;
- Onun qısaldılmış adı;
- Tipləri: biblioqrafik/faktoqrafik, «bağlı» (daha yeniləşməyən)/aktiv (müntəzəm yeniləşən məlumatlar);
- Mövzuları;
- Məlumatların əraziyə bağlanması;
- Məlumatları əhatə edən dövri müddət;
- Mövzulara və yerləşmə vəziyyətə aid hakim təsvirediji (deskriptor)-sözlər;
- MBİS-dən istifadə olunması, kompüterin tipi;
- Qorunub saxlanılan məlumatların vahid sayı;
- Çıxış sənədlərin tipləri (mətn, jədvəl, qrafik, xəritə və s. formada);
- Məlumatların müəyyən şərtlər daxilində sərbəst əldə olunması;
- İstifadə olunan əsasnaməyə və digər instruktiv materiallara istinad olunması, ədəbiyyat mənbələrindən təsvir olunma;
- Əlavə məlumatlar və kommentariyalar;
- Əlaqə üçün ünvan;

- Təsvirin tərtib olunma müddəti.

VIII.3.10 JİS-də məlumat ərazisinin məhdudluğu

Joğrafi ərazinin məhdudluğundan və məlumatların emalından asılı olaraq İnformasiya Sistemini aşağıdakı siniflərə bölmək olar:

- Məlumat ərazisinin məhdudluğu - müxtəlif növ məlumatların müəyyən olunmuş joğrafi ərazidə toplanan sistemə deyilir və belə bir joğrafi ərazidə toplanan məlumat sistemi düzbujaqlı (dekart) və ya joğrafi koordinat sistemlərindən istifadə olunaraq xəritələr üzərində tətbiq edilə bilər;
- Obyektlərin əlamətləri – obyektlərin məhdud xüsusiyyətlərinin təsnifatı əsasında və ya bu obyektlərin səriştəli mütəxəssislər tərəfindən təsnif olunan verilmiş sistem əsasında yerləşmə vəziyyəti təyin edilə bilər;
- Mövqeyi - obyektlərin koordinat sistemlərində xəritə üzərində xarakterik nöqtələrlə bağlanması əsasında təyin edilə bilər. Belə obyektlərin koordinat sistemlərinə bağlanması «nöqtələrlə» (əvvəljədən müəyyən formada qəbul olunmuş xüsusi nöqtəvi işarələrlə), «xətlərlə» (əsasən avtomobil və dəmir yolları, çaylar və s.), «poliqon formalarla» (əsasən kənd təsərrüfatı sahələri, parklar, göllər və s.) yerinə yetirilir.

VIII.3.11 Statistik İnformasiya Sistemi

Statistika - ijtimai həyatda baş verən kütləvi (texniki-iqtisadi, sosial-iqtisadi, sosial-siyasi) hadisələrin kəmiyyət qanunauyğunluqlarını keyfiyyət qanunauyğunluqlarından ayırmadan xarakterizə edən məlumatların toplanmasına, işlənilməsinə və təhlilinə yönəldilmiş ijtimai fəaliyyət növüdür.

İjtimai hadisələrin inkişaf qanunlarının kəmiyyət tərəflərini təhlil etmədən onların keyfiyyətlərini dərk etmək mümkün deyil. Statistika sahəsində təhlilin keyfiyyət və kəmiyyət tərəflərinin vəhdəti daha qabarıq şəkildə təzahür edilir. İjtimai qanunauyğunluqları dəqiq təsəvvür etmək və ölçmək, statistikanın mühüm vəzifələrindən biridir, lakin bununla belə yeganə vəzifəsi deyil. Statistika metodologiyası faktorlar məjmusunu tədqiq etməyə, bütövlükdə proseslərin təsvirini verməyə, hadisələrin inkişaf meyllərini və müxtəlif formalarını nəzərə almağa imkan verir. O həmçinin hadisələrin törədilən səbəbin, asılılığının və qanunauyğunluğunun aşkarlanmasına və onların təhlil olunmasına kömək edir.
Statistika öz funksiyalarını yerinə yetirərkən kütləvi statistika müşahidəsi, göstərijilər sistemi, statistik qruplaşdırma, statistika jədvəlləri, ümumiləşdiriji göstərijilər (nisbi və orta kəmiyyətlər, indekslər və i.a.) kimi vasitələrdən istifadə edir.

- Statistika müşahidəsi – qabaqjadan müəyyən edilmiş proqram üzrə kütləvi ijtimai hadisələr (məs., hesabat, siyahıyaalma və s.) haqqında müntəzəm informasiya toplanmasıdır:
  - Seçmə müşahidə;
  - Ujdantutma müşahidə – hadisələrin gündəlik qeydiyyatı, yaxud dövri yoxlanılması (tədqiqi) yolu ilə həyata keçirilir.
- Statistika jədvəlləri – statistika məlumatlarının bu və ya digər kütləvi hadisə və prosesləri xarakterizə edən sistematik yerləşdirilmiş ədədlər şəklində tərtib üsuludur.

Məlumat – (informasiya) uyğun zaman ərzində təsadüfi kəmiyyət olan informasiya daşıyıjısıdır. Bu səbəbdən informasiya nəzəriyyəsini məlumatlardakı informasiyanın anjaq kəmiyyət tərəfi maraqlandırır. Hər bir informasiya və ya məlumat mənbəyi mümkün məlumatlar və onlara uyğun

ehtimallarla verilir. x1…,xn mümkün məlumatlar, P1…, Pn isə uyğun ehtimallardırsa, məlumatlardakı informasiya miqdarı

$x_i=\log_2 P_i$ olur (i=1,2,3,… n).

Məhdud ərazidə işlənən müəyyən İnformasiya Sistemləri arasında ən geniş yayılmış Statistik İnformasiya Sistemidir.
Statistik İnformasiya Sistemi - ölkə iqtisadiyyatını idarə edən və tənzimləyən bir məlumat sistemidir.
Statistik İnformasiya Sisteminin əsas vəzifələri aşağıdakılardır:

- Müxtəlif ərazilərdə yerləşən, müxtəlif istifadəçilər, iqtisadiyyatın bütün sahələrindəki istiqamət fəaliyyətinin növləri haqqında məlumatların toplanması və emal olunması;
- Beynəlxalq standartlarla müasir mərhələdə jəmiyyətin ümumi tələblərinə uyğun elmi əsaslandırılmış statistik metodologiya əsasında statistik məlumatların emalı;
- Bütün rəsmi statistik informasiya məlumatlarının dolğun olmasına zəmanət verilməsi və elmi əsaslandırılması;
- Ərazidə, xalq təsərrüfatının müxtəlif istiqamətləri üzrə, yerli və xüsusi müşahidələr əsasında statistik məlumatların kompleks formada uzlaşdırılması və yoxlanması;
- İnformasiya sənədlərinin müxtəlif formada və bütün istiqamətlərin növləri üzrə statistik informasiya yolu ilə təqdimatı.

Statistik informasiya sisteminin emalı prosesinin tətbiqində bütün toplanan məlumatların uyğun olaraq:

- Müddəti, yəni toplanan məlumatların ardıjıl tarixi;
- Yeri, yəni toplanan məlumatların hansı əraziyə mənsub olması;
- Mövzusu, yəni toplanan məlumatların hansı mövzuya aid olması göstərilməlidir.

VIII.3.12 Regional iqtisadi-ekoloci sistem

Müəyyən regiona aid olan informasiya sistemi - sabit idarəolunma əsasında, texniki, iqtisadi, ekoloci, bioloci, geoloci, hidrometeoroloci, torpaq məlumatları və digər istiqamətlər üzrə müxtəlif müəssisələr arasında toplanan məlumatlar, - regional iqtisadi-ekoloci sistem adlanır.
Regional iqtisadi-ekoloji sistemin funsional məqsədi ekoloci balansın saxlanması baxımından regionun müntəzəm inkişafıdır. Bu məqsədə nail olunması isə regionlar üçün iqtisadi-ekoloci vəziyyət üzrə müxtəlif məlumatların toplanması, emalı, təhlili və saxlanması yolları ilə yerinə yetirilir. Beləliklə, bu sistemin miqyası onun regional məhdudiyyətilə əlaqədardır.
Bu sistemdə toplanan, saxlanılan məlumatlar da ümumiləşdirilmiş üç əlamətə - «yeri»nə, «tarixi»nə və «mövzusu»na görə xarakterizə olunmalıdır.
Regional iqtisadi-ekoloci sistemi statistik informasiya sistemindən fərqləndirən jəhət ondan ibarətdir ki, burada yalnız məlumatların toplanması, saxlanması, təhlili ilə məhdudlaşmır. Burada həm iqtisadi-ekoloci vəziyyətin müntəzəm inkişaf etdirilməsi kimi məsələlərin həlli öz əksini tapır, həm də mövjud məsələlər differensasiya və təhlil olunur.
Statistik informasiya sistemində, müxtəlif idarəetmə səviyyəsi və məlumat toplusunun miqyasından fərqli olaraq, regional iqtisadi-ekoloji sistemdə isə idarəetmə səviyyəsi və toplanan məlumatların miqyası qeyd olunur**.**

VIII.3.13 Marketinq informasiya sistemi

Toplanan məlumatların emalı və təhlili - marketinq məsələlərin həllində və ümumi marketinq vəziyyətinin, ayrı-ayrılıqda sahələri üzrə, yardımı və marketinqin inkişafı üçün istiqamətləndirilmiş və nəzərdə tutulan kompleks metodlar və prosedurlar sistemidir. Müasir marketinq sistemi böyük həjmli

informasiya sistemini özünə jəlb etməlidir. Bu məqsədlə marketinq informasiya sistemində müəyyən sıra ilə düzülmüş strukturdan və ya kənar məlumat bazasından istifadə olunur.
Marketinq informasiya sistemində məlumat bazası əsasən aşağıdakı informasiya blokunu təşkil etməlidir:

- İstehsal obyektlərin yerləşmə vəziyyəti, şəraiti, istiqaməti və s.;
- Məhsul və ya malların yerdəyişmə istiqamətləri və nəqliyyatın axını;
- Alıjının və ya dəllalların maliyyə vəziyyəti;
- Rəqiblərin fəaliyyət dairəsinin istiqamətləri;
- Potensial müştərilərin (istehlakçıların) yerləşdirilməsi və bazarın strukturu;
- Tələb və təklifin həm daxili, həm də xariji bazarda dinamikası;
- Müxtəlif valyuta kurslarının vəziyyəti və s.

Yuxarıda göstərilən bu meyarları üç qrup üzrə - müddətinə, ərazisinə və mövzusuna (qiymətinə) görə səjiyyələndirmək olar. Məlumat bazasından başqa marketinq informasiya sistemində məlumatların emalı və təhlili üçün statistik tədqiqatlar üçün müxtəlif modellər və üsullar bankı da yaradılmalıdır. Statistik tədqiqatlar üçün:

- Üsullar bankı – müəyyən çərçivə daxilində seçilmiş, bir-birindən asılı, lakin daha dolğun surətdə açıqlanan məlumatlar və onların statistik etibarlılıq dərəjələrini təyin edən müasir statistik metodik topludur.
- Modellər bankı – marketinq məsələlərinin daha optimal həlli üçün təyin olunmuş iqtisadi-riyazi modellər kompleksidir. Marketinq informasiya sistemində daxili və xariji mənbələrdən toplanmış məlumatlar, marketinq xidmətləri mütəxəssisləri və bu sahədə işləyən rəhbərlərə vajib, düzgün yol seçmələrinə köməklik göstərir. Xariji mənbələrdən toplanmış məlumatlar - marketinq

kəşfiyyatlarından və marketinq tədqiqatlarının məlumatları əsasında alınır.

- Marketinq kəşfiyyatı – məlumat mənbəyinin xariji marketinq əhatəsinin dəyişməsi haqqında və müxtəlif prosedurlar əsasında istifadə olunan gündəlik informasiya toplusudur. Bu informasiya toplusu marketinq planlarının həm tərtibatında, həm də korrektə olunmasında vajibdir.

Marketinq tədqiqatları marketinq kəşfiyyatından fərqlənərək müəssisənin qarşılaşdığı konkret marketinq şəraitinin tematik məlumatlar toplusunu və təhlilini nəzərdə tutur.
Müxtəlif istiqamətlər üzrə idarəçilikdə rəhbərlərə vajib olan məsələlərin düzgün həlli yollarının seçilməsi və verilmiş istiqamətlər üzrə bu məsələlərin təhlilində informasiya blokundan istifadə etmək mümkünlüyü vardır. Marketinq məlumat bazasının tərtib olunması əsasında isə, marketinq informasiya sistemində tətbiq olunan marketinq məsələlərini müəyyən üsulların köməyi ilə (məsələn, korrelyasiya modelinin təhlili ilə, iqtisadi jəhətdən zərərsiz nöqtələrin hesablanması ilə və s.) yerinə yetirilir.
Marketinq məsələlərin həllində ekspertlərin səriştəsinə əsaslanaraq məntiqi alqoritmlərdən və prosedur kompleksindən istifadə olunur ki, bu isə öz növbəsində ekspert sistemi adlanır.
Müasir ekspert sistemində elmin müxtəlif - xəstəliklərin diaqnostikasında, geoloji kəşfiyyatda, gəlir vergisinin verilməsində, marketinq problemlərində və digər sahələrdə məsləhətlərin verilməsi mümkündür. Bu sahələrin hər birində bəzi məlumatların müəyyən riyazi çərçivəyə sığmaması, olduqja qəliz və sadə proqram təminatından istifadəsi çətinləşən informasiya ilə bağlı məsələlərə toxunulur. Anjaq ekspert sistemi formal sistemlərdən fərqli olaraq belə məsələlərin həllində çox zaman daha düzgün seçim edir.
Beləliklə, ərazidə məhdud məlumatlarla işləyən bu tip informasiya sistemini də üç qrup meyar üzrə - müddətinə, ərazisinə və mövzusuna görə səjiyyələndirmək olar.

VIII.3.14 Avtomatlaşdırılmış layihə sistemi

Ərazi jəhətjə məhdudlaşdırılmış, avtomatlaşdırılmış informasiya sisteminin bir qolu da avtomatlaşdırılmış layihə sistemidir. Müasir avtomatlaşdırılmış layihə sistemi - məlumat bazasında toplanmış eyni tipli elementlərdən istifadə edərək və layihələrin digər formada göstərilməsi üçün münasib tipli prosedura uyğun olaraq yerinə yetirilməsidir.
Avtomatlaşdırılmış layihə sisteminin əsas təyinatı - texniki məsələnin qoyuluşundan asılı olaraq, ilkin məlumatlar və verilən meyarlar əsasında layihənin optimal işlənib hazırlanmasıdır.
Avtomatlaşdırılmış layihə sistemi - toplanan məlumatların məhdud ərazisindən, mövqeyindən, yəni müəyyən məlum koordinat sistemindən asılı olaraq yerinə yetirilir. Avtomatlaşdırılmış layihə sistemində toplanan məlumatların möfqeyi ümumi şəbəkə anlayışı ilə bağlıdır.
Şəbəkə qeydiyyat mexanizmi olub eyni adlı intervallarla jizgilərin çertyoc və ya təbəqələr üzərindəki obyektlərin vəziyyətini göstərir. Şəbəkənin əsasını qəbul olunmuş bölgülər təşkil edir. Bu bölgülər səhifələrdə və ya təbəqələrdə müəyyən ölçü vahidində (dyum, santimetr, və s.) verilir.
Şəbəkə aktiv və ya passiv ola bilər. Əgər şəbəkə aktivdirsə, tərtib olunmuş çertyojun yerini dəyişdikdə və ya onu genəltməyə məjbur etdikdə, onda çertyocun hər bir nöqtəsinin koordinatları şəbəkənin yaxın nöqtəsinə bağlanajaq. Əgər şəbəkə passivdirsə, əksinə şəbəkə dəyişməz qalır.

VIII.3.15 Şəhər kadastr informasiya sistemi

Torpaq məsələlərinin həllində, ümumi torpaq və şəhər kadastrının hər bir obyektinin ayrı-ayrılıqdakı (küçələr, prospektlər, dalanlar, keçidlər, inzibati və yaşayış binaları, dəmir və avtomobil yolları, kənd təsərrüfatı sahələri, parklar, yaşıllıqlar, meşələr, göllər və çaylar, su hövzələri və s.)

vəziyyəti haqqında toplanan məlumatların emalı və təhlili üçün kompleks metodlar və prosedurlar sistemidir.

VIII.3.16 Vergi informasiya sistemi

Vergi məsələlərinin həllində və ümumi vergilərin vəziyyətinin, ayrı-ayrılıqda həm fiziki, həm də hüquqi sahələr üzrə vergilərin yığılmasının və obyektlərin vergilərə jəlb olunmasının inkişafı, ümumi vergi sistemində toplanan məlumatların emalı və təhlili üçün kompleks metodlar və prosedurlar sistemidir.
Torpaqdan istifadəyə görə ödəmə forması torpaq vergisi adlanır. Torpaq mülkiyyətçiləri və ya istifadəçiləri hər təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq sabit formada torpaq vergisinə jəlb olunurlar. AR-nin ərazisinin mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləri, torpaq sahələri isə vergitutma obyekti sayılır.
Torpaq vergisi – torpaq vergisi ödəyicilərindən müəyyən olunmuş qaydada mülkiyyətinə və ya istifadəsinə verilmiş vergiyə jəlb edilən, o jümlədən tikinti və qurğuların saxlanması üçün zəruri olan torpaq sahələrinə görə tutulur. Vergiyə jəlb olunan torpaqlar aşağıdakılardır:

- Kənd təsərrüfatı fəaliyyətinin (əkinçilik, heyvandarlıq, quşçuluq, bağçılıq, bostançılıq və s.) həyata keçirildiyi torpaqlar;
- Fərdi mənzil tikintisi, bağ evi, qarac tikintisi və digər tikinti məqsədli torpaqlar;
- Sənaye, tikinti, nəqliyyat, rabitə, energetika və başqa təyinatlı torpaqlar;
- Sağlamlıq və istirahət təyinatlı torpaqlar (dövlət mülkiyyətində olan torpaqlardan başqa);
- İstehsal fəaliyyəti üçün istifadə olunan dövlət, meşə və su fondu torpaqları;

- Xəzər dənizinin AR-yə mənsub olan sektorunun altında yerləşən istehsal fəaliyyətinə jəlb olunan torpaqlar.

Vergi dərəjəsi. Torpaq vergisinin dərəjəsi kənd təsərrüfatı torpaqları üzrə 1 şərti bal üçün aylıq gəlirin vergi tutulmayan məbləğinin 0,3 %-dir. AR-nin NK tərəfindən inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, joğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balları müəyyənləşdirilir.
Sənaye, tikinti, nəqliyyat, rabitə, tijarət-məişət xidməti və xüsusi təyinatlı yaşayış fondlarının həyətyanı sahələrin və vətəndaşların bağ sahələrinin hər kvadrat metrinə görə aşağıdakı jədvəldə aylıq gəlirin vergi tutulmayan məbləğindən faizlə müəyyən olunan dərəjələr tətbiq olunur.
Aşağıdakı torpaqlar vergiyə jəlb edilmir:

- Yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;
- Dövlət hakimiyyəti orqanlarının, büdjə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, AR Milli Bankının və onun qurumlarının, habelə AR Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar;
- İstehsal fəaliyyətinə jəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin AR-yə məxsus olan sektorunun altında yerləşən torpaqlar;
- Dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar.

Torpaq vergisi üzrə aylıq gəlirin vergi tutulmayan məbləğindən faizlə müəyyən olan dərəjələr

Jədvəl 7.

Yaşayış mənqtəqələri	Sənaye, tikinti, rabitə, tijarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar	Yaşayış fondlarının, həyətyanı sahələrin və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar
Bakı	**0,3**	**0,025**
Gənjə, Sumqayıt	**0,25**	**0,02**
Naxçıvan, Şəki, Yevlax, Lənkəran, Xankəndi, Mingəçevir, Əli Bayramlı, Naftalan	**0,15**	**0,12**
Rayon mərkəzlərində	**0,125**	**0,01**
Rayon tabeçiliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin qəsəbə və kəndləri istisna olmaqla)	**0,06**	**0,005**

Qeyd: Jədvəl AR Vergilər Nazirliyinin məlumatları əsasında tərtib olunmuşdur.

Torpaq vergisinin hesablanması və ödənilməsi qaydaları. Torpaq vegisinin ödəyijiləri torpaq sahələri barədə mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra fiziki şəxslər və bələdiyyə müəssisələri bələdiyyələrdə, digər müəssisələr isə vergi orqanında 1 ay müddətində uçota durmalıdırlar.

Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur. Müəssisələr torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəjəsinə əsasən illik vergini hesablayır və bu məlumatı mayın 15-nə qədər vergi orqanına təqdim edirlər.Bu qaydada hesablanmış verginin məbləği gəlirdən məhdudlaşdırılmayan çıxılmalara aid edilir.

Bələdiyyələr tərəfindən fiziki şəxslərə torpaq vergisi hər il iyulun 1-dək hesablanır və tədiyyə bildirişləri avqustun 1-dən gej olmayaraq onlara çatdırılır.

Ayrılıqda bir neçə hüquqi və ya fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib surətdə hesablanır.

Torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərinə qədər ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın yeni sahibi tərəfindən ödənilir.

Müəssisələrin torpaq vergisi dövlət büdjəsinə, fiziki şəxslərin torpaq vergisi isə yerli büdjəyə ödənilir.

Vergi ödəyijilərinə ayrılmış torpaq sahələrinə görə vergi torpağın ayrıldığı vaxtdan sonrakı aydan başlayaraq hesablanır. Torpaq geri alındığı (azaldıldığı) hallarda verginin hesablanması torpağın geri alındığı (azaldıldığı) aydan dayandırılır. Torpaq sahəsini ijarəyə götürmüş hüquqi və ya fiziki şəxs (ijarədarlar) torpaq vergisinin ödəyijiləri deyilir. İjarəyə verilmiş torpaq sahələrinə görə vergini torpaq mülkiyyətçiləri ödəyirlər.

VIII.4 Şəhər kadastrının tərtibatında müasir kompüter proqramlarının (AutoCAD və AutoCADMap, MapInfo, Arcview və s.) tətbiqi

Müasir kadastr sisteminin tərtibatı AutoCAD və ya AutoCADMap, MapInfo, Arcview və s. proqramlarda yerinə yetirilir və Geoinformatika (gələjəkdə Joğrafi İnformasiya Sistemi) Sisteminin əsasını təşkil edir.

VIII.4.1 AutoCAD və ya AutoCAD Map proqramında topoqrafik xəritələrin koordinatlarına əsasən kompüterdə yerləşdirilməsi

AutoCAD və ya AutoCAD Map proqramında topoqrafik xəritələrin koordinatlarına əsasən kompüterdə yerləşdirilməsi üçün mütəxəssisin ölkədə istifadə edilən Qaus-Kryuger proyeksiyası haqqında anlayışa malik olmalıdır. Bu proyeksiya haqqında aşağıda məlumat verilir.

Qaus-Kryugerin koordinat sistemi haqqında mə`lumat

Proyeksiya 1824-1830-ju illlərdə K.F. Qauss (1777-1855) tərəfindən işlənib hazırlanmışdır. Qauss proyeksiyasından geodeziyada istifadə edilməsi üçün lazım olan düsturlar 1912-ji ildə alman geodezisti Krüger tərəfindən təklif edilmişdir. Ona görə həmin proyeksiya Qaus-Krüger proyeksiyası adlanır. Xəritə tərtib etdikdə Yerin sferoidik səthini, müstəvi üzərində təsvir etmək lazım gəlir. Sferodik səthi müstəviyə çevirdikdə meridianlar və paralellər arasında və yaxud ixtiyari istiqamətdə boşluqlar (aralıqlar) əmələ gəlir. Lakin xəritədə təsvir fasiləsiz (arasıkəsilməz) alınmalıdır; təsvirin fasiləsiz alınması üçün isə hər hansı istiqamətdə sıxılma və dartılmalar olmalıdır. Bunun da nəticəsində xəritədə müəyyən təhriflər əmələ gəlir. Bu təhriflər xətlərin uzunluğunda, bujaqlarda və sahələrdə olur.



Шякил 11. Зонаын ох меридианы цзря Йер кцрясиня кюндялян тохунан слиндр

Yerin sferoidik səthinin müstəvi üzərində təsvir edilmə üsuluna *kartoqrafik proyeksiya* deyilir.

Kartoqrafik proyeksiyalar çoxdur. Onlardan istifadə etməni asanlaşdırmaq məqsədilə kartoqrafik proyeksiyaları bu və ya digər əlamətlərinə görə təsnif edirlər. Məsələn, təhrif xüsusiyyətlərinə görə kartoqrafik proyeksiyalar aşağıdakı qruplara bölünür:



6⁰-лик зонанын цсявизляриндя тясвири

Шякил 12.

- Bərabərbujaqlı proyeksiyalar. Bu proyeksiyalarda bujaqlar təhrif olunmur, fiqurların oxşarlığı saxlanılır, lakin xətlərin uzunluğu və sahələr təhrif olunur;
- Bərabərsahəli proyeksiyalar. Bu proyeksiyalarda sahələr təhrif olunmur, lakin bujaqlar və fiqurların forması təhrif olunur;
- İxtiyari proyeksiyalar. Bu proyeksiyalarda həm bujaqlar, həm də sahələr təhrif olunur, lakin burada bujaq təhrifləri barabərsahəli proyeksiyalardan, sahə təhrifləri isə bərabərbujaqlı proyeksiyalarda olandan azdır.

Topoqrafik xəritələrin proyeksiyasına belə bir tələb qoyulur: xəritədə təsvir edilən ərazi mümkün qədər çox olsun, lakin onda olan təhriflər xəritə üzrə aparılan ölçmələrin dəqiqliyindən artıq olmasın. Belə bir şərtə Qaussun bərabərbujaqlı köndələn silindrik proyeksiyasının həndəsi mahiyyəti aşağıdakı kimidir.

Bütün Yer kürəsi meridianlarla 6^0-dən bir 60 zolağa bölünür. Bu zolaqlara zona deyilir. Bu zonanın sərhədləri 1:1 000 000 miqyaslı xəritələrin beynəlxalq bölgüsündəki 6^0-lik sütunlara uyğun gəlir, fərq yalnız onların nömrələnməsindədir. Belə ki,

zonanın birinji nömrəsi Qrinviç[31] meridianının şərqdə, sütunların 1-ji nömrəsi isə 180^0-li meridiandan şərqdə başlayır. Ona görə də zonanın nömrəsi n ilə sütunun nömrəsi N arasında həmişə 3^0 fərq olur,

yəni $n=N-3^0$.

Hər hansı bir nöqtənin joğrafi uzunluğunu bilərək, onun neçənji zonada yerləşdiyini təyin etmək olar. Bunun üçün həmin nöqtənin joğrafi uzunluğunu 6^0–yə bölmək lazımdır. Məsələn, nöqtənin joğrafi uzunluğu $\lambda=43^042'$ olarsa, $43^042'$: $6^0=7$ ($1^042'$ qalıqla). Demək, həmin nöqtə 8-ji zonadadır.

Ox meridianının joğrafi uzunluğu aşağıdakı düsturla hesablanır:

$$\lambda_0=6^0 n-3^0$$

Burada n– zonanın nömrəsidir. Məsələn, 15-ji zonada ox meridianın joğrafi uzunluğu $\lambda_0=6^0x15-3^0=87^0$ edəjəkdir. Bu zonalardan birinin orta meridianı üzrə Yer kürəsinə toxunan köndələn silindr fərz edək. Belə halda həmin silindrin oxu ekvator müstəvisində yerləşəjək və yerin oxu ilə perpendikulyar kəsişəjəkdir. Zonanın meridian və paralellərini silindrin yan səthinə köçürərək, bu silindri yerin şimal və jənub qütblərindən keçən iki doğuran üzrə kəsək. Silindrin yan səthinin bizə lazım olan hissəsini müstəviyə çevirdikdə 6^0-lik zonanın kartoqrafik təsviri alınır. Alınmış bu proyeksiya Qaussun bərabərbujaqlı köndələn silindrik proyeksiyası adlanır. Aşağıdakı şəkildə zonanın eni çox böyüdülmüş halda göstərilmişdir. Əsl həqiqətdə o çox dar zolaqdır. Ekvatorda onun eni təxminən 670 km (çünki 6x111,3 km =670 km), meridian üzrə uzunluğu isə təxminən 20000 km – ə bərabərdir.

---

[31] Гринвич меридианы – Инэилтярядя йерляшян Гринвич рясядханасынын мяркязиндян кечян астрономик меридиандыр. Дцнйа цзря Гринвич меридианынын жоьрафи узунлуг даирясинин башланьыжы (сыфыры) кими гябул олунуб; Жоьрафи узунлуг даирянин щесабаты бу меридиандан гярбдян шяргя доьру 0^0-дян 360^0-йя гядяр вя йа щяр ики истигамятдя 0^0-дян 180^0-йя гядяр (бу заман цзяриндя шярг истигамяти йазмагла вя йа «+» ишарясини эюстярмякля вя гярб истигамяти йазмагла вя йа «-» ишарясини эюстярмякля) щесабланыр.

Zonanın orta meridianı absis oxu, ekvator isə ordinat oxu qəbul edilir. Ona görə çox vaxt orta meridian ox meridianı adlanır. Proyeksiyada zonanın ox meridianı və ekvator bir-birinə perpendikulyar olan düz xətlər, digər meridian və paralellər isə əyri xətlər şəklində təsvir olunur. Lakin topoqrafik xəritənin vərəqlərində meridian və paralellər düz xətt şəklində jızılır, çünki xəritənin bir vərəqində bu əyrilik hiss olunmur.

Zonanın proyeksiyasını silindrin yan səthində alarkən Qauss belə bir şərt qoymuşdur ki, proyeksiyada bujaq təhrif edilməsin, deməli, proyeksiyadakı kiçik hissələr yer səthindəki uyğun hissələrə oxşar təsvir edilməlidir. Bu şərtin yerinə yetirilməsi ilə proyeksiyada xətlərin uzunluğu təhrif edilir. Ona görə də proyeksiyada xətlərin uzunluğu səviyyə səthindəki uyğun xətlərin üfüqi proyeksiyalarına nisbətən çox olur. Buna görə də bütün zona proyeksiyada bir qədər böyüdülmüş alınır. Həmin proyeksiyada xətlərin təhrifi (böyüməsi)

$$\Delta s = S-s = (y^2/2R^2)\, S$$

düsturu ilə hesablanır.

Burada Δs – xətlərin uzunluğunun təhrifi (böyüməsi), s – kürə (səviyyə səthi) üzərində əyri xəttin uzunluğu, S – Həmin əyri xəttin proyeksiya (müstəvi) üzərində uzunluğu, u – zonanın ox meridianından həmin xəttin orta nöqtəsinə qədər olan məsafə (ordinat), R – yerin orta radiusudur.

Proyeksiyada xətlərin nisbi təhrifi $\Delta s / s = y^2/2R^2$ düsturu ilə hesablanır. Ox meridanı üzərində u=0 olduğundan 0 (yə"ni ox meridianı), təhrifsiz təsvir edilir. Ox meridianından ən uzaq olan nöqtələr zonanın kənarında ekvator üzərindəki a və b nöqtələridir. Həmin nöqtələrin ordinatı u=111,3 km X 3=333,9 km, nisbi təhrif isə

$\Delta s / s = 1 / 800$ düsturu ilə təyin olunur.

Ərazidə $\varphi = 36^0$ –dən (u=90 km X 3 =270 km) $\varphi=70^0$ – dək (u=38 km X 3 = 114 km) sahədə nisbi xəta 1/1100 –dən 1/6000 –ə qədər dəyişir.

Belə təhriflər 1:10 000 və ondan kiçik miqyaslı xəritələrin hazırlanmasındakı qrafik və texnoloji proseslərdən (məsələn, konturların rənglənməsindən) asılı olan xətadan (0.5 mm-ə qədər) çox deyil.
Beləliklə, Qaussun bərabərbujaqlı köndələn silindrik proyeksiyasında hər bir 6^0 –lik zona praktiki olaraq təhrifsiz təsvir edilir. Bu xüsusiyyət kartometrik işlərdə topoqrafik xəritənin eyni bir sabit miqyasından istifadə etməyə imkan verir. 1:5 000 və 1:2 000 miqyaslı topoqrafik planaalma və şəhər planaalma işlərində, həmçinin daha çox dəqiqlik tələb edən xəritə tərtib etdikdə 6^0 –lik zona əvəzinə 3^0 –lik, $1{,}5^0$ –lik zonalar götürülür.
Qauss proyeksiyasının müsbət jəhəti ondan ibarətdir ki, burada nöqtələrin həm joğrafi koordinatlarını, həm də zona daxilində onların düzbujaqlı koordinatlarını da təyin etmək mümkün olur. Bu isə bir sıra geodezik və kartoqrafik məsələlərin həllini asanlaşdırır. Həmin proyeksiyanın çatışmayan jəhəti onun yer ellipsoidinin bütün səthinə aid edilə bilməməsidir, çünki ox meridianından uzaqlaşdıqja təhriflər artır. Ona görə də Qaussun düzbujaqlı koordinatlar sisteminin 6^0-lik zona daxilində tətbiq etmək mümkündür.

Topoqrafik xəritələrin koordinatlarına əsasən kompüterdə yerləşdirilməsi

Yerin fiziki səthininin proyeksiyası bilavasitə müstəvi üzərində alınması müxtəlif geodezi və kadastr işlərinin yerinə yetirilməsi xeyli asanlaşır, çünki bütün aparılan hesabatlar və qrafiki qurmalar həndəsi qaydalara əsasən müstəvi üzərində aparılır. Lakin ellipsoid səthinin müstəvi ilə əvəz edilməsi xətlərin uzunluğunda, nöqtələrin yüksəkliyində, sahələrdə və



Yerin yüksəkliklərinin təcəssümü

Şəkil 13.

bujaqlarda bəzi səhvlərə gətirib çıxarır.
Uzunluğu 10 km-ə bərabər olan AV qövsünü AS toxunanı ilə əvəz etdikdə alınan xəta həmin qövs uzunluğunun 1:1 000 000-dan kiçik olur. Bu xəta yer üzərində üfüqi məsafələrin ən dəqiq ölçülməsində belə qanuni hesab olunur. Yerin sferik (səviyyə) səthində radiusu 10 km-ə bərabər olan bir sahəni $S = \pi r^2 = 3{,}14*10 = 314$ km^2 təjrübi olaraq müstəvi kimi qəbul etmək və həmin hissədə Yer səthinin əyriliyini nəzərə almamaq olar. Lakin bu məsafədə (d=10 km) nöqtənin yüksəkliyində olan xəta isə Δh=7,85 m-ə bərabər olajaqdır, bu da yol verilməzdir.

Bütün yuxarıda deyilənləri və hər bir topoqrafik xəritə

vərəqlərinin trapesiya formasında olmasını nəzərə alaraq

topoqrafik xəritələri AutoCAD və ya AutoCADMap

Шякил 14.

Шякил 15.

proqramlardan istifadə etməklə kompüterdə yerləşdirmək olar.

Topoqrafik xəritələrin kompüterdə yerləşdirilməsi aşağıdakı ardıjıllıqla həyata keçirilir:

- Topoqrafik xəritələrin hər bir vərəqi skaner vasitəsilə skanerlənir (bax.VIII.4.3.);
- Alətlər menyusunda yerləşdirmək (insert) sütununda rastrların təsvirində (raster image) qrafasının düyməsini işə salırıq – image. Bizə aşağıda göstərilən formada yerləşdirmək istədiyimiz fayl haqqında məlumatları ardıjıl (faylın tipi, adı və yerləşdiyi yeri) olaraq qeyd edirik və faylın açılması haqqında əmr veririk;
- Sonra aşağıda göstərilən pənjərə çıxır orada topoqrafik xəritənin koordinatları , miqyası qeyd olunaraq təsdiq düyməsi basılır.

VIII.4.2 MapInfo proqramında topoqrafik xəritələrin koordinatlarına əsasən kompüterdə yerləşdirilməsi

FK sistemində MapInfo proqramında tərtib olunmuş JİS onun klassik formasına aiddir. Intergraph, Esri (ArcInfo) sistemlərində JİS-nin professional səviyyəsi ilə MapInfo proqramında tərtib olunmuş JİS-nin fərqli jəhəti ondan ibarətdir ki, ikinjidə məlumatların təhlili və onların daxil edilmə və çıxış imkanları müəyyən məhdudiyyətlər çərçivəsindədir.

MapInfo proqramı adları çəkilən professionallar arasında JİS yaradılması üçün ən geniş yayılmışıdır. MapInfo proqramı istifadə üçün sadə və rahatdır. Bu universal proqram məhsulu olub, qrafik təsvirlər və bu təsvirlərin ənənəvi şəkildə çap olunması üçün böyük imkanlara malikdir.

MapInfo proqramında istifadə olunan məlumatlar aşağıdakılardır:

- Qrafik məlumatlar. Rastr (müxtəlif formatlı: JPG, TIFF, BMP, GIF), vektor - MapInfo proqramının məhsulu olan «map» formatında;

- Müxtəlif proyeksiyada kartoqrafik təsvirlər. MapInfo proqramı geniş yayılmış proyeksiyaların çoxu ilə işləyə bilir. Lakin bu proqram amerikan proqramı olduğundan, əlbəttə ki, təbii olaraq burada yazılmış proyeksiyalara uyğun olaraq işləyir. Qauss-Krüger proyeksiyası burada işləmir. Lakin bu proyeksiyada işləmək üçün xüsusi uyğun modul yazılmalıdır və o proqrama əlavə olunmalıdır ki, Qauss-Krüger proyeksiyasında işlər görmək mümkün olsun;
- Müxtəlif elektron formadakı jədvəllər mövzu üzrə olan məlumatlar. Bu məlumatları Excel formatından importlaşdırması mümkündür;
- Annotasiya formasında yazılmış mətnləri, legendaları (şərti işarələri) qrafikləri xəritə üzərindəki obyektlərə «bağlamaq» olar.

MapInfo sisteminin əsas funksiyaları.

- Təsvir olunan kartoqrafik materialları əyani surətdə görmək (demək olar ki. bütün üsullarla təsvir olunan materialları istifadə etmək olar). Mövzular üzrə xəritələrin qurulması zamanı, təsnifat formasında və dərəjələrə bölünərək hissələrlə verilmiş məlumatların istifadə olunma mümkünlüyü onların ümumi forma şəklinə salınmasına gətirib çıxarır.
- Mövzular üzrə və qrafik modifikasiyalı məlumatlar istifadə olunması (əlavə etmək, yerlərini dəyişmək, qrafik məlumatları silinməsi, MB-nin modifikasiya edilməsi);
- İşlərin sənədləşdirilməsi, yəni ənənəvi formada elektron xəritələrin çap olunması üçün görülən işin yerinə yetirilməsi: legendanın (şərti işarələrin) qurulması, yazıların verilməsi, çertyocun beynəlxalq standarta uyğun olaraq tərtibatı üçün bütün görüləjək hissələrin yazı və qrafikləri;
- texniki xüsusiyyətlərin funksiyası: ayrı-ayrı MB çıxış (məsələn, digər kompüterdəki məlumatlara və s. əlbəttə ki əgər server mövjuddursa); şəbəkədə işləmək mümkünlüyü.

VIII.4.3 ArcView proqramında topoqrafik xəritələrin koordinatlarına əsasən kompüterdə yerləşdirilməsi

Müasir dövlətlərin inkişafının dünyəvi tendensiyalarından biri də bütün istehsal sahələrində kompüter texnologiyasının tətbiqidir. Torpaq sahələrinin idarə olunması sahəsində onların tətbiqi vajib rol oynayır. Müasir inkişaf səviyyəsində artıq demək olar ki, ərazilərin idarə olunması və planlaşdırılması sahəsində və onların yerləşdirilməsində, məkani məlumatların təhlili və əks etdirilməsi üçün geniş imkanlara malik olan JİS-dən istifadə olunmaması mümkün deyil.

Bu günə qədər JİS-nin ən geniş yayılanlarından biri ERDAS kompaniyasının məhsulu ArcView proqramıdır. Torpaq resurmların idarə olunması ilə əlaqədar olaraq AR-də torpaq islahatlarının aparılmasına ArcView proqramın tətbiq olunması bir impuls rolunu oynamışdır.

Məkani məlumatlarla işlədikdə ArcView proqramı geniş imkanlara malikdir və proqramda istifadə olunan xüsusi «Avenue» dili isə əsaslı surətdə sistem məsələlərin həlli üzrə onun dairəsinin genişləndirilməsinə xidmət edir.

Belə məsələlərdən biri də JİS-dən istifadə edilməsi zamanı alınan son məlumatların dəqiqliyini yüksəltməkdir. Bir qayda olaraq plan və xəritələrin vektorlaşdırılması nətijəsində alınan son məlumatlar, məntəqə və nöqtələrin koordinatlarıdır. Vektorlaşdırma zamanı məlumatlar nöqtə, xətti və poliqon obyekt formada qatlarda yerləşdirilir. Obyektlərin poliqonal formada vektorlaşdırılmasında vajibdir ki, qonşu xətlər bir-birinin üzərinə düşsün, yəni jizgilinən xətlərin nöqtələri üst-üstə düşsün.

JİS-nin əsasını miqyası əvvəljədən müəyyən olunmuş topoqrafik xəritələr təşkil edir. Bu topoqrafik xəritələr skaner və ya digitayzer vasitəsi ilə kompüterun yaddaşına salınır. Skanerlənmiş xəritələr Adobe Photoshop proqramında emal

olunur və ArcView proqramında topoqrafik xəritələrin hər bir vərəqinin çərçivələrinin joğrafi koordinatlarına əsasən qurulur:

Xəritələrlə işləmək üçün xəritələr skaner vasitəsi ilə elə skanerlənməlidir ki, skanirləmə zamanı rastr formada kompüterun yaddaşına göndərilmiş topoqrafik xəritə təsvirləri üzərindəki uyğun joğrafi koordinatlar və miqyas qorunub saxlanılsın. Belə olan halda JİS-dən istifadə olunmasının məhdudiyyətliyini və xüsusiyyətlərini nəzərə almaq lazımdır.

Rastr formada təsvirlərin hazırlanması. Kağız üzərində jizgilənmiş dördbujaqlı çərçivə ilə hüdudlanmış və uyğun joğrafi koordinatlarına görə verilmiş topoqrafik xəritənin hər bir vərəqini ArcView proqramından istifadə edərək, kompüter sistemində yerində dəqiq yerləşdirmək üçün bir misalı həll edək.

Ehtimal edilir ki, biz bu misalı həll etdikdə nəzərə almalıyıq ki, tələbə Adobe Photoshop proqramında işləməyi bajarır. Adətən topoqrafik xəritənin hər bir vərəqi skanerin formatından böyük olur. Bu zaman topoqrafik xəritə iki və daha çox hissədən ibarət kiçik hissələrlə elə skanerlənməlidir ki, gələjəkdə tam təsvirin alınması üçün topoqrafik xəritə hissələrinin bir-biri ilə örtmə faizini təmin etsinlər. Anjaq onu da nəzərə almaq lazımdır ki, hər bir topoqrafik xəritə təsviri, düzbujaqlı həndəsi fiqura malik olmalıdır. Qalan bütün təsvirlər - miqyas, şərti işarələr, nomenklatura və s. topoqrafik xəritənin üzərindən kənarlaşdırılaraq silinməlidir. Çünki nəzərə almaq lazımdır ki, qəbul etdiyimiz düzbujaqlı həndəsi fiqur trapesiya formasındadır və biz bu trapesiya formasındakı həndəsi fiquru təhrif etməklə ondan düzbujaqlı həndəsi fiqur almalıyıq (çərçivənin kənarlarında olan ağ zolaqdan belə). Bu zaman təsvirdəki çərçivənin hər hansı bir tərəfi ekranda göstərilən şəbəkə ilə üst-üstə düşməlidir. Fayl sıxılmamış BMP formatında yaddaşa yazılmalıdır. Təsvirin çox hallarda buraxılma həddi 150-300 DPI və 256 rəngdən, palitrası isə Windows sistemindən ibarət olmalıdır.

Əmsallar: Rastr formada topoqrafik xəritə təsvirlərinə təshihsiz istinad olunması üçün ArcView proqramındakı xüsusi əmsallardan istifadə olunur. Bu əmsallar təsvirlər üzərindəki piksellərlə və uyğun joğrafi koordinatlar arasındakı qarşılıqlı eyni qiymətlərə görə təyin edilir.
Tutaq ki, x,y-təsvir üzərindəki piksellərin koordinatları, X,Y – isə joğrafi koordinatlardır. ArcView sistemində joğrafi koordinatlar aşağıdakı düsturlara əsasən hesablanır:

$$X= D_x + K_x*x$$
$$Y= D_y+ K_y*y$$

Burada D_x,K_x, D_y,K_y əmsalları xüsusi proqramın köməyi ilə də təyin edilə bilər. Təsvirin BMP faylda yaddaşa verildiyi kimi, əmsallar faylı bu faylı müşayiət etdiyi üçün eyni həjmli formada yaddaşa yazılmalıdır və yalnız nəzərə almaq lazımdır ki, faylın adının sonunda "w" hərfi əlavə olunur.



Nöqtələrin bağlanması: Topoqrafik xəritələri joğrafi koordinat sistemində yerləşdirmək üçün ən azı iki, yəni çərçivə üzərində başlanğıj- X_1, Y_1 və son nöqtələrin X_2, Y_2 joğrafi koordinatları məlum olmalıdır. Adobe Photoshop 5. proqramında topoqrafik təsvirin sol yuxarı x_1 , y_1 koordinatları

0,0, sağ aşağı x_2, y_2 koordinatları isə topoqrafik xəritə təsvirinin eninə və uzununa olan ölçüsünə bərabərdir (qeyd: kompüterdə verilən piksel qiymətlərini metrik sistemə çevirmək lazımdır).
Əgər topoqrafik xəritələrin joğrafi koordinat sistemində yerləşdirilməsi üçün joğrafi koordinatları məlum olan trianqulyasiya şəbəkəsindən və ya digər xarakterik nöqtələri qəbul etsək, onda Adobe Photoshop 5. proqramından (Okno/Pokazat info) istifadə edərək topoqrafik xəritə təsviri üzərindəki piksellərə görə koordinatları təyin edə bilərik.
Əmsalların hesablanması: Əmsalların hesablanması xüsusi (müəllif tərəfindən) hazırlanmış «Ccalc» proqram vasitəsilə yerinə yetirilir. Proqrama x_1-X_1, x_2-X_2 (və ya y_1-Y_1, y_2-Y_2) məlumatları daxil edilir və proqramdan K_x, D_x (və ya uyğun K_y, D_y) məlumatları alınır. Alınmış məlumatlar müşayiət olunan faylda

K_x
0
0
K_y
D_x
D_y

ardıjıllığı ilə yazılır. Adətən Ky əmsalı mənfi işarə ilə alınır.
Misal:
Tutaq ki, Qauss-Krüger proyeksiyasında joğrafi koordinat sisteminə görə qurulmuş 1: 25 000 miqyaslı topoqrafik xəritə üzərində, verilmiş 1: 10 000 miqyasındakı topoqrafik xəritəni yerləşdirmək tələb olunur. Topoqrafik xəritələr üzərində iki və ya üç eyni adlı xarakterik nöqtələr seçilir. Bu nöqtələr (məsələn, yolların, yollarla kanalların kəsişmə nöqtələri və s. bu kimi nöqtələr ola bilər) topoqrafik xəritələrin sol yuxarı və sağ aşağı künjlərində olmaqla yanaşı hər iki (1: 25 000 və 1: 10 000)topoqrafik üzərində seçilməlidir. Üçünjü nöqtə yoxlama rolunu oynayır. 1:25 000 topoqrafik xəritə üzərindən seçilən nöqtələrin joğrafi koordinatları qeyd edilir.

1: 10 000 miqyasında topoqrafik xəritənin sağ aşağı künjündə kanalla avtomobil yolun kəsişməsindən alınan nöqtənin uyğun olaraq X və Y koordinatları 385 322 və 4 464 014 bərabərdir.
1: 10 000 miqyasında topoqrafik xəritənin sol yuxarı künjündə avtomobil yolların kəsişməsindən alınan nöqtənin uyğun olaraq X və Y koordinatları isə 375 593 və 4 470 596 bərabərdir.
Beləliklə, biz topoqrafik xəritənin hər iki künjündə bir-birinin əksinə olaraq diaqonal üzrə iki xarakterik nöqtə seçdik. Belə olan halda üçünjü nöqtənin seçilməsi o qədər də vajib deyil. Seçilən bu iki nöqtə əsasında topoqrafik xəritə X və Y koordinatlarını əhatəli surətdə kifayət qədər xarakterizə edir.
Bundan sonra təsvir üzərində piksellərə görə uyğun nöqtələrin koordinatları təyin edilir. Bunun üçün 1: 10 000 miqyasında topoqrafik xəritə Adobe Photoshop 5 proqramında açılır və (menyü -Okno/Pokazat info) informasiya bölümündə pikselin koordinatları təyin edilir.
1: 10 000 miqyasında topoqrafik xəritənin sağ aşağı künjündə kanalla avtomobil yolunun kəsişməsindən alınan nöqtənin uyğun olaraq X və Y koordinatları 5976 və 4248 bərabərdir.
1: 10 000 miqyasında topoqrafik xəritənin sol yuxarı künjündə avtomobil yollarının kəsişməsindən alınan nöqtənin uyğun olaraq X və Y koordinatları isə 147 və 459 bərabərdir.
Sonra əmsalların hesablanması üçün vajib olan iki jüt ədədin qiymətini almaq lazımdır. Yəni hər bir istiqamət (X və U) üçün vajib olan daha uzaqda yerləşən nöqtənin qiymətlərini (3-4 nöqtələr üçün) götürmək lazımdır. Bir halda ki, biz iki X və Y nöqtələrin koordinatlarını kifayət qədər bir-birindən uzaqlıqda seçmişik, onda bu nöqtələrin koordinatlarından istifadə edək.
u_1 = 4248 U_1 = 4464014
u_2 = 459 U_2 = 4470596
«CCAlc» proqramını işə salırıq və əmsalları hesablayırıq.
X koordinatı üçün:

1.6690684508492023 (Kx)

375347.6469377251670000 (Dx)

U koordinatı üçün:

-1.7371338083927158 (Ky)

4471393.3444180522600000 (Dy)

"Bloknot" u işə salırıq və əmsalların qiymətlərini ardıjıl olaraq yazırıq.

1.6690684508492023
0
0
-1.7371338083927158
375347.6469377251670000
4471393.3444180522600000

Bundan sonra alınmış mövzunu yaddaşa göndəririk. Əgər 1: 10 000 miqyasında topoqrafik xəritə faylı "Map.bmp" adlandırılıbsa, onda fayl "Map.bmpw" kimi yaddaşda saxlanılır. Bundan sonra xəritə Kompüterun yaddaşına salınır və istifadə üçün artıq hazırdır.
İlkin olaraq topoqrafik xəritə üzərində həm ümumi torpaq kadastrı, həm də şəhər kadastr sistemi yaradılır. Bütün qalan informasiya sistemləri kadastr sisteminə bağlanır.

VIII.5 Şəhər kadastrının AİS-yə olan tələbləri

«Torpaq kadastrı»nın avtomatlaşdırılmış informasiya sistemi üzrə (AİS) həlli «GeoCad Systems» sistem bazasında işlənib hazırlanmışdır və təşkilat və idarələr tərəfindən dövlət torpaq kadastrının aparılması üçün təyin edilmişdir. Burada torpaq sahələrinin kadastr üzrə qeydə alınması və torpaq sahələrinə olan hüquqların, digər şəhər və inzibati rayon ərazilərində torpaq sahələrilə bağlı daşınmaz əmlakın qeydə götürülməsi kimi işlər yerinə yetirilir.

AİS mövjud ümumi qəbul olunmuş yer quruluşu metodları ilə kadastr məlumatlarının toplanması üzrə proqram-texnoloci MB-nin kompleks idarə olunması şəklində işlənib hazırlanmışdır. Qeydə alınan obyektlərin bütün semantik[32] xüsusiyyətləri və tətbiq olunan təsnifatları mövjud torpaq kadastr sahəsində qanunverijilik aktlarını və normativ sənədləri nəzərə alaraq işlənib hazırlanmalıdır.

Bütün bu kompleks torpaq kadastr ərazilərində həll olunan məsələlərin təyinatı üzrə tamlığını və ya bitdiyini əks etdirir, həm də imkan verir ki:

- Torpaqların ijazə verilən istifadə növünə, hüquqi reciminə, binaların, mühəndis qurğularının, kənd təsərrüfatı və digər sahələrin vəziyyətinə və mövjudluğuna görə və torpaqların kateqoriya bölgülərinə görə keyfiyyət və kəmiyyət üzrə qeydə alınsın;
- Vergi müfəttişliyi üçün məlumatların formalaşdırılması və torpaq istifadəçilərinin bütün rekvizitləri ilə siyahısını qursun;
- Torpaq sahələrinin kadastr qeydə alınmasını yerinə yetirsin və aşağıda göstərilən obyekt tipləri üçün təyin olunmuş nümunə və formalarda sənədləri təqdim etsin;
    - Torpaq sahəsi;
    - Torpaq sahəsinin bir hissəsi;
    - Torpaq sahəsinə və onun hissəsinə verilən hüquq;
    - Ərazilərin narahatlılığı və məhduddiyyətliyi;
    - Daşınmaz əmlak və kənd təsərrüfatı təyinatlı obyektlər;
    - Sənədlər;
    - Subyektlər;
    - Zonalar;
    - Qeydə alınan ərazilər.
- Texnoloci kompleks üzrə aşağıda göstərilən əlavə obyekt tipləri üzrə belə EÖX, rabitə xətləri və s. bu kimi

[32] Семантик - мянажа

kommunikasiya xətləri altında olan torpaqların qeydə alınması yerinə yetirilməlidir:

- Vahid torpaq istifadəçiləri;
- Vahid torpaq istifadəçilərinin hüquqları;
- Vahid torpaq istifadəçilərinin hissələri;
- Əmlak kompleksləri.

- Hüquqlar, sövdələşmələr, ərazilərin narahatlılığı və məhdudiyyətliyi haqqında məlumatların qorunub saxlanılması;
- Ərazilərin zonalaşdırılması, iqtisadi vəziyyəti və kadastrı, həmçinin məhdud zonaları haqqında məlumatların emalı;
- Qeydə alınmış ərazilərin bütün torpaq sahələri üzrə torpaq vergilərinin hesablanması və onlara olan nəzarət;
- Dövlət kadastrında torpaq sahələrinin qeydiyyatının aparılması üçün torpaq sərhədləri üzrə tam paket sənədlərin formalaşdırılması;
- Obyektlərin MB tarixinin izlənməsi.

Kompleksin tərkibinə aşağıdakı (əsas) proqram modullar daxildir:

- *«Administrator sistemi»* bu ümumi sistemə əlavədir – sistemin ümumi nizamlanmasının, istifadəçinin informasiya resurslarından istifadəyə görə buraxılması mümkünlüyü üzrə hüquqlarının paylaşdırılması, MB-nin bütövlüyünə nəzarətin olması və digər ümumsistemli əməliyyatların yerinə yetirilməsi üçün istifadə olunur;
- *«İmport-eksport»* modulu – məlumatların təhlili və ya müxtəlif istiqamətli işlərdə bir növ əvvəljədən hazırlıq kimi ondan gələjəkdə istifadə olunması, xüsusi proqram məhsulları ilə və ya digər analoci sistemlər ilə bu məlumatların qarşılıqlı dəyişdirilməsi əməliyyatlarının təmini üçün istifadə olunur;
- *«Layihəçi sistemlər»* – bu ümumi sistemə əlavədir – «GeoCad Systems» idarəetmə sistemi altında və tərkibində

işləyən son istifadəçinin həlli üzrə sistemlərin adaptasiyası və işlənib hazırlanması üçün istifadə olunur;

- *JPS Graph* – bu ümumi sistemə qrafiki əlavədir – MB obyektlərin məkani vəziyyətinin metrik məlumatları ilə təsvir olunması üçün istifadə olunur. *Həmçinin burada obyektlərin məkani xüsusiyyətlərini qrafiki çap və redaktə olunan zaman seçilmiş obyektlər haqqında əldə olunan məlumatları əks etdirir;*
- *Torpaqlar* – bu ümumi sistemə (sifarişçilər və müştərilər üçün) əlavədir – torpaq kadastr (sərhədlərin dəqiqləşdirilməsi, torpaq vergisinin hesablanması, sahələrin sənədləşdirilməsi və s.) məlumatları işlərinə istiqamətlənmiş MB (semantik, metrik və xidməti) müxtəlif xidmət reciminin təşkili üçün istifadə olunur;
- *Ümumi hesabat,* bu ümumi sistemə (sifarişçilər və müştərilər üçün) əlavədir – torpaqdan istifadə olunmalar (əvvəllər bu forma 22 və 22a idi) üzrə statistik hesabatın çapı və nəzarətin formalaşdırılması üçün istifadə olunur.

Sistem hesabatların avtomatik yerinə yetirilməsinə, aşağıda göstərilən xüsusiyyətlərə imkan verir:

- Obyektin xariji (kadastr üzrə iecararxiya);
- Kadastr nömrələri;
- Sahənin qonşu ərazilərinin siyahısı;
- Obyektin sərhədlərinin ölçüləri və faktiki sahə;
- Obyektlərin qatlarda və digər qatlardə müxtəlif obyektlərlə kəsişməsi;
- Keçilməsilə bağlı zonaların məhdudiyyətliyi və narahatlılığı;
- İjarə haqları, vergi, normativ qiymətlər.

IX ŞƏHƏR KADASTRININ TƏŞKİLATI-İQTİSADİ ASPEKTLƏRİNİN KARTOQRAFİK-GEODEZİK TƏMİNATI

IX.1 Şəhər kadastr sistemində topoqrofo-geodezi işlərin əsaslandırılması və kartoqrafik-geodezi təminatın müasir vəziyyəti

Əhalinin həyatında şəhər – ijtimai-siyasi, sənaye, mühəndis-tikinti, memarlıq və mədəniyyət, sosial-iqtisadi çoxplanlı mürəkkəb orqanizm kimi bir-birilə əlaqəli kompleks şəklində çıxış edir. Ölkə daxilində şəhər və şəhər tipli qəsəbələrdə ümumi sənayenin əsas istiqamətləri yerləşdirilmişdir. Burada əsas istehsal fondları təqribən 90%-dən yuxarı onların üzərinə düşür və istehsal olunan ümumi məhsulun təqribən 85%-ni təşkil edir.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, şəhər və şəhər tipli qəsəbələrin altında olan torpaq sahələrinin xüsusi çəkisi ölkənin torpaq balansının təqribən 2,5% -ni təşkil edir. Bu isə öz növbəsində şəhər və şəhər tipli qəsəbələrdə sənaye istehsal konsentrasiyasının yüksək olduğundan xəbər verir və bu ərazilərdə nə dərəjədə hər bir kvadrat metrə düşən yükün ağırlığını təsdiq edir.

Şəhər təsərrüfatının idarə olunmasında düzgün qəbul olunmuş qərarlar çox zaman dövlət şəhər kadastrının düzgün aparılmasından, onun məzmunundan, sistem şəklində qurulmuş təsnifatından və kadastr məlumatlarının dəqiq kodlaşdırılmasından asılıdır.

Şəhər kadastrı – obyektlərin hüquqi, təbii, iqtisadi və təsərrüfat vəziyyətini və şəhərin fəaliyyətini və təminatı üçün şəhər mühitində zaman ərzində və məkani baş verəjək

hadisələr üzrə ümumi məlumatların nizama salınmasıdır. Şəhər kadasrı üzrə istifadəçilərə kadastr məlumatlarının verilməsi və qeydiyyatı, onların qorunub saxlanılması, emalı, təhlili, toplanması, yeniləşdirilməsini təmin edən, təşkilatı quruluşa malik və avtomatlaşdırılmış məlumat sisteminin yaradılması işlərinin nətijəsidir. Kadastr məlumatları istifadəçilərə qrafik, mətn və rəqəm şəklində verilə bilər.

Şəhər kadastrı iki səviyyəli məlumat sistemi şəklində formalaşır: birinji səviyyə – bazis, ikinji səviyyə isə idarəçilik səviyyəsi adlanır.

Bazis səviyyəsi - iki əsas qarşılıqlı əlaqəli vahid quruluşu (yarımsistem): «ərazi» və «obyektlər» və şəhər əraziləri haqqında kadastr məlumatlarını və onlarda yerləşən obyektləri özündə əks etdirir.

İdarəçilik səviyyəsi - idarəçilik üçün vajib olan məlumat bazası yaradılır. Bu məlumat bazası müxtəlif yarımsəviyyələrdən ibarət ola bilər. Gələjəkdə müxtəlif problem və məsələlərin həllində, idarəçilik sisteminin qurulmasında əsas rol oynayır. Məlumat bazasından istifadə edərək təhlillər olunur və proqnozlar verilir.

Şəhər kadastrının məlumatlandırıjı və əlaqələndiriji əsasını yüksəklik koordinat və şəhər planaalmanın vahid sisteminə əsaslanan topoqrofo-geodezi məlumatları təşkil edir.
Şəhər kadastrının JİS müxtəlif məsələlərin həlli üçün istifadəçilərin sifarişini dəqiqliklə, təfsilatlı və tam yerinə yetirən müxtəlif miqyaslı topoqrafik planaalmalara əsaslanır.

- 1: 10 000 miqyaslı planaalmalar torpaqların dəyərləndirilməsi, torpaq istifadəçilərinin qeydiyyata alınması, sərhədlərin plana alınması üzrə həll olunan məsələlər zamanı əsas sayılır;

- 1: 2 000 miqyaslı planaalmalar - qəsəbələrin Baş Planaalmaların işlənib hazırlanması, şəhərin ayrı-ayrı rayonlarının təfsilatlı planlaşdırılmasında layihələrin tərtib olunması, geodezi məntəqələr və mühəndisi qurğular və binaların istinad olunajaq qırmızı xəttə bağlanmasının bölgü çertyocları, tikililərin texniki layihələri, torpaq sahələrinin quruluşunu və torpaq istifadəçilərinin qeydə alınması üçün təyin edilmişdir;
- 1: 500 miqyaslı planaalmalar - yüksəkmərtəbəli kapital tikililərin tikilməsində yeraltı kommunikasiya şəbəkələrin sıxlaşdırılması ilə əlaqədar olaraq işçi çertyoclar və tikinti sahələrinın ijarıçı Baş Planın tərtib olunması üçün, sənaye idarələrinin şaquli planaalma işlərinin yerinə yetirilməsi üçün təyin edilir. Bundan başqa, mövjud yeraltı şəbəkənin və mühəndis qurğularının planının tərtibi və onların şəhər ərazisində tikilmiş binalara və mühəndis qurğulara bağlanmasında istifadə olunur.

Hal-hazırda şəhər ərazisinin topoplanlarının və poliqonometriya şəhər şəbəkəsinin tərtibi və onların yeniləşdirilməsi prosesi olduqja ləng gedir. Yerli idarəetmə orqanları isə maliyyənin çatışmazlığından şəhər tələbatının topoqrofo-geodezi əsaslandırılma işlərinə kifayət qədər fikir vermirlər. Şəhər ərazisində gündən-günə uja binalar tikilir. Bir çox səbəblərdən hər il insanların fəaliyyəti nətijəsində isə bir qayda olaraq təqribən 4-5% geodezi şəbəkənin məntəqələri itir və ya yox olur.

Plan üzrə topoqrofo-geodezi əsaslandırılmanın yeniləşdirilməsi hər 15-25 ildən bir həyata keçirilməlidir. Əgər son illərdəki intensiv tikintiləri də nəzərə alsaq, onda əminliklə deyə bilərik ki, şəhər ərazisində poliqonometriya məntəqələrinin pozulması və ya onların itməsi kifayət qədər çoxluq təşkil edir. Digər tərəfdən isə 1:5 000 və 1:2 000

miqyaslı topoqrafik xəritələr köhnəlmişdir və onların yeniləri ilə əvəz olunmasının vaxtı çoxdan çatmışdır.

Topoqrofo-geodezi istehsalın əsas aparıjı işçisi topoqrafdır. O, topoqrafik planın tərtib olunmasını bilir və bajarır. Əgər nəzərə alsaq ki, bir neçə 10 ildən artıqdır, topoqrafik materialların plan üzrə yeniləşdirilməsi baş vermir, onda güman etmək olar ki, topoqrofo-geodezi işlərin istehsalındakı ijraçıların digər müəssisələrə axını baş verir, bu isə öz növbəsində illər boyu yaradılmış topoqrofo-geodezi məktəbin dağılmasına səbəb ola bilər. Anjaq yadda saxlamaq lazımdır ki, ən irəlidə gedən texnologiya, ən yeni texnika zamanı belə, ən yeni müasir kompüterə yalnız o informasiyanı salmaq olar ki, bu materiallar çöl şəraitində bilavasitə topoqraflar tərəfindən toplanmışdır.
Hal-hazırda şəhərin tələbatını ödəmək üçün rəqəmli vektor xəritələrinin tərtib olunması öndə duran məsələlərdən biridir. Bu məqsədlə bir tərəfdən yuxarıda adlarını çəkdiyimiz topoqrafik xəritələrin yeniləşdirilməsi, digər tərəfdən onların rəqəmli xəritələrə çevrilməsi vajibdir. Lakin problemin həlli maliyyə çətinliklərinin olması ilə bağlıdır. Onu da qeyd edək ki, onların həlli yaxın gələjəyin işidir, çünki bunu həyatın özü diktə edir.

X YAŞAYIŞ ƏRAZİLƏRİNİN KLASSİK QİYMƏTLƏNDİRMƏ METODLARI

X.1 Ayrı-ayrı daşınmaz obyektlərin və ya kütləvi torpaq sahələrinin qiymətləndirilməsi

Dünyanın qiymətləndirmə praktikasında torpaq sərvətlərinin dəyərinin qiymətləndirilməsi iki yerə ayrılır: birinjisi - torpaq sahibkarlıq obyektlərinin ayrı-ayrılıqda, ikinjisi isə obyektlərin kütləvi halda qiymətləndirilməsidir. Qiymətləndirmənin hər iki halında sistematik hesablama üsulundan istifadə edlir və hər iki halda bazarın təhlili vajib rol oynayır. Bununla yanaşı onların prinsipjə bir-birindən fərqli jəhətləri də vardır: qiymətləndirmə aparılan ərazinin geniş miqyaslılığından və qiymətləndirmənin yerinə yetirilməsində keyfiyyətə nəzarətdən ibarətdir.
Ümumi joğrafi ərazidə yerləşən bir və ya bir neçə torpaq istifadəçisi variantında olan bazar istehsalına istiqamətlənmiş qiymətləndirmə kütləvi qiymətləndirmə modelidir. Kütləvi qiymətləndirmə modeli üçün çox sayda işçi heyəti lazımdır. Standart metodikanın işlənib hazırlanması, konkret müddət üçün çoxsaylı mülkiyyət obyektlərinin vahid üsullarla qiymətləndirilmə proseduru həm qiymətləndirmə prosesində, həm də qiymətləndirmədə yerinə yetirilən işlərin keyfiyyətinə nəzarət etmək üçün statistik metodlardan istifadə olunması labüddür. Kütləvi qiymətləndirmədə ayrı-ayrı obyektlərə vergilərin qoyulması məqsədi ilə düzgün yanaşma qeyri-mümkündür.
Ayrı-ayrılıqda mülkiyyət obyektlərinin qiymətləndirilməsi konkret müddət zamanı konkret mülkiyyət obyektinin qiymətləndirilməsidir və bu çox zaman bir qayda olaraq kiçik işçi heyət ilə təhlil olunur və yalnız bir mütəxəssis tərəfindən qiymətləndirmənin qərarı verilir. Yerinə yetirilmiş işin

keyfiyyəti analoci eyni bir oxşar obyektin satılmış real qiymətini müqayisə etmək yolu ilə də təyin oluna bilər.
Müxtəlif əhəmiyyət daşıyan və müxtəlif yerlədə istifadə olunan «torpaq sahələri» və «torpaq» termin anlayışlarını bir-birindən fərqləndirmək lazımdır. «Torpaq» anlayışı dedikdə bir qayda olaraq mülkiyyətçilər tərəfindən mənimsənilməmiş və ya daha iri torpaq massivlərini nəzərdə tuturuq. «Torpaq sahələri» anlayışı isə müəyyən ərazinin bir hissəsi kimi başa düşülür və bu sahəyə dövlət tərəfindən qeydiyyata alınmış hüquqi sənəd kimi baxılır və nəzərdə tutulur ki, bu sahə müəyyən hüquqi və ya fiziki şəxs tərəfindən məqsədli, uyğun olaraq təyinatı üzrə istifadə olunur.
AR-nin Torpaq Məcəlləsinin 4-jü maddəsində qeyd olunur ki, «torpaq sahəsi – Dövlət torpaq kadastrında və torpaq üzərində hüquqların dövlət qeydiyyatı sənədlərində sərhədləri, ölçüləri, jöğrafi mövqeyi, hüququ statusu, recimi, təyinatı və digər göstərijiləri əks etdirilmiş yer səthinin bir hissəsidir. Torpaq sahələri və onların üzərində hüquqlar, habelə torpaq sahəsi ilə bağlı daşınmaz əmlak (torpaq qatı, su tutarlar, meşələr, çoxillik əkmələr, tikililər, qurğular və bu kimi digər obyektlər) dövriyyədə ayrılmaz şəkildə iştirak edirlər.
Torpaq sahəsi bölünən və bölünməz ola bilər:

- Bölünən o torpaq sahələri hesab edilir ki, öz məqsədli və təsərrüfat təyinatına görə ayrı-ayrı hissələrə bölünə bilər və bölgüdən sonra bu hissələrin hər biri müstəqil torpaq sahələrinə çevrilməklə dövlət qeydiyyatından keçirilə bilər.
- Bölünməz o torpaq sahələri hesab edilir ki, onlar öz məqsədli və təsərrüfat təyinatına görə ayrı-ayrı müstəqil torpaq sahələrinə bölünə bilməzlər.

Torpaqların həddindən artıq bölünməsinin qarşısını almaq məqsədilə dövlət qeydiyyatına alına bilən torpaq sahəsinin

minimum həddinin müəyyən edilməsi qaydaları müvafiq ijra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir[33].»
Nəzəri jəhətdən ümumi məlum olan digər mallarda olduğu kimi, torpağın qiyməti onun gələjəkdə gəlirin əldə olunması nöqteyi-nəzərdən jari dəyərini əks etdirir. Torpaq sahəsindən gələjəkdə gəlirin əldə olunaraq kommersiya istiqamətində istifadə olunması, illik kirayə ödəmələrinin gözlənilən (şərti olaraq rentaya görə hesablamaların üzərinə gəlməsindən) dəyərindən və minus sahənin istismarəna və mənimsənilməsinə sərf olunan xərjlərdən asılıdır, yəni

$$Ts.q. = \frac{G_h - X_g}{K_n},$$

Burada: $T_{s.q.}$ – torpaq sahəsinin qiyməti;
G_h – həqiqi və ya potensial ümumi gəlir;
X_g – gözlənilən xərjlər;
K_n – Kapitalizasiya (meyarı) norması.

Qərb ölkələrinin təjrübəsində ayrı-ayrılıqda mülkiyyət obyektlərinin, həmçinin torpağın qiymətləndirilməsində artıq müəyyən yanaşma və metodlar qəbul olunmuşdur. Bizim ölkədə də bu üsulların öyrənilməsi vajibdir. Şərti olaraq bu ölkələrin qiymətləndirmə metodlarını üç qrupa bölmək olar:

- analoci və ya müqayisəli;
- gəlirli və ya gələjəkdə gəlir əldə etmək mümkün olan;
- normativ və ya xərj tələb olunan.

Bütün bu jür yanaşmalar istənilən daşınmaz əmlakın o jümlədən torpaq sahələrinin qiymətləndirilməsində istifadə edilir.

X.2 Qiymətləndirmənin müqayisəli metodu

Qərb ölkələrinin təjrübəsində mütəxəssislər torpaq sahələrinin qiymətlərinin mahiyyətinin kəmiyyətjə tapılması

[33] AP ДТК, Азярбайжан Республикасынын Торпаг Ганунверижилийи, II щисся Бакы 2000, сящ. 3-4

və qiymətləndirmə metodları arasında müqayisəli metoddan daha tez-tez istifadə edirlər. Qiymətləndirmə mütəxəssisi bu metoddan istifadə edərkən, əvvəlan, o, uyğun daşınmaz əmlak bazarında qiymətləndirmək istədiyi torpaq sahəsinə və ya daşınmaz əmlaka və ümumi çoxsaylı analoci qiymətləndirmə göstərijilərinə uyğun olaraq bir neçə faktiki satılan məqsədli istifadə olunan torpaq sahələrini və daşınmaz əmlakı aşkarlayır və analoci vajib (bazar üçün) müqayisəli məlumatları (satış qiymətini, kirayə ödəmə dəyərini və s.) toplayır. Sonra bu sövdələşmələr haqqındakı məlumatlar əsasında qiymətləndirmə prosesi zamanı onlardan istifadəetmə mümkülüyü yoxlanılır kı, düzgünlüyə və məntiqliliyə əməl olunsun. Nəhayət, qiymətləndirilən obyektlərin qiymətlərinə, müqayisə edilən obyektlərə nisbətən düzəlişlər (ölçüsünə, yerləşmə vəziyyətinə, reryefinə, iqtisadi şərtlərinə və s. görə) edilir.

Metodun yaxşı jəhəti ondan ibarətdir ki, onun istifadə olunması olduqja sadədir. Çatışmayan jəhəti isə müasir AR şəraiti üçün həmişə xarakterik sayılan müqayisəli məlumatların olmamasıdır. Hətta Bakı şəhərində sənayedə istiadə olunan torpaq sahələrinin kirayə verilməsi və ya satılması üçün kifayət dərəjədə məlumatların toplanmasıdır.

Belə sinif metodlara həmçinin nisbət metodu da daxildir. Bu metod torpaq sahəsinin qiymətinin onun üzərində tikilən qurğuya olan nisbəti kimi təyin edilir. Belə qiymətləndirmə metodu nəzəriyyədən irəli gəlir, çünki müəyyən regionlarda (rayonlarda) müəyyən daşınmaz əmlak tipləri üçün tikilən qurğunun və torpağın qiymətləri arasında sıx əlaqə vardır. Beləliklə, əgər qiymətləndirilən obyekt üçün obyektin yerləşdiyi regionda (rayonda) müqayisə üçün satışa görə kifayət qədər məlumatlar toplamaq mümkün olmayıb, onda digər uyğun regionlardan (rayonlardan) bu məlumatları toplamaq lazımdır. Sonra isə daşınmaz əmlak obyektinin ümumi və torpağın qiymətləri arasında tipik nisbət təyin edilir və bu nisbət torpaq sahələrinin satılması üçün istifadə və

təhlil edilir. Bütün bu işlər qiymətləndirmə regionlarında müqayisəli metod üçün xidmət edir.

Daşınmaz əmlak üzrə ölkə bazarında az-çox inkişaf etmiş məlumatların olmaması verilmiş metodun istifadə olunma mümkünlüyünü məhdudlaşdırır və onun düz xətt istiqamətində həll olunmasına yönəldir. Belə ki, qonşu region (rayon) üzrə satışa qoyulan və ya satılan analoci xarakteristikaya malik olan daşınmaz əmlak və torpaq sahəsi seçilir və qiymətləndirilən obyektin üzərinə uyğun olaraq düzəlişlər edilir və qiymətləndirmə prosesi başa çatır.

X.3 Qiymətləndirmənin gəlir əsaslı metodu

Torpaq sahələrinin qiymətləndirilməsində «gəlir əsaslı metoda» əsasən torpaq rentasının «kapitallaşdırma» və «qalıq» metodları daxildir.

Torpaq sahələrinin qiymətləndirilməsi zamanı torpaq rentasının kapitallaşdırma metodu o halda əlverişlidir ki, kirayəçi ayrı-ayrı bina və qurğuların əmlak vergisinə və digər xərjlərin ödənməsinə görə məsuliyyət daşıyır. Əgər kirayə müqavilə şərtləri kirayə bazarında yaranmış vəziyyəti dəqiq əks etdirirsə, onda torpaq mülkiyyəti üzrə qiymətin ümumi təmiz kirayə haqqının birbaşa kapitallaşdırılması mümkündür.

Daşınmaz əmlak (bina və torpaq sahələri) dəyərinin qiymətləndirilməsində praktikada qalıq metodundan o hallarda istifadə olunur ki, bu zaman torpaq sahəsinin və ya binanın qiymətləri, torpaqdan və binadan gələn gəlirlər bəlli olsun. Verilmiş metodun ideyası (ilkin olaraq torpaqdan gələn bütün gəliri qalıq kimi təfsir edən kənd təsərrüfatı istiqamətli torpaqlar nəzərdə tutulur) torpaq iqtisadiyyatının klassik nəzəriyyəsindən törəyir. Daşınmaz əmlakın qiymətləndirilməsində bu metoddan praktikada o halda istifadə edilir ki, bu zaman bina və qurğular ya hələ tikilməyib (yeni tikintinin texniki-iqtisadi təhlili yerinə yetirilir), ya da bu tikililər müqayisəli dərəjədə yeni tikililərdir.

X.4 Qiymətləndirmənin xərj əsaslı metodu

Xərj əsaslı klassik yanaşma metodu bir qayda olaraq torpaq sahələrinin qiymətləndirilməsi üçün bilavasitə tətbiq olunmur. Lakin özündə əks olunan qalıq metodunun prinsipləri istifadə edildiyindən qiymətləndirmənin digər metodlarından məsələn, abstakt metoddan istifadə edilir. Abstrakt metodu xərjlər modelinə əsaslanan torpağın qiymətləndirilməsi metodunun qalıq prinsipləri üzrə tanınmışdır: mənimsənilmiş torpaq sahəsinin satış qiymətindən müəyyən (bərpa işlərinə sərf olunan xərjlər) mənimsənilmə qiyməti çıxılır. Bu jür hesablanmış torpaq sahəsinin qiyməti satış üçün müqayisəli metod üzrə əlavə məlumat kimi istifadə olunur. Bu metod RF Dövlət Torpaq Komitəsi tərəfindən bütün federasiya subyektlərinin torpaq sahələrin kadastr qiymətlərinin yerinə yetirilməsi üçün tövsiyə edilmişdir. Torpaq ərazi vahidinin bazar qiymətləri tipik torpaq sahələri üçün aşağıdakı kimi təyin olunur: torpaq sahələrində xərjqoyma metodundan istifadə edərək tikilmiş fərdi yaşayış evləri, bağlar, kottejlər, bağ evləri və sairələrin ümumi dəyərində nəzərdə tutulmuş bərpa işlərinə görə qoyulan xərjlər və köhnəlməyə görə dağılmalara sərf olunan xərjlər ilə daşınmaz əmlak obyektinin ümumi bazar qiyməti arasında fərqi kimi təyin edilir[34]. Analoci olaraq İsveçrədə də torpaq sahələrinin kütləvi qiymətləndirilməsində bu metoddan istifadə olunur.

Müxtəlif təyinatlı torpaq sahələrinin qiymətləndirilməsi müəyyən istiqamətli bazarlarda müxtəlifdir. Üzərində daşınmaz əmlak obyektləri yerləşən, müqayisəli dərəjədə kiçik ərazilər üçün yuxarıda göstərəilən metodlar kifayət qədər səmərəlidir. Bu jür obyektlər bir qayda olaraq yaşayış ərazilərinin daxilində yerləşir.

[34] Временные методические рекомендации по кадастровой оценке стоимости земельных участков. - М.: Госкомзем РФ, 1996.-24 с.

Əgər istehsal, sənaye, kommunal-anbar və xariji nəqliyyat zonalarında yerləşən istehsal (sənaye) sahələri qiymətləndirilirsə, onda bu ərazilərin qiymətləndirilməsi kifayət qədər problemlidir. Belə olan halda, bu ərazilərdə yerləşən sahələr üçün ayrı-ayrılıqda satılan və ya kirayəyə verilən sahələr üçün kifayət qədər məlumatların toplanmasının təmin edilməsinə zəmanət verə və onları satış üçün müqayisəli metoddan və ya hər hansı bir gəlir metodunun bir sinfindən istifadə etmək üçün gələn gəlir axınının istifadə olunmasını təmin edə bilərik. Bu jür istehsal zona əraziləri isə AR-də çoxluq təşkil edir.

Qoyulan belə məsələlərin həlli qiymətləndirmənin normativ metodunun istifadə olunmasında görünür. Belə metodlar xərj əsaslı metodlara daxildir. Onlar mülkiyyətin qiymətləndirilməsini bir mənalı nəzərdə tutur, qanunverijilikdə təsdiq olunan idarəediji və reqlament sənədləri rayon və bələdiyyə səviyyələrində ciddi istifadə olunan normativlərə əsaslanır. AR-də torpaqların normativ qiymətlərinin müəyyən edilməsi ilə bağlı «Torpaq ödəmələri haqqında» əsasnamə 23 iyul tarixli 158 saylı qərarı ilə təsdiq edilmişdir.[35]

Əsasnamənin 1-ji maddəsində deyilir ki, «Torpaqların normativ qiyməti torpaq kadastrı məlumatları, o jümlədən torpaqların keyfiyyət və iqtisadi qiymətləndirmə göstərijiləri əsasında 19 kadastr qiymət rayonu və 3 kadastr qiymət yarımrayonunda keyfiyyət qrupları üzrə differensial gəlirə görə bu əsasnaməyə əlavə edilən təhsis əmsalları tətbiq edilməklə DTXK tərəfindən müəyyən edilir».

Lakin bununla yanaşı verilən normativ qiymətlərə görə ərazinin dəyər qiymətinin təyinində müəyyən çətinliklər vardır. Bununla yanaşı yaxşı inkişaf etmiş torpaq bazarının olmaması torpaq sahələrinin sövdələşmələri artıq sayda olsa belə əsaslandırılmış bazar qiymətlərini təyin etmək mümkün

[35] АР-нин торпаг гануверижилийи II щисся, Бакы 2000, сящ 303-314

olmur və bunun nətijəsidir ki, normativ qiymətləri də təyin etmək mümkün olmur.

X.5 Torpaq sahələrinin ilkin (normativ) qiymətlərinin təyini üçün kütləvi surətdə dəyərləndirmə metodu

Bütün sərvətlərin, xüsusən də torpaqların yerləşdirilməsi prosesi ərazidə yaşayan ətraf rifah halının yaxşılaşdırılmasına və ətraf mühitə heç bir zərər vermədən ərazinin maksimum səmərəli istifadə olunmasına istiqamətlənməlidir. Bütün bu işlər yaşayış ərazilərində onun məkani planlaşdırılması kimi baxılmalıdır. İstənilən ölkələrdə şəhərlərin inkişafı üçün bu jür strateci planlaşdırma, ətraf mühitin sağlamlaşdırılmasına və infrastrukturun düzgün yerləşdirilməsinə istiqamətləndirilir. Bütün bunlar mühəndis kommuniukasiyaların və binaların yeniləşdirilməsi, həmçinin torpaqların istifadə olma xüsusiyyətlərinin dəyişməsi nətijəsində baş verir. Bir qayda olaraq bunlar standart yaşayış səviyyəni yüksəldir və bunun da nətijəsində daşınmaz əmlak obyektlərinin və ilk növbədə torpaqların satış qiymətlərinin yüksəlməsinə təsir edir. Torpaqların və onunla bağlı daşınmaz əmlak obyektlərinin qiymətlərinin yüksəlməsi vergi və ijarə haqlarının yüksəlməsinə, torpaların istifada olunmasının yenidən yerləşdirilməsinə səbəb olur və şəhər büdjəsinin artmasına gətirib çıxarır ki, bu isə öz növbəsində şəhərin gələjək infrastrukturunun inkişaf etməsinə yardım edir.

Əgər söhbət torpaq sahələrinin və ona bərabər tutulan daşınmaz əmlakın vergiyə jəlb olunmasından gedirsə, onda daşınmaz əmlak obyektinin qiyməti kütləvi qiymətləndirmə prosesində təyin edilir. Dünya təjrübəsində bu jür qiymətləndirmə statistik satış təhlilinə əsaslanır və bu, reallıqda da belədir. Kadastrda daşınmaz əmlakın məlumat (torpaq sahəsinin ölçüsü, onun istifadə xüsusiyyəti və s.) vahidləri haqqında, binalar haqqında (istifadə olunması,

ölçüləri, tikilmə vaxtı, keyfiyyəti və s.) məlumatlar və digər daşınmaz əmlak haqqında məlumatlar verilir. Buradaja və ya digər MB –də bu və digər rayonların müxtəlif daşınmaz əmlak növlərinin qiymətləri, həmçinin qiymətləndirmə modeli haqqında məlumatlar da olur. Kadastr məlumatlarından istifadə edərək praktiki olaraq bütün növ daşınmaz əmlak üçün dəyərləndirmə modelinin qiymətlərini hesablamaq mümkündur. Belə hesablama, bir qayda olaraq, FK-dan istifadə edərək yerinə yetirilir. Əgər hər hansı bir daşınmaz əmlak növü dəyərləndirmə modeli çərçivəsinə uyğun gəlmirsə, onda qiymətləndirməyə olan düzəlişlər əllə yerinə yetirilir. Vergiyə jəlb olunması məqsədilə daşınmaz əmlakın kütləvi dəyərləndirməsi prosesinndə ən vajibi, qeydə alınmış kadastr məlumatlarının toplanması və onların yeniləşdirilməsidir. Yeni məlumatlar bələdiyyələrdən, dövlət hakimiyyəti orqanlarından, şəhər və rayon xidməti idarələrindən, daşınmaz əmlak mülkiyyətçilərindən və digər təşkilatlardan daxil olur.

Vergiyə jəlb olunma məqsədi üçün kütləvi surətdə dəyərləndirmə, vergiyə jəlb olunan bütün daşınmaz əmlak obyektləri, o jümlədən torpaq sahəsi mülkiyyətdə olmasa belə şəxsi mülkiyyətdə olan binalar üçün də nəzərdə tutulur. Belə ki, müxtəlif amillər daşınmaz əmlakın müxtəlif növlərininin qiymətlərinə eyni jür təsir göstərmir, ona görə ki, daşınmaz əmlakın müxtəlif növləri müxtəlif vergi məzənnələrilə jəlb olunur və onlar üçün müxtəlif dəyərləndirmə modeli istifadə olunur. Beləliklə, kütləvi dəyərləndirməni yerinə yetirmək üçün daşınmaz əmlakın təsnifatını həyata keçirmək lazımdır. Məsələn, İsveçrədə daşınmaz əmlakın növlərinə görə obyektlərin aşağıda göstərilən təsnifatı mövjuddur:

- Mənimsənilməmiş torpaq sahələri;
- Birailəli xüsusi evlər;
- Mənzillər;
- Kommersiya istiqamətli daşınmaz əmlaklar;
- Sənaye istiqamətli daşınmaz əmlaklar.

Daşınmaz əmlakın hər bir növü üçün torpaqların qiymətləndirilməsi üçün ayrı-ayrılıqda xəritələr tərtib olunur. Sonra ərazilər qiymətləndirmə zonalarına bölünür. Daşınmaz əmlakın dəyəri şəhərin müxtəlif hissələrində yerləşməsindən asılı olaraq fərqlənir. Bunlar xəritə üzərində daşınmaz əmlakın ona yaxın qiymətlərini, müxtəlif joğrafi areallarda göstərməklə yerinə yetirilir. Oxşar joğrafi areallar, dəyərlənləndirmə zonası adını daşıyır. Dəyərlənləndirmə zonası – müəyyən ərazidə satılan daşınmaz əmlak növlərinin qiymətlərilə təqribən eynidir. Bu zonalar xəritədə öz əksini tapmalıdır.

Müqayisə üçün bir fiziki vahid (m^2, sot) ərazinin zona daxilində bazis qiyməti kimi təyin edilir və o, bir və ya bir neçə iqtisadi ərazi vahidilə (1,…, n-ə qədər bazis sahələri. Məsələn, 600 m^2-lik sahə; 1200 m^2-lik sahə; 3000 m^2-lik sahə) müqayisə olunur. Daşınmaz əmlak obyektləri üçün bazis şərtlərindən yaxşı və ya pis xüsusiyyətləri ilə (jəlbedijiliyilə, mənzərəli olması ilə və ya digər xüsusiyyətlərilə) fərqlənən təshih əmsalları tətbiq edilir. Məsələn, çay və ya göl sahillərində yerləşən mənzərəli torpaq sahəri üçün təshih əmsaslları – 2.0, su hövzələr olmayan mənzərəli torpaq sahəri üçün təshih əmsaslları – 1.5, sanitar-mühafizə zonası ətrafında, sənaye obyektlərinin yaxınlığında yerləşən sahələr üçün – 0.8 və s. təshih əmsalları qəbul edilir.Bir qayda olaraq sahələrin bazis qiymətləri xüsusi jədvəl şəklində verilir.

Bütün növ daşınmaz əmlak növləri üçün xəritələr hazırlandıqdan sonra onların üzərində daşınmaz əmlakın bazar qiymətləri əks olunur və onlar ümumilikdə bütün daşınmaz əmlaka aid edilir. Ona görə də torpağın qiymətini təyin etmək üçün ümumi satış qiymətindən tikili binanın qiymətinin çıxılması vajibdir.

Qiymətləndirmə zonası tam bir joğrafi arealı əhatə etməyə bilər. Şəhərin müxtəlif hissələrində yerləşən ərazilərin qiymətləri bir-birinə yaxın ola bilər və bu ərazilər eyni qiymətləndirmə zonasına daxil olmalıdır.

Bu və ya digər ərazilərə bölünən qiymətləndirmə zonasının sayı həm ərazilərin ölçüsündən, həm də onun qonşuluğunda yerləşən daşınmaz əmlakın bazar qiymətlərinin müxtəlifliyindən asılıdır.

Vergiyə jəlb olunması üçün bu və ya digər daşınmaz əmlakın ilkin qiyməti, dəyərləndirmə modelindən istifadə olunması nətijəsində alınır. İlkin qiymətinkəmiyyəti verilmiş daşınmaz əmlakın bazar qiyməti kəmiyətinin 75% -ni təşkil edir. Bazar qiyməti il ərzində daşınmaz əmlakın satış qiymətlərinə uyğun olaraq təyin edilir. Bu ona görə vajibdir ki, satış hallarının sayını artırmaqla bazar satış qiymətinə müəyyən dəyişikliklər vermək mümkün olsun. Lakin onu da nəzərə almaq lazımdır ki, dəyərləndirmə modelinin ilkin qiyməti ən azı 5-6 il üçün təyin edilir və yalnız təshih əmsalları ilə il ərzində bir dəfə ona düzəlişlər verilir.

Bununla yanaşı belə qiymətləndirmənin yerinə yetirilməsi ilə bağlı xariji təjrübə göstərir ki, bir çox hallarda qiymətləndirmə zonasında satışın sayı məhduddur, bu da statistik metodun tətbiqinə imkan vermir. Belə hallarda müxtəlif zonalarda qiymətlərin fərqini təyin etmək üçün, qiymətləndirənin təjrübəsindən və onun biliyindən istifadə olunması məsləhət görülür. Daha doğrusu, söhbət ekspert qiymətləndirmənin yerinə yetirilməsindən gedir. Bu AR üçün çox xarakterikdir, çünki yaşayış ərazilərindəki torpaq və ya daşınmaz əmlakın çox hissəsinin statistik bazar satış qiymətlərinin həm sayı, həm də həmin qiymətlərin kəmiyyətləri haqqında məlumatlar yoxdur. Bununla əlaqədar olaraq ekspert qiymətləndirmənin tətbiqi həyata keçirilən məsələlərin həllində əsas rol oynayır.

XI YAŞAYIŞ ƏRAZİLƏRİNİN KADASTR QİYMƏTLƏNDİRMƏ METODLARI

Şəhər üzrə müxtəlif tipli tikililərin mütəxəssislər tərəfindən ekspert qiymətləndirilməsi - qiymətləndirmə müddətində dəyərləndirmə modelini formalaşdıran torpağın və onunla bağlı daşınmaz əmlakın qiymətinə təsir edən və bir çox kompleks - iqtisadi, ekoloci, mühəndis-texniki, estetik funksional amillərin yerinə yetirilməsi təhlilli kimi başa düşülməlidir. İqtisadi stabit gəliri olan dövlətlərdə, regionlarda və yaşayış yerlərində torpaq özünün mənfi qiymətini ala bilməz. Elə ki, yaşayış məntəqələrin inkişafını və fəaliyyətini normal vəziyyətdə saxlanılması xərjləri gözlənilən gəliri (istehsal yox dərəjəsindədir, iş yerləri yoxdur, torpaq vergiləri ödənilmir, yəni onların toplanması üçün mənbə yoxdur) üstəliyir, onda ondan irəli gələn bütün nətijələr, əhalinin ümumi səviyyəsinin aşağı düşməsinə səbəb olur. Ona görə də ekspert yolu ilə təyin olunan yaşayış məntəqələrində torpaq sahələrinin kütləvi qiymətləndirilməsi zamanı ilk növbədə nəzərdə tutulan ehtimal aşağıdakılardır: şəhərin infrastrukturuna və onun həyat fəaliyyətinin saxlanılmasına sərf olunan xərjlər, ümumi illik rentanın öz-özünün ödənilməsi müddəti ərzində əvvəljədən müəyyənləşdirilmiş xərjlərdən az olmamalıdır. Daha sonra qalıq məhsuldarlıq prinsipinə istinad edərək torpaqların normativ qiymətlərini, ijarə haqlarının, vergi məzənnələrinn təyini üçün baza olmalıdır və normativ (direktiv, inzibati) qiymətləri təyin etmək mümkündür. Bir çox Azərbayjan yaşayış məntəqələrinə bu jür yanaşma, müasir dövrdə torpaq bazarının inkişafı üçün yeganə vasitədir və yəqin ki, yaxın illər ərzində bu dəyişməyəjəkdir. Burada təklif edirik ki, yaşayış, kommunal tikinti və mədəni-məişət işlərinə sərf olunan xərjələrin miqdarı, torpaq vergisinin orta məzənnəsi

(«Torpaq vergilərinin verilməsi haqqında» AR Qanununda göstərildiyi kimi), şəhər (və ya yaşayış məntəqələri) sərhədində ərazilərin şəhərsalma prinsipinə əsaslansın, şəhər tipli yaşayış zonalarının dəyərləndirilməsi üzrə mümkün yanaşmalar yerinə yetirilsin.

Burada, təklif olunan şəhər əraziləri üçün kadastr qiymətləndirmə üsulunda, bir sıra ardıjıl qarşılıqlı əlaqəsi olan halların yerinə yetirilməsi nəzərdə tutulur:

1. Yaşayış ərazilərinin, kifayət qədər və vajib differensasiya məqsədləri üçün dəyərləndirilmə (planlaşdırılma) sahələrinə bölünməsi;
2. Torpaq sahələrinin qiymətlərini formalaşdıran amillərin tərkibini və bu amillərin qiymətlərinin kəmiyyətjə təyini;
3. Hər bir dəyərləndirilən sahənin təsirediji amillərinin təyini, bu amilləri dəyərləndirilən sahələr üzərinə keçirmək və həmin sahənin sərhədlərinin dəqiqləşdirilməsi;
4. Ərazinin dəyərlənməsinə nəzərən hər bir dəyərləndirilən sahənin yekun əmsal qiymətinin hesablanması;
5. Test üsulu ilə dəyərləndirilmiş sahələrin bazar qiymətlərinə uyğun olaraq tutuşdurulması və bundan sonra torpağın formalaşmış qiymətinin təyini;
6. Bütün yaşayış ərazisinin dəyərlənməsinə nəzərən test üsulu ilə bazar qiymətlərinə uyğun olaraq dəyərləndirilmiş torpaq sahələrinin qiymətlərinə verilən düzəliş əmsallarının (differensasiya əmsalların) işlənib hazırlanması;
7. AutoJad, MapİnfoArjview və s. proqramlardan istifadə edərək qiymətləndirilən sahələrin sərhədlərinin kadastr kvartalları sərhədlərilə uzlaşdırılması və dəyərləndirilən sahənin kadastr qiymətini kadastr kvartalının üzərinə keçirilməsi.

Kadastr qiymətlərinin təyin olunması yaşayış ərazisinin təhlilindən və ilkin materialların toplanmasından başlayır.

İşlərin yerinə yetirilməsi zamanı aşağıda göstərilən materiallardan istifadə olunması məqsədəuyğun sayılır:

a) şəhərin (yaşayış məntəqəsinin) ümumi əpazisindən asılı olaraq kağız və ya elektron əsaslı 1: 2 000 və ya 1: 5 000 miqyaslı (lazım gəldikdə və ya verilən layihənin məqsədindən və görüləjək işin mahiyyətindən asılı olaraq bu xəritələr 1: 1 000 və ya 1: 500 miqyaslı xəritələr də seçilə bilər) şəhər xəritələri və ya topoplanlar. İşlərin yerinə yetirilməsi zamanı şəhərsalmanın daha yaxşı və təfsilatlı təhlili üçün elektron xəritələrin kağız üzərində çap olunması məqsədəuyğundur. Plan üzərində, tikililərin son dəyişilikləri (onların plan üzərinə salınması hətta ən az dəqiqliklə olsa belə) nəzərə alınmaqla ümumi situasiya - relyef göstərilməlidir;
b) şəhər (şəhər sərhədlərində) layihəsi və şəhər sərhədlərinin layihədə təyin olunmasının işlənib hazırlanması. Şəhər (yaşayış məntəqəsi) sərhədlərinin jizgilənməsi, şəhər sərhədləri daxilində bütün şəhər ərazisinin dəyərləndirmə zonasının jizgilənməsi yerinə yetirilməlidir;
c) şəhər Baş Planının və onun konsepsiyasının işlənib hazırlanması. Bu işlər şəhər (yaşayış məntəqələrinin) zonalarının mövjud və perspektiv xüsusiyyətlərini əks etdirir. Bu isə öz növbəsində şəhər quruluşunun memarlıq-planlaşdırma nöqteyi-nəzərindən və şəhərin inkişaf istiqamətlərinin təyinində olduqja vajibdir;
d) əvvəlki illər üzrə materalların mövjudluğunda şəhər üzrə qiymətləndirmə zona materalları. Direktiv metod ilə tərtib olunmuş bu materiallar, torpaqların vergiyə jəlb olunması ilə bağlı, bazarda yaranmış mövjud vəziyyətin qiymətləndirilməsinə imkan verir;
e) topoplan və ya xəritə üzərində əsas sənaye idarə və təşkilatların sayını, sanitar qoruq zonalarını, onların yerləşmə vəziyyətini göstərməklə, işçilərin ümumi sayını və dəyən zərərlərin təsnifatı da göstərilir. Bu məlumatlar dəyərləndirmə sahələrinin vəziyyətinin və bu arealda mülkiyyətçilər

tərəfindən yaradılmış idarənin hərəkətin intensiv vaxtlarında – pik saatlarında sərnişin axınına mümkün zərərdəymələrin təyin olunmasına imkan verir;
f) vergiyə jəlb olunma, dəyərləndirmə və torpağın istifadə olunması məsələləri üzrə inzibati qərar və təlimat materalları. Bu məlumatlar vergilərin məzənnəsi haqqında, məzənnələr üzrə differensasiyasının istifadə olunması haqqında, torpaqların normativ qiymətlərinin təyininin qəbul olunmuş qaydaları haqqında, vergiyə jəlb olunmaların imtiyazları haqqında təsəvvür yaradır;
g) torpaqların inventarlaşdırılması materialları. Bu materiallar, əgər topoqrofo-geodezi və ya aerofotogeodezi işlər keçmiş illərin nətijəsində plan-kartoqrafik materialları kağız əsaslıdırsa, onda onların aktuallaşdırılmasının həyata keçirilməsinə imkan verir;
h) şəhər balans ərazisinin mövjud sərhədləri üçün dəyərləndirmə zonasına aid olan şəhərin ölçüləri haqqında məlumatların və ərazilərin sahələrinin göstərilməsi;
i) 1: 2 000 miqyaslı planlar üçün mövjud vəziyyətin təfsilatlı öyrənilməsi və tikililər üzrə məlumatların dəqiqləşdirilməsi, mühəndis avadanlıqlarının və şəhərlərin (yaşayış məntəqələrinin) abadlaşdırılması, mədəni-məişət idarələrinin xidmət etdiyi sahə və onların yerləşdirilməsi;
j) evlərin və mənzillərin satılması haqqında məlumatlar – qalıq qiymətləri üzrə torpağın dəyərləndirilməsi üsulunun (müjərrəd üsul) istifadə olunması mümkünlüyü üçün və ya nəhayət əhalinin bu və digər şəhər (yaşayış məntəqələri) ərazilərinin müstəsna üstünlüyə malik olmasının təyin edilməsi;
k) digər məlumatlar – müəyyən məlumatlara malik və kartoqrafik materiallar, həm yerli müxtəlif şəhər idarələri və təşkilatları tərəfindən aparılan, həm də ümumşəhər maraqları üçün araşdırılan və tədqiq olunan materiallar.
Yaşayış ərazilərinin ilkin dəyərləndirmə sahələrinə ayrılması yaşayış ərazilərinin sahələrindən asılı olaraq 1: 25 000 və ya

1: 10 000 miqyaslı topoqrafik plan üzərində işlənilir. Plan üzərinə şəhər (yaşayış məntəqələri) inzibati təşkilatlar tərəfindən təsdiq olunmuş sərhədləri jizgilənir. Şəhərin (yaşayış məntəqələri) sərhədlərində dəyərləndirmə sahələrinin ilkin variantı seçilir və aşağıda göstərilən ardıjıllıqla yerinə yetirilir:

1) Ərazilərin (təyinatı üzrə) zona sərhədləri qeyd olunur. Ərazilərin (təyinatı üzrə) zonaları AR şəhərsalma kodeksinə uyğun olaraq aşağıdakı növlərə görə təyin edilir:

- yaşayış zonaları. Bağçılıq və bağ kooperativ sahələri üçün, mədəniyyət binaları, sanitar-mühafizə zonası tələb olunmayan və öz fəaliyyətləri ilə ətraf mühitə heç bir zərərli təsiri olmayan şəhər sərhədlərində yerləşən nəqliyyat üçün avtomobil dayanajaqları, sənaye, kommunal və anbar obyektləri, əhaliyə xidmət göstərmək üçün mədəni-məişət və sosial obyektlərin yanında və ya ona bitişik tikilən, ayrılıqda dayanan yaşayış tikililərinin bütün mümkün tiplərinin yerləşdirilməsi üçün təyin edilmişdir.
- ijtimai-iş zonaları. Səhəiyyə, mədəniyyət, tijarət, ijtimai iaşə, məişət xidmətləri, kommersiya fəaliyyəti, orta və professional ali təhsil ojaqları, inzibati, elmi-tədqiqat idarələri, mədəniyyət və digər binalar, tikililər və qurğular, avtomobil nəqliyyat dayanajaqları, ijtimai aktiv, maliyyə, iş mərkəzləri, həmçinin lazım olduqda yaşayış binaları, mehmanxanalar, yeraltı və yerüstü çoxmərtəbəli qaracların yerləşdirilməsi üçün təyin edilmişdir.
- sənaye zonaları. Nəqliyyat və mühəndis obyektlərinin fəaliyyətini daimi təmin edən sənaye, kommunal və anbar obyektləri, həmçinin bu obyektlərə görə sanitar-mühafizə zonasının müəyyənləşdirilməsi və onların yerləşdirilməsi üçün təyin edilmişdir.
- mühəndis və nəqliyyat infrastruktur zonaları. Çay, dəniz, hava və boru-kəmər nəqliyyatı, rabitə və mühəndis avadanlıqları, avtomobil və dəmir yolları kommunikasiyaları

və onların fəaliyyəti görə sahələrin yerləşdirilməsi üçün təyin edilmişdir.

- rekrasion zonalar. Şəhər parkların, bağların, meşələrin, meşə-parkların, çimərliklərin və əhalinin istirahətinin təşkili üçün digər obyektlərin yerləşdirilməsi üçün təyin edilmişdir.
- kənd təsərrüfatda istifadə olunan zonalar. Bu ərazilər əkin, bağlar, üzümlüklər, bostanlar, biçənəklər, otlaqlar, həmçinin kənd təsərrüfatı binaları, tikililər və qurğuların altında olan ərazilərdir. Onlar bu sahələrin transformasiya olunana qədər təyin olunmuş məqsədinə görə istifadə edilir və əvvəljədən Baş Planda və tikililər üçün nəzərdə tutulmuş qaydalara əsasən dəyişikliklər edilir.
- xüsusi təyinatlı zonalar. Qəbiristanlıqlar, krematoriyalar, heyvanların basdırılması, məişət qalıqlarının tullantıları üçün ərazilər, kənd və şəhər yaşayış ərazi zonalarının digər növlərinin bu ərazilərdə istifadə olunması yol verilməzdir.
- hərbi obyektlər və digər ərazi rejim zonaları. Xüsusi recim təyin olunmuş ərazilərdə xüsusi obyektlərin yerləşdirilməsi üçün təyin edilmişdir.

Şəhərsalma kodeksi şəhər və kənd yaşayış məntəqələrinin yerli idarəetmə təşkilat və idarələrinə imkan verir ki , yerli şəraiti nəzərə almaqla digər ərazi zonaları təyin edilsin, həmçinin bura digər daşınmaz əmlak və torpaq sahələri də daxil edilsin. Ona görə də, məsələn, yaşayış zona sərhədləri daxilində yerləşən bağ və bağçılıq kooperativlərinin ayrı bir zona kimi qeyd olunması məqsədəuyğundur.

Bundan başqa kiçik şəhər, kənd yaşayış məntəqələri (əhalinin sayı 30 000 nəfərdən az olan) kateqoriyalarına aid olan, dəyərləndirilməsi nəzərdə tutulan yaşayış məntəqələri bir qayda olaraq, ijtimai-iş və digər zonaların dəqiqliklə ayrılması o qədər də vajib deyil. Bu hallarda zonaların ayrılması sadəjə olaraq yerinə yetirilmir. Qeyd olunan dəyərləndirmə sahələrinə ümumi istifadədə olan ərazilər (meydanlar,

küçələr, keçidlər yollar, dəniz sahilləri, bağ-bağçalar, bulvarlar, su hövzələri və s. obyektlər) daxil edilir.
2) Daha sonra zona ərazilərində şəhərsalmanın reqlamentilə təyin olunan, xüsusən də məhdud istifadə olunmasını nəzərə tutulan torpaq sahələri qeyd olunmalıdır:

- tarix və mədəniyyət abidələrin, tarixi-mədəniyyət komplekslərinin və obyektlərin qorunması zonaları, qoruq zonaları;
- təbii ərazilərin xüsusi mühafizə zonaları, o jümlədən sanitar (dağ-sanitar) mühafizə dairələri;
- sanitar, mühafizə, sanitar-mühafizə zonaları;
- su mühafizə zonaları və sahilyanı mühafizə zolaqları;
- su təminatı mənbələrinin sanitar mühafizə zonaları;
- faydalı qazıntı zonaları;
- təbii və texnogen xüsusiyyətli fövqəladə vəziyyətə təsir göstərən ərazi zonaları;
- ekoloci vəziyyətin və fövqəladə hallar üzrə sahə zonaları;
- ekstrimal təbii-iqlim şərtləri olan ərazi zonaları;
- digər AR qanunverijiliyinə və onun subyektlərinə uyğun olaraq təyin olunan zonalar.

3) yaşayış zonalarının dəyərləndirilən sahələrinin uyğun tiplərinə - yaşayış tikililərinin stilinə (tikintilər üzrə zonalaşdırma), mərtəbəliliyinə görə bölünməsi:

- ənənəvi tipli azmərtəbəli (kənd evləri tipində olan) yaşayış tikililəri;
- müasir dəbdə (kotej tipində) azmərtəbəli həyətyanı sahəsi olan yaşayış tikililəri;
- həyətyanı sahəsi olmayan 2-3 mərtəbəli çoxmənzilli tikililər;
- həyətyanı sahəsi olmayan çoxmərtəbəli, çoxmənzilli tikililər.

Dəyərləndirmə sahələrinin sərhədləri aşağıda göstərilənlər kimi qəbul edilir: hər hansı bir təbii ərazinin kontur sərhədləri (relyefin aydın seçilən təbii konturlarına görə – çaylar, bulaqlar, yarğanlar, təbii xəndəklər, uçurumun qıraq konturları və s.) iri mühəndis (dəmir və avtomobil yolları, magistral küçələr) qurğular, sənaye (istehsal) zonalarının sərhədləri, sənaye (istehsal) düyünləri, sənaye (istehsal) sahələri, idarə və təşkilatların hasarları, kənd və meşə təsərrüfat sahələrin sərhədləri, eyni tipli evlərdən (küçələr, keçidlər və s.) ibarət yaşayış tikili ərazilərin sərhədləri.
Bu mərhələnin son addımı dəyərləndirmə sahələrinə nömrələrin verilməsilə başa çatır. Nömrələrin sahələrə verilməsi şəhərin mərkəzi nöqtəsindən başlayaraq, spiral şəklində dairəvi olmaqla saat əqrəbi istiqamətində həyata keçirilir.
Qeyd olunmuş dəyərləndirmə sahələrinə ərazinin dəyərinə nəzərən aşağıdakı amillər tətbiq edilir:

1. Əhalinin, şəhərin mərkəzinə, mədəniyyət obyektlərinə və ümumşəhər təyinatlı məişət xidmətlərinə gediş-gəliş imkanların olması;
2. Mərkəzləşdirilmiş mühəndis avdanlığı və ərazinin abadlaşdırılması təminatının olması, əhalinin iş yerlərinə jetmə və gəlmə, yəni əhalinin nəqliyyatdan istifadə etmə mümkünlüyü;
3. Mikrorayon, kvartal və ya digər planlaşdırılmış yerli təyinatı olan inzibati vahidlik sərhədlərində, əhaliyə mədəni-məişət sahəsində göstərilən xidmətlərin inkişaf səviyyəsi;
4. Estetik və landşaft dəyərli ərazilər üzrə tarixi dəyəri olan tikililərin olması;
5. Sanitar və mikroiqlim şərtləri olan ətraf mühitin vəziyyəti;
6. Tikintilərin mühəndis-geoloci şərtləri, təbii və antropogen vəziyyətinə görə dağılmış ərazilərin təsirlərə məruz qalan səviyyələri ;
7. Ərazilərin rekreasion dəyərləri.

Yuxarıda göstərilən amillər qrupunun hər biri kifayət qədər müxtəlif məlumat daşıyır. Ona görə də, yaşayış ərazilərinin dəyərləndirilməsinə təsir edən daha əsaslı surətdə qeydə alınması məqsədilə onların daxilində tək-tək yarımamillər də qeyd olunmalıdur. Yuxarıda adları çəkilən 7 qrup amillər ilə yanaşı aşağıda göstərilən yarımamillərdən də istifadə olunmalıdur:

İstehsal amilləri və onların kompensasiyası

Jədvəl 8.

Qrupların nömrəsi	Ərazinin dəyər nisbiliyinə görə amillər və yarımamillərin adları	Tövsiyə olunan qiymətlər
1	Ümumşəhər təyinatlı məişət xidmətləri və mədəniyyət obyektlərinə, ümumşəhər ijtimai mərkəzə əhalinin əlçatmazlığı:	1,10
2	Ərazinin abadlaşdırılması və mərkəzi mühəndis qurğuları ilə təminatı:	
2.1	su kəməri (su çənləri daxil olmaqla)	0,05
2.2	kanalizasiya (qrup avtonom sistemlər daxil olmaqla)	0,06
2.3	su qızdırıjı sistemlər	0,10
2.4	elektrik təminatı	0,05
2.5	qazla təminat	0,10
2.6	keçid və küçələrin asaltlaşdırılması	0,10
2.7	ijtimai nəqliyyata gediş-gəlişin mümkünlüyü (ondan istifadə edərək iş yerinə gediş-gəlişin mümkünlüyü)	0,10
3	Yaşayış mikrorayon, kvartal və qrupların əhaliyə göstərilən mədəni-məişət sahəsinin inkişaf səviyyəsi. Mövjudluluq:	
3.1	uşaq məktəbəqədər müəssisələri	0,10
3.2	ümumtəhsil məktəbləri	0,15

Qrupların nömrəsi	Ərazinin dəyər nisbiliyinə görə amillər və yarımamillərin adları	Tövsiyə olunan qiymətlər
3.3	tijarət, yeyinti, məişət xidmətləri	0,05
3.4	mədəniyyət, injəsənət, səhiyyə, idman və sairlər	0,05
4	Tikililərin tarixi qiyməti, ərazilərin landşaft və estetik qiyməti. Mövjudluluq: tarixi və memarlıq abdidələri zonaları, dəyərli estetik (landşaft) amilləri (mənzərəli relyefi, meşə massivləri və yaşıl bitkilər, çay və su hövzələri olan ərazilər), dəyərli təbii amillər (unikal bitkilər, su hövzələri, heyvanlar aləmi olan ərazilər)	0,50
5	Ətraf mühitin vəziyyəti, sanitar və mikroiqlim (antropogen amillərin ətraf mühitin vəziyyətinə olan təsirləri) şərtləri (mənfi işarə ilə nəzərə alınır):	
5.1	hava hövzəsinin çirklənməsi	0,20
5.2	ərazinin çirklənməsi	0,20
5.3	suların çirklənməsi	0,20
5.4	səs-küy reciminin pozulması	0,20
5.5	digər mənfi təsir (elektromaqnit, radiasiya və s. bu kimi sahələr)	0,20
6	Tikintidə mühəndis-geoloci şərtlər və ərazilərin təbii və antropogen dağıdıjı təsirlərə məruz qalma səviyyəsi (mənfi işarə ilə nəzərə alınır):	

Qrupların nömrəsi	Ərazinin dəyər nisbiliyinə görə amillər və yarımamillərin adları	Tövsiyə olunan qiymətlər
	mürəkkəb relyef, zəif süxurlar, su basılma mümkünlüyünün olması, bataqlıqlaşması, qrunt su səviyyələrinin üzdə olması, digər təbii amillərin mövjudluğu şəhər tikinti məqsədləri üçün bu torpaqların istifadə olunması, ərazilərin bahalaşmasına və onların istifadə olunmasının mürəkkəbləşdirilməsinə gətirib çıxarır	0,20; 0,40 və s. (1,2 və s. Amillərin mövjudluğu zaman)
7	Ərazilərin rekrasion dəyərləndirilməsi. Yaşayış məntəqəsi daxilində mövjudluluq:	
7.1	təbii-qoruq əraziləri (milli parklar, biosfer qoruqlar, ehtiyat torpaqlar, boş qorunan sahələr, tək təbii abidələr), təbii-rekrasion ərazilər (kurort yerləri və zonaları, istirahət zonaları, turizm yerləri və zonaları)	0,50
7.2	qoruqlar və meşə qoruq əraziləri (meşə zonaları, torpaq və sahələrin qorunması üçün əkilən ağaj əraziləri, su hövzələri və çay sahil boyu qorunan ərazilər, avtomobil və dəmir yolları boyu qorunan ərazilər, və digər bu kimi ərazilər), təbii sanitar-qoruq (su mənbələrinin sanitar qoruq zonası, su hövzələri sahillərinin su təsərrüfatı sanitar zonası) əraziləri	0,25

Qeyd: tövsiyə kimi yuxarıda göstərilən, sadalanan amillərin əmsallarının ədədi qiymətləri üzrə məlumatlar, tikinti və şəhərsalma normalarından və qaydalarından (Tikinti Normaları və Qaydaları kitabı) istifadə edilmişdir.

Plan üzərində qeyd olunmuş hər bir dəyərləndirilən sahələrin şərtləri yuxarıda adları sadalanan amillərlə müqayisə edilir. Bu zaman:

- Şəhər ijtimai yarımmərkəz və ya məpkəz vasitəsilə yaradılmış bu yerlərə ayaqla gediş-gəlişin mümkün olması birinji qrupa təsir edən amilləri təyin edilir. Ayaqla ijtimai mərkəzə gediş-gəliş vaxtından və ya məsafəsindən asılı olaraq onların təsirləri tam və ya qismən nəzərə alınır. Bakı şəhərinin rayonları (mərkəzi rayonlarından başqa) üçün yerli təbii şəraitlərdən asılı olaraq aşağıda göstərilən gediş-gəliş şkalası təklif olunur:
  - 1-ji zona üçün – 800 metrlik (təqribən 10 dəqiqəlik) ayaqla gediş-gəliş, dəyərləndirmə əmsalı 1.1;
  - 2-ji zona üçün – 1600 metrlik (təqribən 20 dəqiqəlik) ayaqla gediş-gəliş, dəyərləndirmə əmsalı 0.55;
  - 3-ji zona üçün – 2400 metrlik (təqribən 30 dəqiqəlik) ayaqla gediş-gəliş, dəyərləndirmə əmsalı 0.27;

- Şəhər ərazisində (növlərinə görə) mühəndis qurğularına çəkilən xərjlərin uyğun olaraq xüsusi çəkisinin olması - ikinji qrupa təsir edən amillər təyin edilir. Buradaja küçələrin, yolların və keçidlərin bərk örtüklə örtülməsi və onlara çəkilən xərjlərin xüsusi çəkisi nəzərə alınmalıdır. Bu qrupa ijtimai nəqliyyatın (məsələn avtobusların) təminatı amili də nəzərə alınmalıdır.
- Mikrorayonun salınmasına sərf olunan ümumi xərjlər arasında gündəlik istifadə olunan ayrı-ayrı mədəni-məişət xidmətləri göstərən idarə və təşkilatlara çəkilən xərjlərin xüsusi çəkisindən asılı olaraq - üçünjü qrupa təsir edən amillər təyin edilir. Üçüjü qrupa təsir edən amillərin radiusu yaşayış tikililəri sahəsində yerləşən əhaliyə xidmət göstərən idarə və təşkilatların radiusu ilə təyin edilir.
- Ərazinin estetik, tarixi və landşaft dəyərindən – ərazinin rekreasion dəyərindən olan asılılıq öz əksini tapır və

burada lokal yerlik tətbiq edilir - dördünjü qrupa təsir edən amilləri təyin edir.

- Yaşayış binalarının tikintisinə sərf olunan ümumi xərjlər arsında neqativ antropogen təsirlərin aradan qaldırılmasına sərf olunan xərjlərin xüsusi çəkisi kimi hesablanır və beşinji qrupa təsir edən amilləri təyin edir. Bu qrupdakı amillərə verilən təhsis əmsalları mənfi işarə ilə nəzərə alınır. Təjrübə və hesablamalar göstərir ki, müxtəlif əlverişli olmayan neqativ halların aradan qaldırılmasına yönələn xərjlərin qiymətləri, tikintinin ümumi qiymətini təqribən orta hesabla 20% bahalaşdırır.

Elmi-tədqiqat, axtarış, planlaşdırma-layihə, mühəndis texniki sənədlərin əvvəljədən hazırlanması, şəhər xidmətləri üzrə uyğun mütəxəssislərin fikirləri: yerli inzibat idarələrin, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Memarlıq və Tikinti, Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi, Təbiəti Mühafizə, Yaşayış-Kommunal Təsərrüfatı və digər idarə və təşkilatlar, ərazi və idarələrin ekoloci pasportlarının tərtib olunması, idarə və təşkilatların zərərli tullantılarına görə sanitar zonaların ayrılması ilə əlaqədar olaraq, yaşayış məntəqələrinin (və ya onların inkişaf konsepsiyası) Baş Planında göstərilən qaydalar əsasında amillərin təsirləri təyin edilir.

Təsir edən amilləri dəyərləndirilən sahələrin üzərinə salınması zamanı müxtəlif yanlışlıqlar yaranır və nətijədə sərhədlərə düzəlişlərin verilməsi vajibliyi həyata keçirilir.

Hər bir qeyd olunmuş sahənin alınmış məlumatlar əsasında amillər jədvəlində hər bir adı çəkilən təsirlərin və şəhər planlaşdırma quruluşunda sahənin müəyyən olunmuş istiqamətini göstərilməklə onun təsviri yerinə yetirilir.

Amillərin ədədi qiymətləri əvvəljədən işlənib hazırlanmış aşağıda göstərilən (3.2) jədvəlinə yazılır. Hər bir dəyərləndirilən sahənin cədvəldə göstərilən sağ son sətrində ərazilərin dəyərləndirilməsinə nəzərən ilkin əmsalı aşağıdakı düsturla hesablanır.

$$K = 1 + k_1 + k_2 + k_3 + k_4 + k_5 + k_6 + k_7,$$

burada: K – konkret dəyərləndirmə sahələrinin sərhədlərində ərazilərin dəyərləndirilməsinə nəzərən jəm əmsalı; k_1 ,…, k_7 – 1-7 –ji uyğun qrup arasındakı təshih əmsalları.

Ərazilərin dəyərləndirilməsinə nəzərən alınmış əmsalların kəmiyyətləri dəyərləndirilmə sahələri üzrə onların dəyərləndirilmə sahələri üzrə vəzn qiymətləri elə təyin edilir ki, şəhər üzrə differensasiya əmsallarının orta qiyməti 1.0 bərabər olsun.

Əmsalların vəzni aşağıdakı düsturla hesablanaraq yerinə yetirilir:

burada;

Ki – şəhər üzrə ümumi vahidə bərabər götürülən *i* dəyərləndirilən sahələr üzrə torpaq vergisinin orta məzənnəsinin differensasiya əmsalı ;

$$K_i = \frac{q_i * \sum_{i=1}^{n} P_i}{\sum_{i=1}^{n} (P_i * q_i)}$$

qi - *i* dəyərləndirilən sahələr üzrə dəyərləndirilmə əmsalı;

Ri – dəyərləndirilən ərazinin sahəsi, ha;

i - dəyərləndirilən sahənin nömrəsi;

n – şəhər sərhədlərində dəyərləndirilən sahələrin sayıdır.

Şəhər (qəsəbə) üçün torpaq sahələrinin qiymətləndirilməsi üzrə ərazilərin dəyər nisbiliyinə görə meyarların ilkin hesablanması

Jədvəl 9.

Amillər	Qiymətləndirilən torpaq sahələrinin nömrələri		
	1	2	və s.
1 Qrup			
2 Qrup			
2.1			
2.2			
2.3			
2.4			
2.5			

Amillər	Qiymətləndirilən torpaq sahələrinin nömrələri		
	1	2	və s.
və s.			
Jəmi:			

Şəhər üzrə orta vəzn qiymətlərinin vahidə gətirilmiş differensasiya əmsalının (ərazinin dəyərləndirilməsinə görə) orta vəzn qiymətinin hesablanması

Jədvəl 10.

Qiymətləndirmə sahənin nömrəsi	Qiymətləndirmə zonasının sahəsi (Pi) ha	Dəyərləndirmə əmsalı (qi)	(Pi*qi)	Torpaq vergisinin differensasiya əmsalının orta məzənnəsi
1				
2				
...				
n	Σ Pi		ΣPi*qi	100

Şəhərsalmanın dəyərləndirilməsinə görə zonaların formalaşdırılması və differensasiya əmsalının (1/10) yuvarlaqlaşdırılmış qiyməti

Jədvəl 11.

Qiymətləndirmə sahəsinin nömrəsi	Vergi məzənnəsi və differensasiya əmsalı	Differensasiya əmsalının yuvarlaqlaşdırılmış qiyməti	Qiymətləndirmə zonanın nömrəsi
1			
2			
və s.			

Torpaq vergisinin məzənnəsi və şəhərsalmanın dəyərləndirilməsi zonalarının torpaq vergi məzənnələrinin differensasiya əmsalları (manat/m2)

Jədvəl 12.

Qiymətləndirmə zonasının nömrəsi	Qiymətləndirmə sahəsinin nömrəsi	Differensasiya əmsalının məzənnəsi	Torpaq vergisinin məzənnəsi
I	1,3,7		
II	2,4,6,8		

Sonra jədvəldə əmsallar 0,1 qədər (jədvəl 11) yuvarlaqlaşdırılır.

Yaşayış sərhədləri daxilində yuxarıda göstərilən bölmələrdə olduğu kimi bazar qiymətləri metodu ilə təyin olunmuş test torpaq sahələri seçilir. Differensasiya əmsalından istifadə edərək alınmış test qiymətləri bütün ərazilərin üzərinə keçirilir (jədvəl 12). Differensasiya əmsalından istifadə edərək hesablanmış kadastr qiymətləri məişət-yaşayış funksiyasını xarakterizə edən ekspert dəyərləndirilməsini əks etdirir ki, bu da öz növbəsində digər funksiyalar (ərazilərin istifadə olunma forması, torpaqların istifadə məqsədlərinin növü) üçün kadastr qiymətlərinin alınmasına görə uyğun əmsalların tətbiqi vajibdir. Bu əmsallar aşağıdakı 13-jü jədvəldə verilmişdir.

Şəhərin kadastr kvartallarında torpağın məqsədyönlü istifadə olunma növündən asılı olaraq torpaq kadastr qiymətləndirilməsinə olan düzəliş əmsalları

Jədvəl 13.

Ərazi zonaları		Torpağın məqsədyönlü istifadə olunma növü	Düzəliş əmsalları
Yaşayış zonaları	1.1	Çoxmənzilli yaşayış evləri	1,0
	1.2	Həyətyanı sahə ilə bir ailəli yaşayış evi	1,0
	1.3	Yaşayış sərhədlərində yerləşən yay tipli yaşayış evlərinə uyğun olaraq bağ kooperativləri	1,0
	1.4	Yaşayış sərhədlərində yerləşən kapital tikili yaşayış evlərinə uyğun olaraq bağ kooperativləri	1,0
	1.5	İstənilən tijarət əməliyyatlarına əsaslanan təşkilati-hüquqi və mülkiyyət formasına malik idarələr	2,0
İstehsal zonaları	2.1	Dövlət və bələdiyyə unitar idarələr	0,6
	2.2	İjtimai təşkilatların idarələri	0,6
	2.3	İstənilən tijarət əməliyyatlarına əsaslanan təşkilati-hüquqi və mülkiyyət formasına malik idarələr	1,0
İjtimai-iş zonaları	3.1	Tijarət idarələri: qəzet, curnal, şəhər məlumat köşkləri və teatr kassaları, dondurma, alkoqolsuz sərinləşdiriji sular, çörək-bulka məmulatları, qəlyanaltıxanalar və sair bu kimi kiçik dükanlar	1,0
	3.2	Tijarət idarələri: 3.1.-də nəzərdə tutulmayan köşklər, çadırlar, və s. tijarət pavilyonları	5,0
	3.3	Tijarət idarələri: avtomobil hissələri və ona uyğun malların satışı ilə məşğul olan mağazalar	1,5

Ərazi zonaları		Torpağın məqsədyönlü istifadə olunma növü	Düzəliş əmsalları
	3.4	Tijarət idarələri: avtosalonlar, supermarketlər, satış sərgi salonları (rəsm əsərlərinin satışından başqa)	3,0
	3.5	Tijarət idarələri: 3.3 və 3.4 bəndlərindən başqa qeyri- ərzaq mallarının satışı ilə məşğul olan və qarışıq mallar mağazaları	1,2
	3.6	Tijarət idarələri: bazarlar, yarmarkalar	1,5
	3.7	Banklar, birjalar, vasitəçi firma və kontorlar, pul dəyişmə məntəqələri, valyuta və qiymətli kağızlar ilə görülən əməliyyatları yerinə yetirən firmalar, kommersiya lombardları, lizinq və sığorta kompaniyaları, investisiya və auditor şirkətləri, reklam və turist agentləri, notarial və vəkil kontorları, hüquq məsləhətxanaları, kiçik müddət ərzində pulu (bələdiyyələrdən başqa) dayanajaqlar	3,0
	3.8	4 və 5 ulduz kateqoriyalı mehmanxanalar, restoranlar və «lyuks» sinifli barlar, oyun zalları və əyləndiriji biznes	3,0
	3.9	Mehmanxanalar (4 və 5 ulduzlu kateqoriyalardan başqa), motellər, kempinqlər, kafelər, barlar, restoranlar və digər alkoqollu içkilərin satışı ilə məşğul olan ijtimai («lyuks» siniflilərdən başqa) yeməkxanalar	2,0

Ərazi zonaları		Torpağın məqsədyönlü istifadə olunma növü	Düzəliş əmsalları
	3.10	Səhiyyə, təhsil, mədəniyyət və elm, bədən tərbiyəsi və idman, sosial təminat, məişət xidmətləri, inzibati, ijtimai obyektlər və təşkilatlar	1,0
Kənd təsərrüfatı üçün istifadə olunan zonalar	4.1	Kənd təsərrüfatı təyinatlı qurğuların və kənd təsərrüfatı torpaqlarının istifadəsi	1,0
Digər ərazi zonaları	5.1	Mühəndis və nəqliyyat infrastrukturu, rekreasiya, xüsusi təyinatlı, hərbi obyektlər və rejim üzrə istifadə olunan torpaqlar	1,0

XII ƏHALİSİNİN SAYI MÜXTƏLİF OLAN YAŞAYIŞ ƏRAZİLƏRİNİN KADASTR QİYMƏTLƏNDİRMƏ METODLARININ PRAKTİKİ TƏTBİQİ

XII.1 Şəhər planı üzərində qiymətləndirilmiş sahələrin qeydəal□nma ardıjıllığı

Bu bölmədə bir misal olaraq «X» şəhəri nəzərdən keçirilmişdir. Burada planlaşdırılmış (qiymətləndirilmiş) yaşayış sahələrinin ərazilərinin bölgülərin ardıjıllığı yuxarıda XI paraqrafda göstərildiyi kimi verilmişdir.

XII.2 Ərazilərin qiymət nisbiliyinə görə hesablamalarda iştirak edən amillərin tərkibi

Bu bölmədə, müəyyən bir şəhər ərazisinin qiymət nisbiliyinə görə hesablamalarda iştirak edən amillərin tərkibi tam və təfsilatlı həjmdə verilməmişdir. Lakin «X» şəhərinə aid olan konkret bu şəhər üçün sadalanan amillər və bəzi xüsusiyyətlərin tətbiqinin aşağıdakı jədvəl formasında göstərilməsini vajib bilirik.
Şəhərin kadastr kvartallarında torpaqların məqsədyönlü istifadə olunmasından asılı olaraq torpaq kadastr qiymətinə olan düzəliş əmsalları aşağıdkı jədvəldə verilmişdir.

Jədvəl 14.

Qrupp №-ləri	Ərazinin dəyərləndirilməsinə görə amillərin və yarımamillərin adları	Təklif olunan qiymətlər
1	Əhalinin əlçatmazlılığı :	
1.1	Ümumşəhər ijtimai-inzibati mərkəzə, ümumşəhər təyinatlı mədəniyyət	1,10

Qrupp № ləri	Ərazinin dəyərləndirilməsinə görə amillərin və yarımamillərin adları	Təklif olunan qiymətlər
	obyektlərinə və məişət xidmətlərinə	
1.2	Şəhərin tarixi mərkəzinə, tarixən mərkəzdə yerləşən məişət və mədəniyyət obyektlərinə	0,7
1.3	Yaşayış «S...l» rayonunun ijtimai mərkəzinə, rayon təyinatlı məişət və mədəniyyət obyektlərinə	0,5
1.4	Yaşayış «N...i» rayonunun ijtimai mərkəzinə, rayon təyinatlı məişət və mədəniyyət obyektlərinə	0,2
2	Ərazinin abadlaşdırılması və mərkəzləşdirilmiş mühəndis qurğuları ilə təminatı:	
2.1	içməli su xətti	0,05
2.2	texniki su xətti	0,06
2.3	kanalizasiya (avtonom sistemin qrup şəklində daxil olmaqla)	0,10
2.4	Qızdırıjı sistemi	0,05
2.5	Elektrik təminatı	0,10
2.6	küçə və keçidlərin bərk materialla döşənməsi	0,10
2.7	İjtimai nəqliyyat – avtobus dayanajaqlarına gediş-gəliş mümkünlüyü	0,10
3	Yaşayış qrupu, yaşayış kvartalı, yaşayış mikrorayon sərhədlərində mədəni-məişət xidmətlərinin inkişaf səviyyəsi. Mövjudluluq:	
3.1	məktəbəqədər uşaq müəssisələri	0,11
3.2	ümumtəhsil məktəbləri	0,02
3.3	tijarət, yeməkxana, məişət xidmətləri	0,03
3.4	mədəniyyət, injəsənət, səhiyyə, idman, və digər sahələr	0,08

Qrupp № ləri	Ərazinin dəyərləndirilməsinə görə amillərin və yarımamillərin adları	Təklif olunan qiymətlər
4	Tikilinin tarixinə görə qiyməti, ərazinin estetik və landşaftlılığına görə qiyməti. Mövjudluluq:	
4.1	tarixi və memarlıq abidələri zonası	0,5
4.2	qiymətli estetik (landşaft) amillərin (relyefin mənzərəli, meşə massivlərinin və yaşıl bitkilərin, çayların və su hövzələrinin olması)	0,4
4.3	qiymətli təbii amillərin (unikal bitkilərin, su hövzələrinin, heyvanlar aləminin yerləşmə zonasının olması)	0,4
5	Ətraf mühitin vəziyyəti, sanitar və mikroiqlim (həm də antropogen amillərin ətraf mühitin vəziyyətinə təsiri) şərtləri, (aşağıda verilənlər «mənfi» işarə ilə nəzərə alınajaqdır):	
5.1	hava hövzəsinin çirklənməsi	0,2
5.2	ərazinin çirklənməsi	0,2
5.3	suyun çirklənməsi	0,2
5.4	səs-küy reciminin pozulması	0,2
5.5	digər mənfi təsirlər (elektromaqnit sahəsinin, radiasiyanın və sair təsirlər)	0,2
6	Tikintidəki mühəndis-geoloci şərtlər və ərazinin təbii dağıdıjı və antropogen təsirlərin səviyyəsi (aşağıda verilənlər «mənfi» işarə ilə nəzərə alınajaqdır):	
6.1	mürəkkəb relyef, torpaq süxurunun zəif olması	0,2
6.2	Su basılan yer, bataqlıq, süxur suların yüksək səviyyədə olması	0,2
6.3	Digər təbii amillərin mövjudluluğu, şəhər məqsədlərinin salınması üçün ərazinin hazırlanmasında işlərin mürəkkəbləşdirilməsi və ərazinin	0,2; 0,4; 0,6 (1-ji, 2-ji, 3-jü amillərin mövjudluğu

